RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 68 (9523) 3 aprel 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan COP29 çərçivəsində də dinlərarası dialoqun təşviqinə dəstək verməyə hazırdır

### Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi istiqamətində böyük səylər göstərdiyini qeyd edən dövlətimizin başçısı 2020-ci ildə işğaldan azad edilmiş Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunduğunu xatırlayaraq bu qərarın bütün islam dünyasının Azərbaycana göstərdiyi böyük dəstəyin təzahürü olduğunu bildirdi və gələn ay Şuşada təntənəli tədbirlərin keçiriləcəyini məmnunluqla vurğuladı.

Məhəmməd Əbdülsalam Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əhməd Ət-Tayyib həzrətlərinə çatdırmağı xahiş etdi.

Qonaq şeyx həzrətlərinin Prezident İlham Əliyevin sülhün bərqərar olması istiqamətində göstərdiyi səyləri yüksək dəyərləndirdiyini vurğuladı. O qeyd etdi ki, müharibədən çıxmış Azərbaycanın dövlət başçısının öz çıxışlarında sülhə çağırışları heyrətamizdir və təsadüfi deyil ki, Prezident İlham Əliyevin saxlanılan şəxslərin mübadiləsi və sülhün bərqərar olunması istiqamətində irəli sürdüyü təşəbbüsdən sonra Müsəlman Ağsaqqalları Şurası bəyanatla çıxış edib.

→ 2



# Azərbaycan xəbərdarlığını etdi

## Ermənistanın hər hansı təxribatı ona baha başa gələcək

**Aprelin 5-də Brüsseldə keçirilməsi planlaşdırılan Aİ-Ermənistan-ABŞ müştərək konfransının Ermənistanda yaratdığı revanşist əhvali-ruhiyyə İrəvanın ölkəmizə qarşı hərbi təxribatlar törətmək həvəsinə düşməsi fonunda açıq şəkildə ortaya çıxıb. Belə ki, törədəcəyi bütün təxribatların qərəzli Qərb təsisatları tərəfindən birmənalı olaraq dəstəklənəcəyindən arxayın düşən Hayastan sözügedən tarixdə Brüsseldə Ermənistanın baş naziri, ABŞ Dövlət katibi və Avropa Komissiyasının prezidenti arasında keçirilməsi nəzərdə tutulan konfransdan daha da cürətlənərək Azərbaycanı müharibə ilə hədələməyə, sərhədlərimizi atəşə tutmağa başlayıb.**

### Hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq

ABŞ və Aİ-nin Cənubi Qafqazla bağlı yürütdüyü bölücü siyasətin ruporu rolunu oynayan Ermənistan sülh prosesindən yayınır, özünün 44 günlük müharibədəki, eləcə də 23 saatlıq antiterror tədbirlərindəki biabırçı məğlubiyyətlərindən dərs çıxarmayaraq revanşa həvəslənir.

Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsinin, zirehli texnikasının, artilleriya qurğularının, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə edilir.

Məsələ ilə əlaqədar aprelin 1-də yaydığı məlumatda Müdafiə Nazirliyi bildirib ki, Ermənistan Azərbaycan ilə şərti sərhəddə qoşunlarını cəmləşdirməyə və hücum xarakterli dayaq məntəqələrini qurmağa davam edir. Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edib ki, Azərbaycan Ordusu tərəfindən Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarlarının üzərinə düşəcək.

Artıq hər kəsə bəlli olan gerçəklikdir ki, iki ölkə arasında normallaşma ilə bağlı hər hansı irəliləyişin əldə olunmaması üçün Ermənistan davamlı olaraq Azərbaycana qarşı siyasi, hərbi təxribatlar törədir. Başda Fransa və ABŞ olmaqla Qərb siyasi dairələrinin Ermənistana hərbi dəstək verməsi, onu silahlandırması İrəvanda müharibə eyforiyası yaradır. Ermənilər Azərbaycan Ordusu tərəfindən darmadağın edilən silahlı qüvvələrinin acınacaqlı vəziyyətini, fərarilərdən ibarət döyüşçülərinin rəzil durumunu unudaraq "dəmir yumruq"la yenidən savaşmaq niyyətinə düşürlər.

→ 4

## Azərbaycan müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımlar atır

### Prezident İlham Əliyev Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə "ASELSAN" şirkətinin baş direktoru Ahmet Akyol, "ASFAT" şirkətinin baş direktoru Behçet Karataş, "HAVELSAN" şirkətinin baş direktoru Mehmet Akif Nacar, "Maşınqayırma və Kimya Sənayesi" şirkətinin baş direktoru İlhami Keleş, "REPKON Grup" şirkətinin prezidenti İbrahim Külekçi, "ROKETSAN" şirkətinin baş direktoru Murat İkinci, "Müdafiə Texnologiyaları və Mühəndislik" şirkətinin baş direktoru Özgür Güleryüz, "Türkiyənin Aviasiya və Kosmos Sənayesi - TUSAŞ" şirkətinin baş direktoru Temel Kotil daxildirlər.

→ 2

## Mümkün təxribatların məsuliyyəti Qərbin və Ermənistanın üzərinə düşür

Amma Ermənistan hansı havadarına güvənir-güvənsin, fərq etməz, Azərbaycana qarşı istənilən revanşist davranışında, hərbi təxribat əməlində "dəmir yumruğ"un ölümcül zərbəsini yenə təpəsində hiss edəcək. Müdafiə Nazirliyinin bəyanatında da qeyd edildiyi kimi, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq.

→ 6

## Asiya nəhəngi Cənubi Qafqazın lider ölkəsini seçir

### Azərbaycan-Çin iqtisadi əlaqələri getdikcə daha çox sahəni əhatə edir



→ 11

## Ermənistanın "yenilməz ordu" mifi Aprel döyüşlərində darmadağın edildi

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində erməni əsgərlər Aprel döyüşlərində yaşadıqları ruh düşkünlüyünü təkrar yaşadılar, döyüş meydanlarından qorxub qaçdılar. Onlar başa düşdülər ki, Azərbaycan Ordusunun qarşısını heç nə ilə ala bilməyəcəklər. Ordumuz qarşısına qoyulmuş tarixi vəzifəni uğurla icra edirdi. 44 gündən sonra Şuşada bayrağımız dalğalandırıldı...

→ 7

## Qərb Ermənistanı qlobal oyunlara çəkir

Ermənistanın işğalçı dövlət olduğunu isbatlamaq üçün heç də uzağa getmək lazım deyil. Bunun üçün BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməni xatırlatmaq kifayətdir. Bu ölkənin Azərbaycan torpaqlarını işğal etməsini görüb susan, heç vaxt belə konfrans keçirməyən Aİ-nin və ABŞ-nin faktiki olaraq Ermənistanın təhlükəsizliyinə heç bir təhdid olmadığı halda konfrans keçirib "təhlükəsizliyinə" təminat verməsi nəyə xidmət edir? Görünən budur ki, Ermənistanın təhlükəsizliyinə təminat verən Qərb Cənubi Qafqazda Rusiya ilə müharibəyə hazırlaşır.

→ 6

## Sağlam gələcəyin yolu "yaşıl enerji"dən keçir

Qlobal aləmdə də bu hədəflər əsas götürülür. İqlim dəyişikliyinin ölkələrin iqtisadiyyatı üçün ciddi problemlər yaratdığını nəzərə alsaq, son illər "yaşıl inkişaf"ı dəstəkləyən təşəbbüslərin aktuallaşmasının səbəbini anlamaq çətin deyil. Ətraf mühitin qorunmasında isə "yaşıl enerji"nin müstəsna əhəmiyyəti var. Sağlam mühitdə yaşamaq üçün məsuliyyətli olmaq, təbiətə münasibətdə etik prinsiplərə əməl etmək və yeni dəyərlər formalaşdırmaq tələbi bilavasitə "yaşıl enerji"dən keçir. Əslində "yaşıl enerji" bu günün tələbi deyil.

→ 5

# Azərbaycan COP29 çərçivəsində də dinlərarası dialoqun təşviqinə dəstək verməyə hazırdır

## Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının Baş katibini qəbul edib



*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı dedi ki, Azərbaycanın 28 ildən artıq müddətdə Ermənistanın işğalı və hərbi təcavüzü ilə üzləşməsinə baxmayaraq, məhz ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün sülh müqaviləsi təşəbbüsü ilə çıxış edib. Prezident İlham Əliyev işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın maddi-mədəniyyət nümunələrinin, həmçinin islam dininə aid ibadət ocaqlarının dağıdıldığını, bu xüsusda həmin ərazilərimizdə olan 67 məsciddən 65-nin tamamilə darmadağın edildiyini vurğuladı. Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini qeyd etdi.

COP28-də iqlim naminə dini pavilyon təşkil olunduğunu və 4000-dən çox insanın bu pavilyonu ziyarət etdiyini diqqətə çatdıran qonaq qeyd etdi ki, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin birbaşa dəstəyi və onun Roma Papası ilə birgə əməkdaşlığı şəraitində COP28-də dünyanın 30-dan çox dini liderinin iştirakı ilə tədbir keçirilib və bu tədbirdə dini liderlər qlobal iqlim dəyişikliyinin qarşısının alınması istiqamətində "Vicdan çağırışı" adlı bəyanat imzalayıblar. O, COP29 çərçivəsində də ev sahibi olaraq Azərbaycanla əməkdaşlıq şəraitində belə bir tədbiri keçirmək niyyətində olduqlarını dedi.

Prezident İlham Əliyev dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində Azərbaycanın mühüm rol oynadığını vurğulayaraq, bu xüsusda Bakıda keçirilən mötəbər tədbirlərə toxundu. Dövlətimizin başçısı yaxın zamanda ICESCO, UNESCO və BMT-nin Sivilizasiyalar Alyansının dəstəyi ilə Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunun yenidən keçiriləcəyini bildirdi. Prezident İlham Əliyev COP29 çərçivəsində də Azərbaycanın dinlərarası dialoqun təşviqinə dəstək verməyə, bunun bir nümunəsi kimi dünya dini liderlərinin görüşünün keçirilməsinə və bu sahədə əməkdaşlığa hazır olduğunu vurğuladı.

Söhbət zamanı islam dünyasında məzhəblərarası dialoqun vacibliyinə toxunuldu, bu xüsusda Azərbaycanın nümunəsi uğurlu örnək kimi məmnunluqla qeyd olundu.

# Azərbaycan müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımlar atır

## Prezident İlham Əliyev Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



*Əvvəli 1-ci səh.*

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olundu, Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.



Prezident İlham Əliyev Türkiyə hərbi sənaye kompleksinin məhsullarının keyfiyyət və səmərəliliyə görə artıq dünya səviyyəsində məşhurlaşdığını məmnunluqla qeyd etdi. Dövlət başçısı eyni zamanda Azərbaycanda müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımların atıldığını vurğuladı və bu baxımdan Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən Haluk Görgün böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməklərindən məmnunluq duyduqlarını vurğuladı və Türkiyə müdafiə sənayesinin əsasını təşkil edən nüfuzlu şirkətlərin rəhbərlərinin burada təmsil olunduqlarını bildirdi. Haluk Görgün səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin tərkibində olan şirkətlər ilə Azərbaycan müdafiə sənayesi şirkətləri arasında bir neçə istiqamətdə birgə fəaliyyətlə bağlı anlaşma memorandumlarının imzalanması barədə dövlətimizin başçısına məlumat verdi.

Türkiyənin Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Ramazan ayı münasibətilə təbriklərini və bu müqəddəs ayın Azərbaycan üçün xeyirli və bərəkətli olması ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Haluk Görgün Azərbaycanın Vətən müharibəsində əldə etdiyi inamlı Zəfəri vurğulayaraq İlham Əliyevin prezident seçkilərində qalib gəlməsini bir-birinin ardınca qazanılan qələbə hadisələri kimi qiymətləndirdi. O, prezident seçkilərindən sonra dövlətimizin başçısının bu ilin fevralında Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafında rolunu qeyd etdi.

Sonda Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim olundu.

# "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 312 (Cild I) 1-ci hissəsində "Fikrət Məmmədov" sözləri "Fərid Əhmədov" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2024-cü il*

# *Ceyhun BAYRAMOV:* "Bəzi Qərb ölkələrində islam əleyhinə aparılan siyasət ciddi narahatlıq doğurur"

**Aprelin 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalam ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Müsəlman Ağsaqqalları Şurası ilə əməkdaşlıq məsələləri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri, beynəlxalq səviyyədə islam dininə qarşı təhdidlər, dini həmrəylik məsələləri müzakirə olunub.



Nazir Ceyhun Bayramov ölkəmizin islam dünyasında birlik və həmrəyliyin təşviqinə böyük əhəmiyyət verdiyini, bu istiqamətdə ikitərəfli, həmçinin regional və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli səviyyələrdə qarşılıqlı dəstək və əməkdaşlığın inkişafının vacibliyini qeyd edib.

Ölkəmiz tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi, o cümlədən islamofobiya kimi təhlükəli tendensiyalarla mübarizə istiqamətində həyata keçirilən layihələrdən bəhs edən nazir Ceyhun Bayramov bəzi Qərb ölkələrində islam əleyhinə aparılan siyasətin ciddi narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Baş katib Məhəmməd Əbdülsalam Azərbaycanın islam dünyasında əməkdaşlığa verdiyi töhfələrin, eləcə də postmünaqişə dövründə sərgilədiyi mövqe və sülh təşəbbüsü ilə çıxış edən tərəf olmasının təqdirəlayiq hesab olunduğunu diqqətə çatdırıb. Ötənilki təcrübəyə uyğun olaraq, bu il də COP29 çərçivəsində iqlim dəyişikliyinə qarşı mübarizə ilə əlaqədar dini liderlər tərəfindən birgə təşəbbüslərin irəli sürülməsinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın müdafiə naziri Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqları salamlayan general-polkovnik Z.Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən birgə istehsalat layihələrinin iki qardaş ölkənin ordularının müdafiə qüdrətini daha da artıracağına əminliyini ifadə edib.

H.Görgün öz növbəsində göstərilən qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlığını bildirib, dövlət başçılarımızın səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında mövcud olan ikitərəfli hərbi əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı qeyd edilib.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahit Bağçının və bu ölkənin aparıcı hərbi sənaye şirkətlərinin rəhbərlərinin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Konqo arasında ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq məsələləri müzakirə olunub

Aprelin 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Konqo Respublikasının xarici işlər və əməkdaşlıq naziri Jan-Klod Qakossonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və Jan-Klod Qakosso arasında təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniş tərkibdə görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli platformalarda mövcud əməkdaşlıq, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq işləri (COP29), habelə regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan ilə Konqo arasında beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı (QH) çərçivəsində qarşılıqlı dəstək və faydalı əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırıb.

Müxtəlif istiqamətlər, o cümlədən neft və energetika, təbii resurslar, dövlət xidmətləri sektoru, təhsil, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində qarşılıqlı səfərlərin və təmasların əhəmiyyəti qeyd olunub.

Ölkəmizin QH-yə sədrliyi dövründə Afrika ölkələri ilə münasibətlərin daha da inkişaf etdirildiyini qeyd edən nazir Ceyhun Bayramov Azərbaycanın bundan sonra da mövcud əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib.

Cari ildə COP29-a sədrliyimiz çərçivəsində aparılan danışıqlar prosesi, hazırlıq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov COP29-un əməkdaşlıq üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb.

Görüşdə nazirlər Konqo Prezidentinin ölkəmizə səfəri zamanı imzalanması nəzərdə tutulan iki ölkə arasında əməkdaşlıq haqqında birgə bəyannamə və digər rəsmi sənədlərin münasibətlərin daha da dərinləşməsinə xidmət edəcəyinə dair əminlik ifadə ediblər.



Tərəflər iki ölkə arasında mədəni əlaqələrin daha da genişləndirilməsi, mədəniyyət sahəsində festivalların keçirilməsinin faydalı ola biləcəyini bildiriblər.

Nazir Jan-Klod Qakosso Azərbaycana səfərindən məmnunluq duyduğunu, ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı üçün potensialın mövcud olduğunu və bu imkanlardan istifadə edilməsinin əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ukraynanın ölkəmizdəki səfirinin Azərbaycandakı diplomatik fəaliyyəti başa çatır

**Aprelin 2-də xarici işlər naziri Ceyhun Bayramov Ukraynanın Azərbaycanda səfiri Vladislav Kanevski ilə ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

İki ölkə və xalqlarımız arasında münasibətlərin tarixi təməllərə əsaslandığı, daim beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən ərazi bütövlüyü və suverenliyə hörmət əsasında inkişaf etdiyi xüsusilə qeyd olunub. Görüşdə Ukrayna tərəfi Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi üçün əhəmiyyətini vurğulayıb və buna görə minnətdar olduqlarını qeyd edib.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfir Kanevskiyə iki ölkə arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə təşəkkür edilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

# Yaponiya ilə iqtisadi əlaqələrin inkişafı imkanları müzakirə edilib

**Yaponiya ilə iqtisadi əlaqələrin inkişafı, o cümlədən bu ölkənin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabe ilə görüşüb. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin Yaponiya ilə əməkdaşlığın inkişafına önəm verdiyi vurğulanıb. Qeyd olunub ki, rəqəmsal iqtisadiyyat və dördüncü sənaye inqilabı texnologiyalarının tətbiqi, enerji və digər sahələrdə tərəfdaşlığın inkişafı prioritet məsələlərdəndir.



Tərəflər ikitərəfli biznes tərəfdaşlığının əsas istiqamətləri, Azərbaycan və Yaponiya şirkətləri arasında dialoqun gücləndirilməsi, investisiya və vergitutma sahəsində, COP29 çərçivəsində əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

# Azərbaycanla Rusiya arasında münasibətlər mehriban qonşuluğa və qarşılıqlı anlaşmaya əsaslanır

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycanla Rusiya arasında münasibətlərin mehriban qonşuluğa və qarşılıqlı anlaşmaya əsaslandığı, əlaqələrimizin bir çox sahələri əhatə etdiyi qeyd olunub. Bu səfərin də ölkələrimiz arasında əlaqələrin bir göstəricisi olduğu bildirilib. Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının şəxsi münasibətlərinin rolu xüsusi vurğulanıb.

Milli Məclisin Sədri xalqlarımız arasında əsrlərboyu davam edən tarixi əlaqələrin mövcud olduğunu, bu münasibətlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova Rusiyada baş vermiş terror hadisəsi ilə əlaqədar başsağlığı verib.

Görüşdə həmçinin ikitərəfli əlaqələrin inkişafında parlamentlərin mühüm rolu vurğulanıb. Qeyd olunub ki, Milli Məclis həm Federasiya Şurası, həm də Dövlət Duması ilə sıx əməkdaşlıq edir. Qarşılıqlı səfərlər, tərəflər arasında müsbət dialoq bu əlaqələrin daha da inkişafına töhfə verir. Dostluq qruplarının qarşılıqlı fəaliyyətinin münasibətlərimizin dərinləşməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

Spiker Sahibə Qafarova özünün Rusiya Federasiyasına rəsmi səfərlərini xatırladaraq Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisinin Dövlət Duması arasında imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun bu əlaqələrin daha da inkişafına imkanlar yaratdığını vurğulayıb. O, qanunvericilik orqanlarının komitələri arasında əməkdaşlıq məsələlərinin də nəzərdən keçirildiyini söyləyib.

Milli Məclisin Sankt-Peterburq Qanunvericilik Məclisi ilə əlaqələrinin olduğu, Qanunvericilik Məclisinin üzvlərinin ölkəmizə səfər etdiyi də xatırlanıb.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov Azərbaycan Respublikası ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yaradılmasının 20-ci ildönümü münasibətilə ölkəmizə səfər etdiyini xatırladıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi xoş xatirələrlə yad edən qubernator deyib ki, bu müdrik şəxsiyyətin əsasını qoyduğu siyasi kursu bu gün Prezident İlham Əliyev böyük uğurla davam etdirir. O, ötən il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğunu xatırladaraq Sankt - Peterburq şəhərində də geniş tədbirlərin keçirildiyini bildirib.

Qonaq söhbət zamanı həmçinin paytaxt Bakı şəhəri haqqında da xoş xatirələrini bölüşüb və şəhərimizin inkişafının qonaqlarda dərin təəssüratlar yaratdığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# "Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər" mövzusunda konfrans keçirilib






**Aprel ayının 2-də "Ritz-Carlton" hotelində Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə "Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər" mövzusunda geniş konfrans keçirilmişdir.**

Ümumilikdə 20-dək müxtəlif dövlət qurumu və hüquq-mühafizə orqanlarının rəhbər vəzifəli şəxsləri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ali təhsil ocaqlarının nümayəndələri və vətəndaş cəmiyyəti üzvlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Ali Məhkəmənin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini Allahverən İsmayılov, Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov tərəfindən çıxışlar etmiş, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev tərəfindən "Elektron prokurorluq" informasiya sisteminin təqdimatı keçirilmişdir.

Daha sonra konfrans iştirakçıları tərəfindən ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və digər qanunvericilik aktlarında əlavə və dəyişikliklər edilməsi və mərhələli şəkildə elektron cinayət təqibinin tətbiqi, ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar cinayət prosesi iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin prosessual hüquqlarının və ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron cinayət prosesinə keçidlə əlaqədar aidiyyəti qurumların əməkdaşlarının bu sahədə peşəkarlığının, bilik, bacarıq və vərdişlərinin artırılması və digər aktual məsələlər geniş müzakirə edilmişdir.

*"Azərbaycan"*

# Baş Prokurorluqla Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb

**Aprelin 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.**

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov imzalayıblar.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev iki orqan arasında əməkdaşlığın hər zaman yüksək səviyyədə olduğunu bildirməklə yanaşı, həmin memorandumun yeni mərhələyə keçid olduğunu ifadə edib. Tərəflər arasında münasibətlərin korrupsiyaya qarşı, dövlət maliyyə sahəsində, o cümlədən iqtisadi xarakterli cinayətlərə qarşı mübarizəyə töhfə verdiyini bildirib.

Sonra çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ali audit orqanlarının korrupsiyanın qarşısının alınmasına cəlb edilməsi təcrübəsinin son illərdə genişləndiyini, korrupsiyaya qarşı mübarizənin Hesablama Palatasının vəzifələrindən biri olduğunu və əməkdaşlıq çərçivəsində müxtəlif təlim proqramlarının həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib.



Qeyd edək ki, memorandum çərçivəsində tərəflər korrupsiyaya qarşı mübarizə səylərini birləşdirmək, bu sahədə sistemli, kompleks və innovativ xarakterli tədbirlərin icrasının davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər sahələrdə mövcud təcrübəni bölüşməklə ikitərəfli münasibətlərin səmərəli təşkil edilməsi və inkişafının təşviqi məqsədilə səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi barədə razılıq əldə ediblər.

# Daxili işlər nazirinin xidmətə qəbulla bağlı növbəti sıra baxışı olub

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 2-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**



Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 205 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 24 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Əmək və sosial siyasət komitəsinin iclasında 6 məsələ müzakirə olunub

**Aprelin 2-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 6 məsələ müzakirə olunub.**



Əvvəlcə "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinə baxılıb. Təklif olunan dəyişikliklər barədə məlumat verən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, qanun layihəsi "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanının 3.3-cü bəndinə uyğun olaraq hazırlanıb. O, "Sosial sığorta haqqında" qanunun 15-ci maddəsinə, həmçinin Vergi Məcəlləsinin 102-ci maddəsinə təklif olunan düzəlişlərin Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşlarına şamil olunan güzəştlərdən istifadə hüququnu təmin edəcəyini diqqətə çatdırıb.

Qeyd olunub ki, qanun layihəsi DTX-nin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş Qaydaları"na uyğun olaraq ödənilən bütün növ ödənişlərin (dövlət məvacibi istisna olmaqla) məcburi dövlət sosial sığorta haqqı və gəlir vergisindən azad edilməsini nəzərdə tutur. Diqqətə çatdırılıb ki, diplomatik xidmət orqanları əməkdaşları ilə yanaşı, təyin olunduqları ölkələrdə dövlət qulluğunun xüsusi növündə xidmət keçən Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin də həmin güzəştlərdən istifadə etmələrinin təmini ilə əlaqədar qeyd olunan normativ hüquqi aktlarda da dəyişiklik edilməsi zərurətini yaratmışdır.

Gündəlikdə duran növbəti məsələlər barədə danışan komitə sədri Musa Quliyev bildirib ki, "Əmək pensiyaları haqqında", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda komitənin müzakirəsinə çıxarılıb. Komitə sədri bildirib ki, qanun layihələri ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb.

Gündəliyin sonuncu məsələsi "Media haqqında" Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) idi. Komitə sədri bildirib ki, təklif olunan dəyişikliklər redaktə və uyğunlaşdırma xarakteri daşıyır.

Müzakirələrdə komitə üzvləri Vüqar Bayramov, Jalə Əliyeva, Soltan Məmmədov, Arzu Nağıyev, Məlahət İbrahimqızı və Əziz Ələkbərov məsələlər ilə bağlı fikir və qeydlərini səsləndiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Bakıda Yunanıstanın Milli Günü qeyd edilib





**Yunanıstanın Milli Günü münasibətilə aprelin 2-də Bakıda rəsmi qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbir hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.**

Tədbirdə çıxış edən Yunanıstan səfiri Xristos Kapodistrias ölkələrimiz arasında dostluq münasibətlərini yüksək qiymətləndirib.

Yunanıstan və Azərbaycan arasında əlaqələrin müxtəlif sahələri əhatə etdiyini qeyd edən diplomat bildirib ki, yaxın həftələrdə Hökumətlərarası Birgə Komissiyanın növbəti iclası keçiriləcək.

"Əminik ki, bir neçə aydan sonra Azərbaycan həm təşkilati, həm də mahiyyət etibarilə COP29 sammitinə uğurla evsahibliyi edəcək. Bizim enerji sektorunda əməkdaşlığımız artıq bir uğur hekayəsidir. "Cənub qaz dəhlizi"nin bir hissəsi olan Trans-Adriatik boru xətti qitənin enerji təchizatında əhəmiyyətli problemlərlə üzləşdiyi bir dövrdə Azərbaycandan qazı Avropaya gətirən strateji infrastrukturdur. Artıq üç ildən çoxdur ki, Trans-Adriatik boru xətti təbii qazı Azərbaycandan Yunanıstana, Bolqarıstana və İtaliyaya, eləcə də qonşumuz Türkiyə vasitəsilə dayanıqlı və etibarlı şəkildə nəql edir", - deyə səfir vurğulayıb.

Onun sözlərinə görə, əməliyyatlar başlayandan bəri Trans-Adriatik boru xətti vasitəsilə Yunanıstan, Bolqarıstan və İtaliyaya 33,5 milyard kubmetrdən çox qaz nəql edib.

Diplomat əmin olduğunu bildirib ki, ölkələrimiz arasında əlaqələr dərinləşməkdə davam edəcək.

Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkələrimiz arasında faydalı əməkdaşlıq, siyasi dialoqun mövcud olduğunu deyib. Diqqətə çatdırıb ki, iki ölkənin xarici işlər nazirləri mütəmadi görüşür, siyasi məsləhətləşmələr aparırlar.

Müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələrinin aparıldığını qeyd edən diplomat bildirib ki, bunlardan ən əsası, təbii ki, neft, qaz layihələridir. Vurğulayıb ki, təhsil, mədəniyyət və turizm sahəsində əməkdaşlıq əlaqələri yüksək səviyyədədir.

"Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayır. Bu il Hökumətlərarası Birgə Komissiyanın iclası keçiriləcək. İnanırıq ki, əməkdaşlığımız bundan sonra daha da möhkəmlənəcək", - deyə nazir müavini qeyd edib.

# Bakı Şəhər İcra Hakimiyyətində elmi-praktiki konfrans keçirilib





**Bakı Şəhər İcra Hakimiyyətində ölkənin tanınmış ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin, tarixçi alimlərin, siyasətçilərin, iqtisadçıların, jurnalistlərin, din xadimlərinin, Milli Məclisin deputatlarının və Vətən müharibəsi iştirakçılarının iştirakı ilə elmi-praktiki konfrans keçirilib.**

Konfrans "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının davamı olan 2-ci kitabın çapına hazırlıq işlərinə həsr edilib.

Tədbiri açıq elan edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, yeni kitabda Vətən müharibəsindən sonrakı müddət ərzində ölkəmizdə baş verən əhəmiyyətli hadisələrin obyektiv və elmi izahı dahi şəxsiyyət və sərkərdə İlham Əliyev faktoru nöqteyi nəzərindən öz əksini tapacaqdır.

Qeyd edilib ki, birinci kitab ölkəmizdə və eyni zamanda ölkə xaricində oxucu və ekspertlərin böyük marağına səbəb olduğundan 8 dildə -Azərbaycan, türk, ingilis, rus, ərəb, fars, çin və urdu dillərində nəşr edilib. Hazırda kitabın ispan və fransız dillərində tərcüməsi və çapı üzərində işlər davam edir.

Bildirilib ki, Vətən müharibəsindən keçən qısa dövr ərzində ölkədə bir sıra mühüm hadisələr, o cümlədən 2023-cü ilin sentyabr ayındakı lokal antiterror əməliyyatı və ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsi, Xankəndi şəhərində keçirilən hərbi parad və digər mühüm əhəmiyyət kəsb edən proseslər baş verib. Bu da yeni kitabın nəşr edilməsi zərurətini yaradıb.

Kitaba daxil ediləcək mövzuların təhlili və geniş fikir mübadiləsi ilə keçirilən tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA Tarix İnstitutunun direktoru, professor Kərim Şükürov, Milli Məclisin deputatları Musa Quliyev, Musa Qasımlı, Hikmət Babaoğlu, Dövlət İdarəçilik Akademiyasının dekanı Elçin Əhmədov və digərləri çıxış edərək çap olunacaq kitabın əhəmiyyətindən danışmış, Vətən savaşında qazanılan şanlı Qələbə və sonrakı dövrə aid hadisələrin geniş təbliğinin vacibliyini vurğulamışlar. Kitabın bu ilin sonuna kimi işıq üzü görəcəyi nəzərdə tutulub.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# *Nazir:* "Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb"



**"İndiyədək 5 mindən artıq sakin işğaldan azad edilmiş bölgələrə qayıdıb. Onların 2500 nəfərdən çoxunu əmək qabiliyyətli əhali təşkil edir və həmin ərazidə öz həyatlarını qurmaq üçün sakinlərin məşğulluğu təmin edilməlidir. Təkcə mənzillərin verilməsi və sosial ödənişlərlə həyatı təmin etmək olmur. Ona görə də Böyük Qayıdış Proqramı çərçivəsində çoxsaylı məşğulluq tədbirlərinin həyata keçirilməsi də nəzərdə tutulub".**

AZƏRTAC xəbər verir ki, bunu yeni fəaliyyətə başlayan DOST TV-nin ilk efirinin "Sosial saat" verilişinin qonağı olan əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev deyib.

Nazir daha sonra deyib: "İndiyədək 2500 vətəndaşla bu sahədə iş aparılıb. Onların 1500 nəfəri daimi işlə təmin olunub və 1000 nəfərlə aktiv iş aparılır. Nəzərə alsaq ki, bu il daha 20 min nəfər öz doğma yurduna, ev-eşiyinə qayıdacaq, onda qarşıda çox böyük iş dayandığı aydın olar. Ona görə də bütün aidiyyətı dövlət qurumları və özəl sektorla birlikdə ən böyük üstünlüyü məskunlaşan əhalinin məşğulluğuna veririk. Həmçinin onlar üçün özünüməşğulluq proqramları çərçivəsində xüsusi kvota ayrılıb, digər aktiv məşğulluq tədbirləri vasitəsilə onlara dəstək vermək istəyirik. Öz doğma ocağına geri qayıdan şəxslərin bir çoxunun ixtisassız olması əsas çətinliklərdən biridir. Xüsusi olaraq Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb. Hər il təxminən 3 min nəfərə peşə hazırlığı vasitəsilə ixtisas və bilik veriləcək. Artıq həmin ərazilərdə həm Qarabağ Peşə Hazırlığı Mərkəzi, həm də ona qədər özəl peşə hazırlığı mərkəzləri fəaliyyətə başlayıb. Vətəndaşlar həm onlayn, həm DOST və məşğulluq, həm "Cağrı" mərkəzləri vasitəsilə müraciət edə bilərlər. Bununla əlaqədar bir neçə dəfə Füzuli, Cəbrayıl, Laçın, Şuşa və Xankəndi sakinləri üçün elanlar vermişik. Ən azı ildə 3 min nəfər təlim keçməklə 12 min nəfərin məşğulluğunu təmin etməyi nəzərdə tutmuşuq. Paralel olaraq Elm və Təhsil Nazirliyinin peşə məktəbləri də analoji proqram elan ediblər və təxminən o qədər də vətəndaşın peşələrə yiyələnməsini onlar həyata keçirəcəklər. Məqsəd ondan ibarətdir ki, ən azı 20-25 min nəfərə peşə təhsili verilsin".

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar süfrəsi açılıb



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Azərbaycan Günü və iftar süfrəsi təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Poklonnaya qoradakı Memorial məscidində açılan "Ramazan çadırı"nda Moskva şəhəri Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı və Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin dəstəyi ilə keçirilib və "Ailə ili"nə həsr olunub.

Tədbirdə 1500-dən çox insan - ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan müsəlmanlar iştirak ediblər.

Dini-mənəvi dəyərlərə verdiyi yüksək qiymətə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya Moskva müftisi, Moskva Kafedral Məscidinin imamı İldar Alyautdinovun adından təşəkkür məktubu ünvanlanıb.

Moskvadakı Müsəlman məktəbinin direktoru Ənas Həzrət Məmmədov iştirakçıları müqəddəs Ramazan ayı münasibətilə təbrik edib, bu tədbirin keçirilməsinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Tədbirdə Azərbaycanın tarixindən və adət-ənənələrindən bəhs edən videoçarxlar nümayiş etdirilib, "Buta Trio" nun müşayiəti ilə muğam ifa olunub, müsəlman məktəbinin şagirdləri Məhəmməd Peyğəmbərin həyatından bəhs edən teatrlaşdırılmış səhnəciklər təqdim ediblər. Tədbir uduşlu hədiyyələr olan viktorina ilə davam edib.

İftar başlamazdan əvvəl "Qurani-Kərim"dən ayələr oxunub, axşam namazı qılınıb. Sonra müsəlmanlar Azərbaycanın milli yeməklərini və şirniyyatlarını dadıblar.

"Ramazan çadırı" 2006-cı ildən etibarən müsəlmanların müqəddəs Ramazan ayında həyata keçirilən illik sosial və xeyriyyə layihəsidir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi vitse-prezident Leyla Əliyevanın təşəbbüsü ilə hər il bu xeyriyyə layihəsində iştirak edir.

# Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası olub



**Aprelin 2-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun sədrliyi ilə keçirilən görüşdə 2024-cü il üçün qarşıya qoyulmuş prioritet inkişaf istiqamətləri, agentlik tərəfindən jurnalistlərin peşəkarlığının yüksəldilməsi, jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclərin bu sahədə nəzəri və praktiki biliklərinin artırılması, cəmiyyətdə media savadlılığının formalaşdırılması məqsədilə keçirilən təlimlər barədə geniş fikir mübadiləsi aparılıb, həmçinin istifadəyə verilməsi nəzərdə tutulan onlayn təlim platformasının müvafiq bölməsinin təqdimatı olub.

İclasda dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə ümumölkə yerüstü televiziya yayımçıları üçün keçirilməsi nəzərdə tutulan müsabiqənin qaydaları Müşahidə Şurası üzvlərinin yekdil qərarı ilə təsdiq edilib.

Bundan əlavə, media subyektlərinin fəaliyyətinin peşəkarlıq baxımından təhlili ilə bağlı təqdimat dinlənilib, mövzu ətrafında müzakirələr həyata keçirilib.

# Azərbaycan xəbərdarlığını etdi

## Ermənistanın hər hansı təxribatı ona baha başa gələcək

*Əvvəli 1-ci səh.*

### Məhvə sürükləyən müharibə istəyi

Ümumiyyətlə, Ermənistanda Aİ missiyasının fəaliyyəti, eləcə də bəzi Avropa ölkələri tərəfindən Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş kampaniyanın həyata keçirilməsi bölgədə yeni müharibə ocağı yaratmaq niyyəti güdür.

5 aprel konfransı İrəvan və Qərb dairələri tərəfindən guya regionda sülhə xidmət göstərəcəyi yöndə təqdim olunsa da işin astarı başqadır.

Çünki heç bir problem təktərəfli formada həll edilə bilməz. Necə ola bilər ki, bölgədə sülhə xidmət edəcək hər hansı konfrans keçirilir, amma tərəflərdən biri orada iştirak etmir?!. Bu, absurd və gülünc halla Azərbaycan birinci dəfə deyil ki, qarşılaşır.

Azərbaycanın torpaqlarını azadlığa qovuşdurmasını həzm edə bilməyən riyakar Qərb qüvvələri ölkəmizə qarşı şər və qarayaxma kampaniyası aparmaq üçün çoxdan təşkilatlanıblar. Hər kəs xatırlayır, ötən il oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti sammiti çərçivəsində ölkəmizin iştirakı olmadan - Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya arasında keçirilən dördtərəfli görüş keçirilmişdi. Elə həmin "məkrli görüş"də də Azərbaycanın iştirakı olmadan bölgədəki vəziyyət müzakirə olunmuş, hansısa qətnamə qəbul olunmuşdu.

"...Təəccüblüsü o idi ki, mən olmadan bu görüş keçirildi. Bir rus deyimi var - "Без меня, меня женили" - "qız evində toydur, oğlan evinin xəbəri yoxdur". Beləliklə, mən olmadan onların dördü Azərbaycan və Ermənistan ilə əlaqədar necə qətnamə qəbul edə bilirlər ki, hələ də anlamıram"- deyə 2023-cü il dekabrın 6-da keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Prezident İlham Əliyev yaranmış gülünc situasiyaya öz təəccübünü belə bildirmişdi.

Bu baxımdan 2024-cü il aprelin 5-də keçirilməsi nəzərdə tutulan ABŞ-Aİ-Ermənistan konfransının da xoş məram güddüyünü düşünmək, sözün açığı, sadəlövhlük olardı.

Eyni zamanda sözügedən tarixdə keçiriləcək toplantıda hərbi komponentlərin nəzərdə tutulduğuna dair məlumatlar var. Bütün bunları, eləcə də Ermənistanın sərhəddə törətdiyi təxribat xarakterli əməlləri kompleks şəkildə analiz etdikdə əsl gerçəklik gün kimi aydın olur. Bəlli olur ki, ABŞ və Aİ Ermənistan üzərindən regionda müharibə ocağı alovlandırmaq, Qafqazda ikinci Ukrayna ssenarisi gerçəkləşdirmək istəyirlər.

### Qərb bölgədə yeni bölücü xətlər yaratmağa çalışır

Təbii ki, Qərb dairələrinin əli ilə bölgədə cərəyan edən hadisələr Rusiyanın da böyük narahatlığına səbəb olub. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova öz teleqram kanalında yazıb ki, bu görüşlər Azərbaycanla Ermənistan arasında sülhün nail olunmasına deyil, Cənubi Qafqazda yeni bölücü xətlərin yaradılmasına, region ölkələrinin anti-Rusiya gündəliyinə riayət edilməsinə məcbur etməyə, onların Moskva ilə olan çoxəsrlik əlaqələrinin məhv edilməsinə, mövcud regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq mexanizmlərinin sarsıdılmasına yönəlib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə bildirib ki, indi, üstəlik, Norveç, Kanada və ABŞ-dən olan hərbçilər oraya göndərilir və Avropa İttifaqının missiyası getdikcə Şimali Atlantika Alyansının missiyasına çevrilir.

Göründüyü kimi, ABŞ və Avropa Rusiyaya qarşı ikinci cəbhə açmaq üçün Ermənistanı qurban seçiblər. İrəvan isə Qərb ağalarının çaldığı havalara həvəslə oynayır. Azərbaycana qarşı müharibə aparmaq istəyinə düşməsi, hərbi təxribatlar törətməsi, sərhədlərimizi atəşə tutması da bundan xəbər verir.

Ancaq Azərbaycanın "dəmir yumruğ"u yerindədir və Ermənistan da bilməlidir ki, necə ki, ...Vətən müharibəsi, antiterror tədbirləri, qisas əməliyyatları... zamanı güvəndiyi havadarları ona heç bir kömək edə bilmədi, indi də belə olacaq.

Bunu hələ 2023-cü ilin iyununda Müzəffər Ali Baş Komandan İlham Əliyev açıq şəkildə dünyaya bəyan edib: "Biz son iki il yarım ərzində ordumuzu böyük dərəcədə gücləndirmişik. Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Kəlbəcərin müdafiəsi zamanı hərbçilərin, helikopterçilərin və kəlbəcərli igidlərin qəhrəmanlığı mülki əhalini soyqırımı təhlükəsindən xilas etmişdi

**Aprelin 2-də Azərbaycan Hərb Tarixi Muzeyində "1993-cü ilin mart-aprel aylarında 701 saylı hərbi hissənin helekopterçiləri və könüllüləri Kəlbəcərin müdafiəsində" adlı elmi seminar keçirilib.**

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, veteran təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu birdəqiqəlik sükutla anılıb.

Vətən Müharibəsi İctimai Birliyinin Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyevin, Xüsusi təyinatlı şəhid kapitan Türkay Hüseynlinin atası şair Nizami Hüseynovun, Abşeron rayon Veteranlar Şurasının sədr müavini Sahib Əsgərovun, Daxili İşlər Nazirliyinin əməkdaşı Mehriban Abdullayevanın, Şəhid Ailələrinə Qayğı Cəmiyyətinin sədr müavini Nizami Abbasovun, 701 saylı hərbi hissənin sabiq qərargah rəisi Aydın Şiriyevin və digərlərinin çıxışları dinlənilib, mövzu ətrafında müzakirələr aparılıb.

Muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qəni-zadə tədbirdə çıxış edərək 701 saylı hərbi hissənin helekopterçiləri və könüllülərinin Kəlbəcərin müdafiəsi zamanı göstərdikləri qəhrəmanlıqlar və döyüş yolundan bəhs edib. O bildirib ki, 1993-cü ildə ermənilər tərəfindən Kəlbəcər rayonunun işğalı daha əvvəllər olduğu kimi ağrılarla yad edilmir. Şanlı Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tutarlı zəfər çaldı. 1993-cü ildə Kəlbəcərin müdafiəsi zamanı mərd hərbçilərin, cəsur helikopterçilərin və kəlbəcərli igidlərin göstərdiyi qəhrəmanlıq nümunələri mülki əhalini soyqırımı təhlükəsindən xilas etmişdi.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin işğalının obyektiv səbəblərinin təhlili əsl həqiqətləri ortaya qoyur. 1993-cü il mart-aprel aylarında Ermənistanla Dağlıq Qarabağ arasında mühasirə şəraitində düşmənlə üz-üzə qalan Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri və Qarabağda olan separatçı qüvvələr tərəfindən işğal olundu. 60 min dinc əhali öz doğma torpağından didərgin salındı. Onlarla günahsız mülki şəxs öldürüldü, itkin düşdü. Kəlbəcərlilərin xilasına özünü çatdıran 701 saylı hərbi hissə və yerli könüllü döyüşçülər qeyri-bərabər savaşda qəhrəmanlıq göstərdilər.

Düşmən Kəlbəcərin mülki əhalisini ələ keçirsəydi, misilsiz qətliam baş verə bilərdi. Bəlkə də Xocalı faciəsindən daha dəhşətli soyqırımına məruz qalardı. Laçın rayonundan Kəlbəcər rayonuna özünü çatdıran 701 saylı hərbi hissənin 2 taboru, Kəlbəcər könüllüləri, həmçinin ön atəş xəttinə gətirilən əsgərlər qəhrəmanlıq göstərərək yerli əhaliyə xilas olmaq imkanı yaratdılar.

Xatırladılıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Tədbirin sonunda sənədli film və hərbi-vətənpərvərliklə bağlı mahnılar səsləndirilib.

# "Vətəndaşsızlıq məsələləri üzrə İşçi Qrup"un növbəti iclası

**Ölkəmizdə vətəndaşsızlıq hallarının aradan qaldırması məqsədilə yaradılmış "Vətəndaşsızlıq məsələləri üzrə İşçi Qrup"un növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a Ombusdman Aparatından məlumat verilib.**

Bildirilib ki, iclasda Ombudsman Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin sektor müdiri Turan Cahangirova və şöbənin böyük məsləhətçisi Orxan Tapdıqlı, Dövlət Miqrasiya Xidmətinin, Daxili İşlər Nazirliyinin, Xarici İşlər Nazirliyinin, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Statistika Komitəsinin, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının, Beynəlxalq Miqrasiya Təşkilatının, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycandakı Nümayəndəliyinin əməkdaşları, həmçinin Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri iştirak ediblər.



İclasda çıxış edən T.Cahangirova vətəndaşlığı olmayan şəxslərin hüquqlarının dövlətdaxili və beynəlxalq hüquq normalarına uyğun müdafiəsi və təşviqi, həmçinin Azərbaycan vətəndaşlığına qəbul, xitam və bərpa olunma, ölkə vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi məsələləri ilə bağlı ombudsmanın təşəbbüsləri və mandatı çərçivəsində görülən işlər barədə məlumat verib.

O, ölkə ərazisində sənədsiz yaşayan həssas kateqoriyadan olan şəxslərin vəziyyətinin monitorinqi, onların statusunun tənzimlənməsi, habelə xaricdə qeyri-müəyyən vəziyyətdə yaşayan soydaşlarımızın hüquqlarının təmin edilməsi istiqamətində Dövlət Miqrasiya Xidməti, xarici ombudsmanlar, diplomatik nümayəndəliklərlə əməkdaşlıqda formalaşan müsbət təcrübələrdən bəhs edib.

Tədbirdə İşçi Qrupun digər üzvləri təmsil etdikləri qurumların müvafiq sahədə fəaliyyəti barədə məlumat veriblər.

İclasda vətəndaşsızlıq halları ilə mübarizə, vətəndaşsızlıq vəziyyətində olan şəxslərin identifikasiyası, onların sənədləşdirilməsi və hüquqlarının səmərəli müdafiəsi naminə əməkdaşlığın yeni müstəvidə inkişafı məsələləri müzakirə edilib.




# IEA COP28, COP29 və COP30 arasında davamlılığı asanlaşdırmaq üçün yaradılmış "Troika"nı dəstəkləyəcək

**Beynəlxalq Enerji Agentliyimiz (İEA) Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) COP28, Azərbaycanda COP29 və Braziliyada COP30 arasında davamlılığı asanlaşdırmaq üçün yaradılmış COP sədrliklərinin "üçlüyünü" (Troika) dəstəkləmək üçün səylərini genişləndirməkdə davam edir.**

Bu fikirlər Beynəlxalq Enerji Agentliyindən (IEA) AZƏRTAC-a verilən mətbuat açıqlamasında yer alıb. Bildirilir ki, IEA-nın fevral ayında COP28-in nəticələrinin həyata keçirilməsinə dair evsahibliyi etdiyi enerji və iqlim liderləri ilə yüksəksəviyyəli tədbirdən sonra növbəti addımları müzakirə etmək üçün keçən həftə Parisdəki qərargahda daha bir görüşü keçirilib.

Kopenhagendə IEA-nın icraçı direktoru Fatih Birol COP29-un prezidenti təyin olunmuş Muxtar Babayevlə COP29-dan əvvəlki əsas mərhələləri, həmçinin əməkdaşlıq imkanlarını və IEA dəstəyini müzakirə ediblər. Berlində F.Birol Braziliyanın "yaşıl iqtisadiyyat" katibi




Rodriqo Rollemberq ilə görüşündə bu ölkənin bu il G20 sədrliyi və 2025-ci ildə COP30 sədrliyi zamanı ədalətli enerji keçidləri kimi məsələlərdə əməkdaşlığı müzakirə olunub.

Həmçinin mətbuat açıqlamasında bildirilir ki, IEA-nın icraçı direktoru Fatih Birol Berlin Enerji Keçid Dialoqunun açılış sessiyasında Almaniyanın vitse-kansleri Robert Habeck və xarici işlər naziri Annalena Baerbock ilə birlikdə yüksəksəviyyəli auditoriya qarşısında çıxış edərək Azərbaycanın evsahibliyi edəcəyi COP29-dan əvvəl əsas prioritetin inkişaf etməkdə olan iqtisadiyyatlarda təmiz enerjinin maliyyələşdirilməsinin artırılması olduğunu vurğulayıb. Fatih Birol BƏƏ-də COP28, Azərbaycanda COP29 və Braziliyada COP30 arasında davamlılığı asanlaşdırmaq üçün yaradılmış COP sədrliklərinin "üçlüyünü" (Troika) dəstəkləmək üçün IEA-nın səylərini genişləndirməkdə davam etdiyini bildirib.

Fatih Birolun iqlim dəyişikliyi ilə bağlı "Financial Times"da dərc edilmiş məqaləsində bildirir ki, son illərdə baş verən hadisələr, o cümlədən qlobal enerji böhranı, yanacağın qiymətinin qalxması və ekstremal hava şəraitinin təsirinə üçün irəli gedilməsi lazım olduğunu xatırladır. Qeyd olunur ki, hökumətlərin apardığı dəyişikliklər enerji keçidinin sürətinə yaxşı təsir göstərsə də, bəzi hallarda onu sürətləndirib, bəzi hallarda yavaşıtsa da, bu, iqlim dəyişiklikləri üzrə aparılan fəaliyyətin əsas istiqamətini dəyişdirməyəcək.

# COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunu daha da artıracaq

**Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə çox mühüm tarixi uğurlar qazanıb. Bu uğurlar ölkəmizi bütün dünyaya tanıdıb. Eyni zamanda bu illər ərzində ölkəmiz beynəlxalq və regional əhəmiyyətli çoxsaylı tədbirlərə evsahibliyi edib. Artıq ölkəmiz belə mühüm tədbirlərin təşkili və keçirilməsi ilə bağlı zəngin təcrübə toplayıb.**

Məhz buna görə 2023-cü il dekabrın 11-də keçirilmiş COP28-in plenar iclasında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Bu, dünyanın aparıcı ölkələrinin Azərbaycana verdiyi yüksək dəyərdir, göstərdiyi xoş münasibətdir. BMT tərəfindən təşkil edilən bu ekoloji tədbirin əsas məqsədi iqlim dəyişikliyinə beynəlxalq reaksiyanı artırmaq üçün diplomatları, dövlət və hökumət başçılarını, ekoloqları bir araya gətirməkdir.

Tərəflər Konfransı 1992-ci ildə BMT-nin ilk iqlim müqaviləsini imzalayan və "iqlimə təhlükəli müdaxilə" ilə mübarizə aparmağı vəd edən 197 ölkəni özündə birləşdirir. Konfransa dünyada olan bütün ölkələr üzvdür və buna görə də əvvəl keçirilmiş COP tədbirləri ən çox dünya liderlərini bir araya gətirən toplantılar kimi tarixə düşüb.

İlk COP 1995-ci ildə Almaniyanın paytaxtı Berlində keçirilib. Sessiyaya BMT-nin beş regional qrupu növbə ilə evsahibliyi edir və hər dəfə bu qrupa aid olan müxtəlif ölkələr ev sahibi olaraq seçilir. Bu il isə növbə Şərqi Avropa qrupunda idi. Azərbaycan Şərqi Avropa ölkələrinin yekdil dəstəyi ilə Tərəflər Konfransının 29-cu sessiyasının ev sahibi olaraq seçildi. Azərbaycanın bu mühüm tədbirə ev sahibi seçilməsi təsadüfi deyil. Dünyanın əsas siyasi və iqtisadi güc mərkəzlərindən olan Avropaya daxil olan ölkələrin Azərbaycanı dəstəkləməsi ilk növbədə ciddi diplomatik uğurdur. Bu uğurun qazanılması uzun illər ərzində qurulmuş səmərəli diplomatik münasibətlərin, Azərbaycanın özünü etibarlı tərəfdaş kimi təsdiq etməsinin nəticəsidir.

COP adətən regional qruplara aid olan böyük, inkişaf etmiş və nüfuzlu dövlətlər tərəfindən təşkil edilir. Ona görə də Tərəflər Konfransının növbəti sessiyasının ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksək səviyyədə olduğunu bir daha sübut edir. Bütün digər sahələrdə olduğu kimi, bu məsələdə də Azərbaycan beynəlxalq diplomatik qələbə qazandı.

COP29-un Bakıda keçirilməsi qərarı həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyini ifadə edir. Azərbaycan Prezidenti tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmiz yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olub. Vətən müharibəsində qazandığımız şanlı Zəfər ölkəmizi dünyada daha güclü dövlət kimi tanıdıb. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu xeyli yüksəlib.

Ölkəmizin bu tədbirə ev sahibi kimi seçilməsi həm də onu göstərir ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıdıb. Tədbirin Azərbaycanda keçirilməsi isə onun bu istiqamətdə daha da tanınmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə böyük töhfə verəcək. Tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü tədbirlər daha böyük auditoriyanın diqqətinə çatdırılacaq.

Məlumdur ki, Azərbaycan 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı qarşısına məqsəd qoyub. Eyni zamanda əsrin ortasına qədər 1990-cı illə müqayisədə Azərbaycan karbon emissiyasını 40 faizə qədər azaldaraq beynəlxalq istiləşmənin təhlükəli nəticələrindən qorunmaq üçün dünya alimləri tərəfindən müəyyən edilən səviyyəyə endirməyi qarşısına məqsəd qoyub.

Azərbaycan "yaşıl enerji" təchizatçısına çevrilməyi də qarşısına məqsəd qoyub. Artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. Bu layihə işə düşdükdən sonra Azərbaycan Avropanın əsas "yaşıl enerji" təchizatçılarından birinə çevriləcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Sağlam gələcəyin yolu "yaşıl enerji"dən keçir

**Məlumdur ki, Azərbaycan sosial-iqtisadi inkişafın 5 prioritetini müəyyənləşdirib və onlardan biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"dir. Məqsəd bu hədəfi 2030-cu ilə qədər reallaşdırmaqdır. O səbəbdən ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası hər zaman diqqətdə saxlanılır.**



Qlobal aləmdə də bu hədəflər əsas götürülür. İqlim dəyişikliyinin ölkələrin iqtisadiyyatı üçün ciddi problemlər yaratdığını nəzərə alsaq, son illər "yaşıl inkişaf"ı dəstəkləyən təşəbbüslərin aktuallaşmasının səbəbini anlamaq çətin deyil. Ətraf mühitin qorunmasında isə "yaşıl enerji"nin müstəsna əhəmiyyəti var. Sağlam mühitdə yaşamaq üçün məsuliyyətli olmaq, təbiətə münasibətdə etik prinsiplərə əməl etmək və yeni dəyərlər formalaşdırmaq tələbi bilavasitə "yaşıl enerji"dən keçir. Əslində "yaşıl enerji" bu günün tələbi deyil. Dünyada hələ ötən əsrin 70-ci illərindən bu məsələ gündəmə gəlib. 90-cı illərdən sonra isə o, təbiətin törətdiyi fəlakətlər və faciələr səbəbindən "olmazsa olmaz"a çevrilib.

Təsadüfi deyil ki, indi dünyada tez-tez müzakirə edilən məsələlərdən biri atom enerjisidir. Xüsusilə 1986-cı ildə Çernobıl AES-də baş verən faciədən sonra bu barədə çox söhbətlər dolaşır. Alimlərin hesablamalarına görə, yer kürəsinin hər sakini il ərzində 300-500 milliber həcmində radiasiya qəbul edir. Gündəlik 3 saat televizora baxdıqda insan 0,5, dişlərin rentgeni zamanı isə 3000 milliber radiasiya "udur". Ən qorxunc təhlükə isə bəşəriyyəti məhv edə biləcək nüvə müharibələridir. Bununla yanaşı, kosmik fəlakətlər, yəni yerin kometalar, meteoritlərlə toqquşması, ozon qatının deşilməsi, havada karbon qazının çoxalması hesabına planetin temperaturunun artması ("parnik effekti"), su qıtlığı, ərzaq çatışmazlığı kimi təbiət hadisələrini unutmaq olmaz. Bu cür təbii fəlakətlərin qarşısını almaq üçün tədbirlər görülsə də, onların baş vermə təhlükəsi azalmır.

Planetdə baş verən bu fəlakətlər dünya alimlərini rahatsız etdiyi üçün zaman-zaman qarşısını almağın yollarını axtarıblar və ən optimal variantın bərpaolunan enerji mənbələri olduğu qənaətinə gəliblər. İndi istifadə olunan "yaşıl iqtisadiyyat", "yaşıl enerji", "yaşıl inkişaf" kimi terminlər məhz bu üzdən meydana gəlib.

"Yaşıl enerji"nin iqlim dəyişikliyindən dolayı sadalanan fəlakətlərin azalmasına göstərdiyi təsir birbaşa insan sağlamlığında mühüm rol oynayır. Fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səlimovun fikrincə, hazırda dünyanın əksər regionlarında ən ucuz elektrik növü bərpaolunan enerji mənbələrinə əsaslanan elektrik enerjisidir. Xüsusilə "yaşıl hidrogen"dən 2030-cu ilədək geniş istifadə olunmasına mühüm diqqət yetirilir. "Yaşıl hidrogen" elektroliz prosesi vasitəsi ilə külək və ya günəş enerjisi kimi bərpaolunan enerji mənbələrindən istifadə edilərək istehsal olunan hidrogenin təmiz formasıdır. Ondan istifadə edilməsi enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, havanı çirkləndirən karbon emissiyasının qarşısının alınması üçün əhəmiyyətlidir.

Təqdirəlayiq haldır ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi və Azərbaycanın iqlim dəyişikliyinin təsirinin azaldılması istiqamətində fəaliyyəti qlobal səviyyədə qəbul olunur. Xarici ekspertlər Azərbaycanın külək və günəş enerjisinə qoyduqları investisiyalarla "yaşıl gündəliy"ə sadiqliyini, Xəzər dənizindəki külək stansiyalarından əldə ediləcək "yaşıl enerji"nin Avropaya ötürülməsi üçün Qara dənizin altından elektrik kabelinin çəkilməsi istiqamətində tədbirləri və COP29 barədə yüksək gözləntiləri xüsusi vurğulayırlar. Vüqar Səlimovun bu məsələdə fikri belədir: "Azərbaycan dövləti qlobal problemlərdən biri olan iqlim dəyişmələrinin qarşısının alınması üçün ardıcıl siyasət aparır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının ifadəsidir. Bu qərarın qəbul olunmasında iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasətin böyük rolu vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqət və həssaslıqla yanaşmanın göstəricisidir".

Alimin fikrincə, "yaşıl enerji"yə keçid qlobal ekoloji problemlərin həllində mühüm rol oynayır. Ekoloji fəlsəfədə "yaşıl enerji"nin xüsusiyyətləri insan-təbiət münasibətləri kontekstində öyrənilir. "Yaşıl enerji"yə keçidin ekosistemdə dayanıqlığın və insanın tələbatları ilə təbiətin imkanları arasında tarazlığın təmin olunmasında böyük əhəmiyyəti var. "Yaşıl enerji" mənbələrindən enerji istehsalı iqlim dəyişikliyinin və qlobal istiləşmənin qarşısının alınması üçün vacibdir. Bu cür enerjinin istehsalı enerji təhlükəsizliyinin təmin olunmasında özünəməxsus yer tutur, yeni texnologiyaların və innovasiyaların inkişafına təkan verir. Azərbaycan coğrafi baxımdan əlverişli "yaşıl enerji" potensialına malikdir və ondan səmərəli istifadə edilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Su qıtlığı qlobal problemə çevrilir

## Dəniz suyunun şirinləşdirilməsi yaxın gələcəyin əsas məsələlərindəndir

**Qlobal məsələyə çevrilən su çatışmazlığı problemi getdikcə daha da dərinləşir. Təbii ki, su ehtiyatını qorumaq və ya artırmaq üçün dövlətlərin üzərinə öhdəliklər düşür. Bu istiqamətdə yeni su anbarları tikilir, suvarma texnikası təkmilləşdirilir, su ehtiyatı tədqiq edilir.**



Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələrin və kanalların inşası və su anbarlarını yaratmaq Azərbaycan üçün də strateji əhəmiyyətli məsələdir. Əlbəttə ki, bu məsələlərin həlli birbaşa olaraq yüksəkixtisaslı mütəxəssislərdən, sahə üzrə kadr potensialından da asılıdır. Bu baxımdan dövrün tələblərinə uyğun olaraq yüksəkixtisaslı yerli kadr hazırlığı xüsusi önəm daşıyır.

Bütün sahələrin inkişafında qabaqcıl mütəxəssislərin əsas rol oynadığını nəzərə alaraq Azərbaycanda su təsərrüfatı sahəsində yerli kadrların hazırlığının hansı səviyyədə olduğunu öyrənməyə çalışdıq.

### Azərbaycanın su ehtiyatları məhduddur

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin dekan əvəzi, dosent Elgiz Həsənov "Azərbaycan" qəzetinə açıqlamasında bildirdi ki, hazırda AzMİU-nun məlum fakültəsində 5 ixtisas üzrə həm əyani, həm də qiyabi formada mütəxəssis hazırlığı həyata keçirilir. "Kommunikasiya sistemləri mühəndisliyi", "Meliorasiya mühəndisliyi", "Ekologiya mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi" və "Neft-qaz mühəndisliyi" ixtisasları üzrə ümumilikdə 1571 tələbə təhsil alır ki, onlardan 1045-i oğlan, 526-sı qızdır. Bu ixtisaslar Azərbaycan, rus və ingilis dillərində kifayət qədər səriştəli müəllimlər tərəfindən tədris olunur.

E.Həsənov qeyd edir ki, tədris olunan ixtisasların hamısı çox aktualdır, həm qlobal, həm də ölkə səviyyəsində su, ekologiya, enerji effektivliyi ilə bağlı problemlər ixtisasların əhəmiyyətliliyini artırır. Hər il fakültəni orta hesabla 200 tələbə bitirir və onların böyük əksəriyyəti öz ixtisası üzrə işlə təmin edilir.

Dosentin fikrincə, bu rəqəm tələbata nisbətdə azdır və hədəf tələbə sayını, ixtisaslı mütəxəssisləri artırmaqdır.

Elgiz Həsənov deyir ki, statistik məlumatlara əsasən, Azərbaycanın su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhdud olmaqla, bütöv regiondakı su ehtiyatının yalnız 15 faizini əhatə edir: "Qafqazda cəmi 310 milyard kubmetr su ehtiyatı var. Azərbaycanda adambaşına düşən su miqdarı qonşu respublikalarla müqayisədə ən aşağı səviyyədədir. Bu, ilk növbədə ölkəmizdəki su mənbələrinin fərqli yerləşmə məkanı ilə əlaqədardır. Azərbaycanın su ehtiyatı 30,9 milyard kubmetr təşkil edir və onun 33 faizi daxili sulardır, 66 faizi isə transsərhəd çayların hesabına formalaşır. Təkcə bu faktlar su təchizatının səmərəli istifadəsinin çox vacib məsələyə çevrilməsi üçün yetərlidir. Bununla yanaşı, qlobal problemləri də gözardı etmək olmaz. İqlim dəyişikliyi, qlobal istiləşmə, şirin su hövzələri üzərində gedən siyasi-iqtisadi mübarizə su təchizatı məsələsini strateji nöqtəyə daşıyır".

### Yeni çağırışlar öhdəlikləri artırıb

Mütəxəssis qeyd edir ki, su təchizatımızla bağlı yarana biləcək problemlərin həlli üçün ən başlıca vəzifə sahə üzrə savadlı, yüksəkhazırlıqlı, beynəlxalq tendensiyalara hakim milli kadrlar yetişdirməkdir.

Prezident İlham Əliyev tərəfindən içməli su ehtiyatlarından səmərəli istifadə istiqamətində irəli sürülən konsepsiyada yaxın gələcək üçün suyun toplanılması, mühafizəsi, təkrar emalı istiqamətində görüləcək işlərin vacibliyi vurğulanıb.

Dosentin sözlərinə görə, işğaldan azad olunmuş Qarabağ iqtisadi zonasında su ehtiyatlarının artırılması və səmərəli istifadəsi məqsədilə böyük layihələr işlənilib və hazırda onların bir çoxu icra olunmaqdadır. "Dövlət başçısının su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə meliorasiya işlərinin yaxşılaşdırılması, əkin sahələrinin artırılması, ərzaq təhlükəsizliyinin təmin olunması, enerji istehsalının artırılması və digər məsələlər geniş müzakirə olundu. Qeyd olunmuş məsələlərin həlli üçün hazırlıqlı kadrların yetişdirilməsi və müasir texnologiyanın tətbiq edilməsi vacib məsələ kimi ortaya qoyuldu. Təbii olaraq, bu çağırışlar və tələblər universitet olaraq bizim öhdəliyimizi artırıb. Bu səbəbdən də fakültəyə qəbul olunan tələbələrin sayı hər il artırılır".

Kadr hazırlığının ciddi proses olduğunu deyən Elgiz Həsənov bildirir ki, bu məsələdə bir çox amillər rol oynayır. Burada savadlı professor-müəllim heyətinin səmərəli işini, eləcə də universitetin maddi-texniki bazasının müasir tələblərə cavab verməsini qeyd etmək yerinə düşər. Son illər fakültədə hidrotexniki qurğular, bərpaolunan enerji, elektronika və elektrotexnikayönümlü müasir tələblərə cavab verən laboratoriyalar yaradılıb. Bu laboratoriyalarda tələbələrin aldıqları nəzəri biliklər təcrübə yolu ilə artırılır. Fakültədə fəaliyyət göstərən kafedraların professor-müəllim heyəti istehsalatla sıx əlaqədə olurlar. Bu istiqamətdə aparılan elmi araşdırmaların istehsalata tətbiq edilməsi universitetlə istehsal müəssisələrinin qarşılıqlı iş birliyini yaradır. Son illər xarici universitetlər və elmi müəssisələr ilə qarşılıqlı iş birliyinin yaradılmasına da diqqət artırılır. Qardaş Türkiyə, Qazaxıstan universitetləri ilə əlaqələr yaxşılaşdırılır, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirilir. Hər il 20 tələbə Türkiyənin İstanbul Su Kanal İdarəsində (İSKİ) təcrübə keçir.

### Nəzəri bilikləri təcrübə ilə əlaqələndirmək lazımdır

19 il istehsalatda çalışan E.Həsənov deyir ki, savadlı kadrların formalaşması üçün nəzəri bilikləri təcrübə ilə əlaqələndirmək lazımdır: "Son illər fakültə tərəfindən tövsiyə olunan onlarla məzunumuz müxtəlif layihə institutlarında işlə təmin olunub və hazırda onlar haqqında müsbət rəylər alırıq. Bu, bizi sevindirir. Məzunların işlə təminatına, sahə üzrə qurumların bizim məzunlarımıza göstərdikləri marağa baxanda deyə bilərik ki, istehsalatın gözləntisini doğrulduruq, amma bu, kifayət deyil. Fakültə olaraq daha peşəkar və hazırlıqlı mütəxəssis yetişdirilməsi üçün çalışırıq".

Mütəxəssisin fikrincə, su təsərrüfatı geniş aspekti əhatə edir. Burada suyun kompleks məqsədli istifadəsi, su ehtiyatlarının artırılması və onun səmərəli istismarı yer alır. Bu baxımdan meliorasiya və kommunikasiya sistemləri mühəndislərinin üzərinə böyük məsuliyyət düşür. Yəni kommunikasiya sistemləri mühəndisliyi üzrə hazırlıqlı mütəxəssis yoxdursa, təkcə meliorasiya mühəndisi problemi həll edə bilməyəcək. Bu istiqamətlər zəncir kimi bir-birinə bağlıdır. Əgər biri olmasa, zəncir qırılacaq və istənilən nəticəni əldə etmək mümkün olmayacaq.

Müsahibimiz hesab edir ki, dəniz suyunun şirinləşdirilməsi və əhaliyə istifadə üçün verilməsi yaxın gələcəyin əsas məsələlərindən biridir. Bu istiqamətdə gələcəkdə müəyyən startapların işlənməsi və bu layihədə tələbələrin birgə iştirakı nəzərdə tutulub. Layihələrdə meliorasiya mühəndisləri ilə yanaşı, kommunikasiya sistemləri, ekologiya, elektrik və elektronika mühəndisləri də aktiv iştirak edəcəklər.

Elgiz Həsənovun sözlərinə görə, fakültədə enerji səmərəliliyinin artırılması və bərpaolunan enerji mənbələrinin işlənməsi istiqamətində də əhəmiyyətli işlər görülür. Müəllim heyəti Zəngilanın Ağalı kəndində inşa edilən "ağıllı ev" layihəsində və smart texnologiyaların tətbiqində ekspert qismində yaxından iştirak edib. Bu istiqamətdə aparılan araşdırmalar indi də davam etdirilir. Mütəxəssis hazırlığı üçün əsas məqamlardan biri xarici ölkələrin təcrübəsinin öyrənilməsidir. Bunun üçün universitetdə mütəmadi olaraq xarici universitetlərdən dəvət olunmuş aparıcı mütəxəssislərin seminarları keçirilir. Bu tip tədbirlərin keçirilməsi tələbələrin mütəxəssis kimi formalaşmasında böyük rol oynayır.

Deyilənlər bir daha sübut edir ki, hər bir sahədə yüksəkixtisaslı, savadlı kadrların olması həmin sektorun inkişafına, dünya standartlarına cavab verməsinə təkan verir. Hətta deyərdik ki, inkişaf üçün müasir texnologiyaların tətbiqi ilə yanaşı, bu avadanlıqlardan istifadə edə bilən yerli mütəxəssislərin yetişdirilməsi də prioritetdir.

Müəyyən dövr ərzində digər ölkələrin təcrübəsini öyrənmək, Azərbaycan şirkətlərində yerli kadrların bilik və bacarıqlarının artırılması üçün xarici mütəxəssislərin dəvət olunmasının böyük əhəmiyyəti var. Zamanla müəssisələrdə peşəkar yerli kadrların sayının artırılması məqsədəuyğundur.

Bu sahədə çalışanların ixtisasları üzrə yüksək biliyə malik olması vacib faktordur. Belə olan halda həmin sahələr üzrə kadr hazırlayan universitetlərin də üzərinə böyük məsuliyyət düşür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Mümkün təxribatların məsuliyyəti Qərbin və Ermənistanın üzərinə düşür

**Son günlər Ermənistanda revanşist qüvvələrin yenə baş qaldırması meyilləri müşahidə olunur. Qonşu ölkənin Azərbaycanla şərti sərhədinin müxtəlif istiqamətlərində canlı qüvvə, zirehli texnika, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti buna dəlalət edir.**









Bütün bunlara paralel olaraq Ermənistanda Azərbaycanı müharibə ilə təhdid edən mövqelər də tez-tez eşidilməkdədir. Ölkəmizə qarşı aqressiv ritorika yüksəlir, eyni zamanda informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayı get-gedə artır. Bütün bunlar, təbii ki, Ermənistanın yeni təxribat cəhdlərinə hazırlığına işarədir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Ermənistan silahlı qüvvələrinin sərhəddə canlı qüvvə və zirehli texnika cəmləşdirməsi haqqında bəyanatı da vəziyyətin kifayət qədər ciddiliyindən xəbər verir.

### 5 aprel təxribatı

Bütün bu proseslərin Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ və Avropa İttifaqı rəhbərliyi ilə görüşü ərəfəsinə təsadüf etməsi qətiyyən təsadüfi deyil. 5 aprel 2024-cü ildə ABŞ-nin Dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Lyayenlə Ermənistanın baş nazirinin Brüsseldə üçtərəfli görüşü planlaşdırılıb. Ağ Ev hər nə qədər görüşün Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına aidliyini iddia etsə də, həmçinin rəsmi İrəvan bu görüşün guya üçüncü tərəfə qarşı yönəlmədiyini bildirsə də ümumi mənzərə və pərdəarxası məqamlar bütün bu iddiaların əksini söyləyir. Belə ki, Brüsseldə Ermənistanın "təhlükəsizliyinin gücləndirilməsi" adı altında hərbi paktın əldə edilməsinin planlaşdırıldığı barədə məlumatlar yayılıb. Əgər bu məlumatlar özünü doğruldarsa, baş verənlər Cənubi Qafqazda siyasi tarazlığı pozmuş olacaq.

Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı mövqeyini açıqlayıb. Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planlarının və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutmasına dair məlumatların doğurduğu əlavə narahatlıqları və regionda sülh quruculuğu səylərinə xələl gətirməsini diqqətə çatdırıb. Hələ görüş baş tutmamış Ermənistanın Azərbaycanla şərti sərhəddə göstərdiyi davranışlar, rəsmi İrəvanın yeni hərbi təxribatlara hazırlığı bu narahatlıqların qətiyyən əsassız olmadığını göstərir. Azərbaycanın əvvəlcədən də bəyan etdiyi kimi, Ermənistan məhz qarşıdakı 5 aprel görüşündən cəsarətlənir və revanşizm başlayır.

### Qərb regionda üçlü hərbi alyans yaradır

Bunun Cənubi Qafqaz regionu üçün faciəvi nəticələri ola bilər. Çünki 5 aprel görüşünün mahiyyəti bölgədə üçlü hərbi alyansın yaradılmasından ibarətdir. Ermənilər tarixin müxtəlif dövrlərində olduğu kimi, yenə də böyük güclərin maşası olmaq funksiyasını öz üzərlərinə götürüblər və bu funksiyanı yerinə yetirməyə "həvəslə" hazırdırlar. Əgər 5 aprel görüşünün məqsədi reallaşarsa, Qərb Qafqazda yeni münaqişə ocağını alovlandıracaq. Ermənilərin köməyi ilə həm də Rusiyaya qarşı ikinci cəbhə açacaq. Bu, 5 aprel görüşü barədə məlumatlarda xüsusi qeyd edilməsə də, söhbət faktiki olaraq Ermənistanla hərbi paktdan gedir və bu pakt ümumən regionumuzda sülh və sabitliyə birbaşa təhdiddir.

Bir sözlə, hələ ötən əsrin müxtəlif onilliklərində bölgədə münaqişə vəziyyəti yaratmaqdan ötrü ermənilərdən istifadə edən böyük güclər yenə də ənənəvi üsuldan istifadə edirlər. Qərb yeni dünya düzənində Qafqazla bağlı strateji planlarında Ermənistana yenə də hərbi münaqişələr üçün təxribatçı rolunu ayırıb. Ötən əsrin 80-ci illərinin sonlarındakı oxşar davranışlardan əsas fərq budur ki, həmin dövrdə Qərb keçmiş SSRİ-yə qarşı planlarını erməni lobbisinin əli ilə edirdi. Azərbaycana qarşı ərazi iddialarına başlayan erməni separatçılarına və Ermənistan rəhbərliyinə təlimatlar erməni lobbisi vasitəsilə gəlir, sonda SSRİ-nin dağılması ilə nəticələnən regional münaqişənin alovlandırılması da lobbi xəttilə yönləndirilirdi. Hazırda isə beynəlxalq təxribatçı dairələr həm erməni lobbisi, həm də Ermənistanın mövcud hakimiyyəti ilə birbaşa və paralel şəkildə işləyirlər.

### Riyakar siyasət

Bütün bunlar Qərbin nə qədər çirkin və riyakar siyasət yürütdüyünü göstərir. Belə bir həqiqəti sübuta yetirir ki, təxminən 30 il ərzində guya münaqişənin həllinə çalışırmış kimi görünən Qərb özü, əslində, regionda sülh və sabitliyə ən böyük əngəldir.

30 illik işğal dövründə ABŞ və Avropa İttifaqı işğala məruz qalmış, 1 milyondan çox vətəndaşı yurd-yuvasından didərgin düşərək min bir çətinliklə üzləşmiş, qurulu şəhərləri, qəsəbə və kəndləri dağıdılmış Azərbaycanla bağlı bircə dəfə də olsun belə bir konfrans, yaxud hər hansı formatda tədbir keçirmədi. Ordumuzun gücü ilə azad etdiyimiz ərazilərimizdə mina probleminin həllinə dəstək üçün hər hansı təşəbbüs göstərmədi. Ermənilərin işğal dövründə vandalcasına dağıdıb tar-mar etdikləri yüzlərlə kəndimizin birinin də bərpasına yardımını təklif etmədi. Amma bütün bunların əvəzində indi cidd-cəhdlə Ermənistanı yeni müharibəyə sürükləyir. Ermənistan üçün mini-NATO mexanizmi yaradıb, Azərbaycana qarşı silahlandırır. Vətən müharibəsindəki, antiterror əməliyyatındakı zəfərimizdən sonra burunları ovulmuş revanşistləri yenidən üzərimizə qaldırır.

Amma Ermənistan hansı havadarına güvənir-güvənsin, fərq etməz, Azərbaycana qarşı istənilən revanşist davranışında, hərbi təxribat əməlində "dəmir yumruğ"un ölümcül zərbəsini yenə təpəsində hiss edəcək. Müdafiə Nazirliyinin bəyanatında da qeyd edildiyi kimi, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq. Vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyətsə tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcək.

Azərbaycanın niyyəti regionda daimi sülhün təmin olunması, qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasıdır. Ölkəmiz bu niyyətlə üzərinə düşən bütün vəzifələri yerinə yetirir və bütün tərəfləri də üzərlərinə düşən öhdəliklərə sadiq qalmağa çağırır. Yeni təxribatçı əməllərlə sülh proseslərinin pozulmasından itirən tərəf yenə də Ermənistan olacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Yenidən gərginlik yaratması Ermənistan üçün intihar olacaq

**"Azərbaycan və Ermənistan arasında şərti sərhədlərdə fevral təxribatlarından sonra xeyli müddətdir ki, hökm sürən sabitliyin ardınca ordumuzun Sədərək və Şahbuz istiqamətində yerləşən mövqelərinin atəşə tutulması İrəvanın təcavüzkar niyyətlərindən əl çəkmədiyini göstərir. Ermənistan 30 il davam etmiş işğalda ehtiva olunan status-kvonu bərpa etmək üçün imkan axtarır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Paşinyan hakimiyyəti yaxşı başa düşür ki, bu, hazırkı qüvvələr nisbəti və Azərbaycanın çox sürətlə artan hərbi-siyasi imkanları fonunda mümkünsüzdür. Lakin Qərbdən gələn siqnallar Ermənistanın təcavüzkar mahiyyəti ilə üst-üstə düşdüyünə görə haylar yenidən eyforiyaya qapılıb. Deputatın sözlərinə görə, regionda dayanıqlı sülh və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir vaxtda Ermənistanda birdən-birə revanşist qüvvələrin daha da fəallaşması, bu ölkədə ayrı-ayrı dairələrin Azərbaycanı müharibə ilə hədələməyə başlaması, hətta mövqelərimizin yenidən atəşə tutulması yalnız bu ölkənin özünün qərarı deyil, həm də Qərbin İrəvana ötürdüyü birbaşa direktivlərin nəticəsidir.

Bəhruz Məhərrəmov söyləyib ki, Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərindəki hərbi-siyasi qələbələri nəticəsində formalaşan reallıq, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olunması ABŞ və Fransa başda olmaqla Avropanın bir sıra subyektlərini qane etmir: "Ermənistanın 3 il ərzində iki dəfə kapitulyasiyaya imza atması fonunda münaqişə və separatizm alətlərindən məhrum olan Qərb ayrı-ayrı platformalarda ölkəmizə qarşı uğursuz hücumlarının, habelə Azərbaycan daxilində maliyyələşdirdiyi muzdlu medianın və bütövlükdə 5-ci kolonun fiaskosuna şahidlik etdikcə aqressiyası artır. Həmçinin regionda Prezident İlham Əliyevlə hesablaşmağa məhkum olduğunu başa düşən Qərb daha da radikallaşır. Cənubi Qafqazda gedişləri effektsiz olduqca Qərb açıq şəkildə qarşı cəbhədə mövqe tutduğunu artıq gizlətmir. Prezidentimizin fevralın 14-də andiçmə mərasimində də ifadə etdiyi kimi, "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur".

Deputat əlavə edib ki, əvvəllər işğalın nəticələrini Bakıya qəbul etdirmək üçün sülh və qarşılıqlı etimaddan danışan, Azərbaycanı təcavüz və ərazi itkisi ilə barışdırmaq üçün davamlı şəkildə o zamankı status-kvo ilə "sülh" təlqin edən Qərb bu gün beynəlxalq hüququn aliliyinin təmin olunduğu reallığı qəbul etmək istəmir: "Bu isə o deməkdir ki, Qərb regionda münaqişələrə öz maraqlarının təminatı kimi yanaşdığını gizlətmir. Məğlub Ermənistanı qalib Azərbaycanla qarşıdurmaya təhrik etməklə erməniləri öz ambisiyalarının alətinə çevirməyə çalışır. Avropa İttifaqı-Ermənistan-ABŞ müştərək konfransının keçirilməsi və Ermənistan üçün təhlükəsizlik zəmanətinə dair hərbi paktın imzalanmasının planlaşdırılması bu planın həlledici addımıdır. Ermənistan hakimiyyəti və erməni cəmiyyəti cəmi 6 ay əvvəlki kapitulyasiyanı unudaraq ABŞ və Avropa İttifaqının heç bir perspektivi olmayan təhlükəli vədlərinə inanmağı obyektiv reallıqdan daha üstün tuturlar. Son bir neçə gündə Ermənistanda Azərbaycana qarşı təcavüzkar ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların misli görünməmiş miqyasda tirajlanmağa başlaması da məhz bu prosesin tərkib hissəsidir. Görünən odur ki, Qərb regionda münaqişənin yenidən qızışdırılmasında israrlıdır. Təcavüzkar mahiyyətindən əl çəkə bilməyən Ermənistan özü də bu məsələdə Qərbdən az həvəsli deyil".

Bəhruz Məhərrəmov həmçinin deyib ki, əslində, baş verənlər bizi təəccübləndirmir, çünki andiçmə mərasimində Prezident də ifadə etmişdi ki, "bunlar bizdən əl çəkməyəcək". Hazırda yaşananlar da bir daha göstərir ki, İlham Əliyev proqnozlarında nə qədər haqlıdır. Qərbin vədlərinə güvənən İrəvan anlamalıdır ki, regionda yenidən gərginlik yaratmaq cəhdi Ermənistan üçün intihar deməkdir.

"Azərbaycanın qələbəsi ilə yaranan yeni reallıqlar yekun sülh prosesi üçün əlverişli məqam yaratsa da, Ermənistan xarici havadarlarına arxayın olaraq radikal formada qeyri-konstruktiv davranmaqla, konkret desək, şərti sərhədlər boyu ordu hissələri, silah və texnika cəm etməklə vəziyyəti daha da ağırlaşdırır. Baxmayaraq ki, sülhün qarşısında heç bir real və prinsipial əngəl qalmayıb. Belə bir məqamda Ermənistanın güc dili ilə danışmağa çalışması təəssüf və təəccüb doğrur. Lakin İrəvan unutmamalıdır ki, şərti sərhəddə cəm etdiyi fərari ordusu vasitəsilə Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi, yaxud maraqlara hər hansı təhdid niyyəti meydana çıxarsa, Azərbaycan Ordusunun sərt və adekvat tədbirləri ilə qarşılaşacaqlar. Haylar unutmamalıdırlar ki, Ermənistanı 3 ildə iki kapitulyasiya aktından qoruya bilməyən dairələrin regionda güclənən Azərbaycan qarşısında şansı yoxdur. Dəyişməz reallıqdır ki, Azərbaycanın Vətən müharibəsində Zəfəri qlobal miqyasda güc nisbətinə təsir edən nəticələrlə müşayiət olunmaqdadır və İrəvanın Qərbdəki havadarları əslində elə Ermənistanla bərabər məğlub tərəflərdir", - deyə müsahibimiz vurğulayıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Üçtərəfli görüşdə sülhdən söhbət getməyəcək

### Məqsəd Qafqazı "qaynar qazan"a çevirməkdir

**Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmağa doğru getdiyi, sülh istiqamətində irəliləyiş olduğu bir vaxtda Qərbin və ABŞ-nin təhriki ilə Ermənistanın şərti sərhəddə fəallaşdığı müşahidə olunur. Yenidən silahlandırılan Hayastanın sərhəddə hərbi texnika və hərbçiləri cəmləşdirməsi növbəti təxribatlardan xəbər verir.**



Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhənin açılmasında yardımçı olan Ermənistana verilən vəd də elə onun silahlandırılmasından və Azərbaycana qarşı yeni münaqişədə ona dəstək olmaqdan ibarətdir.

Bütün bunlar göstərir ki, Avropa İttifaqı və ABŞ-nin Cənubi Qafqaz regionu ilə bağlı "sülh" çağırışları gözdən pərdə asmaqdan başqa bir şey deyil.

Milli Məclisin deputatı Sahib Alıyev "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller aprelin 5-də Brüsseldə Ermənistanın baş naziri ilə keçiriləcək görüşdə regional məsələlərə toxunulmayacağını və orada "Bakı ilə İrəvan arasında sülh prosesindən söhbət getməyəcəyini" bildirib.

Deputat qeyd edib ki, M.Millerin Blinken-Ursula fon der Lyayen-Paşinyan görüşündə guya regionda baş verənlərə toxunulmayacağı haqda dedikləri ancaq 1 aprel zarafatı ola bilər: "Amma dediyi digər fikirlə razılaşıram. Bəli, həmən görüşdə doğrudan da sülhdən söhbət getməyəcək, çünki o əks məqsədlə, yəni ayırıcı xətlər çəkmək, Qafqazı "qaynar qazan"a çevirmək üçün keçirilir. Ermənistan silahlı qüvvələrinin sözügedən görüş öncəsi Şərqi Zəngəzuru, eləcə də Naxçıvanla şərti sərhəddəki mövqelərimizi atəşə tutması, təmas xətti boyunca qüvvə cəmləşdirməsi məhz gələcək toqquşmalarda Qərbin dəstəyini təmin etmək məqsədi daşıyır".

S.Alıyev vurğulayıb ki, qarşı tərəf əvvəlki təxribatları, bəlli bir həddi keçəndən sonra Azərbaycandan aldıqları cavabları çətin ki, unutsun. Görünür, yenə də Azərbaycanı oxşar addımlar atmağa vadar etməyə çalışırlar ki, Brüssel görüşündə havadarlarının Ermənistana genişmiqyaslı hərbi dəstəkləri üçün əldə bəhanə olsun. Yeri gəlmişkən, bu təxribatların ABŞ-nin hərbi təlimatçılarının Ermənistanda peyda olduqları zamanda baş verməsinin özü də az şey demir. "Beləliklə, soruşmaq olar ki, əgər Qərbdəkilərin məqsədi dedikləri kimi burada dayanıqlı və davamlı sülhün əldə edilməsidirsə, onda Azərbaycanla Ermənistan ona heç vaxt olmadığı qədər yaxınkən regionda ayırıcı xətlər niyə çəkilir, qarşı tərəf nə üçün revanşizmə sürüklənir?", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qərb Ermənistanı qlobal oyunlara çəkir

**Ermənistan aprelin 5-də Brüsseldə keçiriləcək "sülh konfransına" hazırlaşır. Avropa İttifaqı və ABŞ-dən "təhlükəsizliyinə" təminat alacağına ümid edən Ermənistanın baş naziri konfransa "əliboş" getmək istəmir. O, Ermənistanın təhlükədə olduğunun görüntüsünü yaratmaq məqsədilə süni surətdə "müharibə şousu" yaratmağa çalışır. Digər tərəfdən Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində bu ölkənin silahlı qüvvələrinin intensiv hərəkəti müşahidə olunur.**



Son günlər Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin fəallaşmasını, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması ilə sərhədlərimizə zirehli texnika, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşməsini, bir yandan da informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artmasını heç də təsadüfi hesab etmək olmaz.

Məsələ burasındadır ki, NATO-nun Baş katibi Yens Stoltenberq Cənubi Qafqaz ölkələrinə səfərindən sonra regionda sülhün bərqərar olmasının vacibliyi barədə açıqlama versə də, siyasi proseslər NATO-nun, eləcə də bütövlükdə Avropa İttifaqı və ABŞ-nin Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında maraqlı olmadığını göstərir.

Ermənistanın yeni hərbi təxribatlara hazırlaşdığı barədə məlumatlar artıq təsdiqlənməyə başlayıb. Belə ki, rəsmi İrəvanın son vaxtlar konstruktiv mövqe tutmağa üstünlük verməsi daha çox aldadıcı manevr təsiri bağışlayır. Hər halda Paşinyan hakimiyyətinin bəyanatları ilə davranışları kəskin ziddiyyət təşkil edir. Və son günlər bu kəskin ziddiyyətlər daha qabarıq şəkildə müşahidə olunmaqdadır...

Azərbaycan heç vaxt qonşularına qarşı ərazi iddiasında olmayıb. İndi də Ermənistana dövlətimiz tərəfindən heç bir təhlükə yoxdur. Bütün dünyaya məlumdur ki, 30 ildən artıq davam edən Azərbaycan-Ermənistan münaqişəsinin səbəbkarı da, Azərbaycanın ərazilərini işğal edərək dağıdıb məhv edən də Ermənistan olub. 2020-ci ildə torpaqlarını işğaldan azad edən Azərbaycan müharibədən sonra qarşı tərəfə sülh təklif edən ölkədir. Bu günə kimi sülh protokolunu imzalamayan yenə də Ermənistandır. Bunu Qərb də bilir, ABŞ də...

Ermənistanın işğalçı dövlət olduğunu isbatlamaq üçün heç uzağa getmək də lazım deyil. Bunun üçün BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməni xatırlatmaq kifayətdir. Bu ölkənin Azərbaycan torpaqlarını işğal etməsini görüb susan, heç vaxt belə konfrans keçirməyən Aİ-nin və ABŞ-nin faktiki olaraq Ermənistanın təhlükəsizliyinə heç bir təhdid olmadığı halda konfrans keçirib "təhlükəsizliyinə" təminat verməsi nəyə xidmət edir? Görünən budur ki, Ermənistanın təhlükəsizliyinə təminat verən Qərb Cənubi Qafqazda Rusiya ilə müharibəyə hazırlaşır. Ermənistan üçün mini-Nato mexanizmi yaradan ABŞ və Avropa Birliyinin Ermənistana təhlükəsizlik təminatı vermək üçün rəsmi İrəvanın hərbi təxribatlarında maraqlı ola biləcəyi də qətiyyən istisna deyil. Məqsəd ilk növbədə Ermənistanı strateji müttəfiqi olan Rusiya ilə üz-üzə qoymaq, İrəvandan Moskvaya qarşı plasdarm kimi istifadə etməkdir. Eyni zamanda Qərb Ermənistandan müstəqil xarici siyasət yürüdən, iqtisadi baxımdan heç kimdən asılı olmayan Azərbaycana qarşı təzyiq aləti kimi faydalanmaq istəyir. Burada Qərbin Ermənistan ərazisindən İrana qarşı müxtəlif planlar hazırlamaq niyyətinin olmasını da diqqətdən qaçırmamalıyıq.

Bu məqamda bir məsələnin üstündən sükutla keçmək olmur. Ortalıqda 2020-ci ilin noyabrında imzalanan atəşkəsdən sonra Aİ-nin, Fransanın və ABŞ-nin Ermənistan-Azərbaycan danışıqları prosesinə vasitəçilik etmək üçün "yarışa" girmələri fakt olaraq qalır. Aprelin 5-nə planlaşdırılan ABŞ-Avropa İttifaqı-Ermənistan görüşü həm də Azərbaycanın Ermənistanla vasitəçilər olmadan danışıqlar aparmaq və sülh müqaviləsi imzalamaq planlarına qarşı atılan addımdır. Vasitəçilik etmək istəyən ölkələr hesab edirlər ki, danışıqlar prosesində iştirak edən ölkə sülh müqaviləsi imzalanan zaman öz şərtlərini qəbul etdirərək bu yolla regiona girə biləcək.

Faktiki olaraq Ermənistanda mini-Nato mexanizmi yaradan Qərb Ermənistanı yeni müharibəyə hazırlayır. Nikol Paşinyan indiki vəziyyətdə sərhəddə baş verən lokal xarakterli qısamüddətli hərbi toqquşmaların Ermənistana Qərbin təhlükəsizlik təminatını qazandıra biləcəyini düşünür. Ona görə də Ermənistan hakimiyyəti aprelin 5-də baş tutacaq ortaq konfransa qədər sərhəddə təxribat törədib hərbi toqquşmaya can atır.

Hadisələrin gedişi göstərir ki, Qərb Ermənistana "təhlükəsizlik" təminatı verməklə onu daha qlobal oyunlara hazırlayır. Qərbdən təhlükəsizlik təminatı alan rəsmi İrəvanın bundan sonra Rusiyaya qarşı münasibətinin heç də "loyal" olmayacağını düşünə bilərik. Ermənistana təhlükəsizlik təminatı verən qüvvələr birmənalı olaraq bu ölkədən sözdən işə keçməyi tələb edəcəklər. Əsl həngamə də bundan sonra başlayacaq. "Sülh konfransından" qayıdan Nikol Paşinyanın tərəfdarları ilə İrəvanda olan Rusiyapərəst qüvvələrin qarşı-qarşıya gəlməsi qaçılmaz olacaq. Rusiyanın sakitliklə qoşunlarını çəkib Ermənistandan getməsini düşünmək sadəlövhlük olar. Hadisələrin gedişi yaxın zamanlarda Ermənistana təhlükəsizlik təminatı vəd edən qüvvələrin Nikol Paşinyana sığınacaq verəcəyini proqnozlaşdırmağa əsas verir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Ermənistanın "yenilməz ordu" mifi Aprel döyüşlərində darmadağın edildi

**"Aprel döyüşləri Azərbaycan Ordusunun sanki sınaq imtahanı idi. Bu döyüşlər 23 ildə qurduğu səngərlərə və müdafiə sədlərinə arxayın olan düşmənin "yenilməz ordu" mifini darmadağın etdi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat söyləyib ki, 2016-cı ilin aprelində 4 gün davam edən döyüşlər Azərbaycan əsgərinin hansı gücə qadir olduğunu sübuta yetirdi: "Düşmən ordusu böyük itki verdi, minlərlə hektar ərazimiz işğaldan azad olundu. Ermənistanın Aprel döyüşlərinə qədər nəzarət etdiyi yüksəkliklərin bir neçəsi, habelə Lələtəpə və Talış kəndi istiqamətindəki strateji yüksəkliklər işğaldan azad edildi, Cocuq Mərcanlıda təhlükəsizlik təmin edildi. Bir sözlə, Aprel döyüşləri düşmənin döyüş iradəsini sındırdı. Hətta Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan yalvararaq döyüş əməliyyatlarının dayandırılmasını istədi və münaqişənin danışıqlar yolu ilə həll olunmasına razı olduğunu bildirdi. Lakin bir müddətdən sonra o, yenə öz erməniliyində qaldı".

Deputat bildirib ki, Aprel döyüşləri 44 günlük Vətən müharibəsinə gedən yolun başlanğıcı idi: "2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində erməni əsgərlər Aprel döyüşlərində yaşadıqları ruh düşkünlüyünü təkrar yaşadılar, döyüş meydanlarından qorxub qaçdılar. Onlar başa düşdülər ki, Azərbaycan Ordusunun qarşısını heç nə ilə ala bilməyəcəklər. Ordumuz qarşısına qoyulmuş tarixi vəzifəni uğurla icra edirdi. 44 gündən sonra Şuşada bayrağımız dalğalandırıldı. O cümlədən keçən ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə 23 saatda Qarabağdakı erməni separatizminin kökü kəsildi, bütün ərazilərdə suverenliyimiz bərpa olundu. Beləliklə, 2016-cı il aprelin 2-dən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi altında ordumuzun yazmağa başladığı döyüş salnaməsi bu il prezident seçkilərində Xankəndidə erməni separatiziminin tabutuna axırıncı mismar vurulmaqla başa çatdırıldı".

Azər Badamov onu da qeyd edib ki, indi Azərbaycan tarixdə heç vaxt olmadığı qədər güclüdür. Qarşımızdakı əsas vəzifə isə erməni işğalı altında qalmış 8 kəndin azad olunaraq bütün ərazilərimizə keçmiş məcburi köçkünlərin qaytarılmasıdır. 2022-2026-cı illəri əhatə edən Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla icra olunur. Artıq 5 min nəfərdən çox keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb. 2026-cı ilin sonuna qədər isə 140 min keçmiş məcburi köçkünün doğma yurduna qayıtması planlaşdırılıb. Həmçinin 100-dən çox şəhər və kəndin baş planları təsdiq olunub, yeni şəhərlər və kəndlər tikilir.

"Bütün bunlar Prezident İlham Əliyevin yenilməz liderliyinin və dəyişilməz mövqeyinin təntənəsi, xalqımızın böyüklüyünün bariz göstəricisidir. Bu gün üzərimizdən "məğlub xalq" adı götürüldüyünə görə başımız ucadır. Biz qalibik, qürurluyuq və öz yurdumuzun sahibiyik. Bizə bu xoşbəxtliyi yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirik", - deyə deputat bildirib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Lələtəpədən Xankəndiyə...

**Azərbaycanın müasir hərb tarixinə qızıl hərflərlə həkk olunan Aprel döyüşlərindən 8 il ötür. 2016-cı il aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində cəbhənin Tərtər və Cəbrayıl rayonları istiqamətində baş vermiş döyüşlər Azərbaycan Ordusunun zəfəri ilə yekunlaşdı. 4 gün davam edən döyüşlərdə qazanılan zəfər Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun gücünün, əsgər və zabitlərimizin qəhrəmanlığının təcəssümünə çevrildi.**



Torpaqlarımız işğal altında olduğu vaxtlarda Ermənistan silahlı qüvvələrinin bölmələri dəfələrlə cəbhə xəttində müxtəlif təxribatlar törətməyə cəhd etmişdilər. Lakin hər dəfə Azərbaycan Ordusunun bölmələri düşmənin layiqli cavabını vermiş, onu böyük itkilərə məruz qoymuşdu. Bildiyimiz kimi, hələ Aprel döyüşlərindən əvvəl hərbçilərimiz cəbhə xəttində düşmənin hərbi helikopterini məhv etmişdilər.

Aprel döyüşlərində isə düşmən ordusu daha böyük və daha dağıdıcı məğlubiyyətə uğradıldı. Ermənilər buna qədər bütün cəbhəboyu döyüş istehkamlarını möhkəmləndirmiş, güclü müdafiə istehkamları yaratmışdılar. Eyni zamanda düşmən təbii relyef baxımından daha əlverişli mövqelərə sahib idi. Lakin onlar "Ohanyan səddi" adlandırdıqları və keçilməz hesab etdikləri həmin mövqelərdən qəhrəman Azərbaycan Ordusunun ilk həmləsi ilə çıxarıldılar. Düşmənin təxribatlarına qarşı həyata keçirilən ilk hücumda həmin mövqelər ələ keçirildi. Döyüşlər nəticəsində Tərtər rayonu istiqamətində strateji əhəmiyyət kəsb edən ərazilər, Cəbrayıl rayonundakı Lələtərə yüksəkliyi işğaldan azad edildi. Cocuq Mərcanlı kəndi üçün təhlükə aradan qalxdı. Lələtəpə yüksəkliyi Aprel qələbəsinin rəmzinə çevrildi.

Prezident İlham Əliyev Aprel döyüşlərini tariximizin ən uğurlu hərbi əməliyyatlarından biri kimi dəyərləndirərək deyib: "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi".

Aprel döyüşləri Azərbaycan Ordusunun gücünün, qüdrətinin nümayişi oldu. Keçirilən hərbi əməliyyatların nəticəsi Prezident İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğunun təntənəsinə çevrildi. Azərbaycan Ordusu Aprel döyüşlərində öz gücünü praktik şəkildə nümayiş etdirdi. Hərbi əməliyyatlar zamanı texnika və canlı qüvvə baxımından ciddi tələfatlar verərək geri çəkilməyə məcbur edilən erməni hərbi birləşmələri atəşkəs dövründə ilk dəfə olaraq Azərbaycanın hərbi gücünü real şəkildə hiss etdilər. Erməni mənbələrinin özləri tərəfindən Ermənistanın çoxlu sayda canlı qüvvə və hərbi texnika itirdiyi etiraf olundu. Eyni zamanda dördgünlük döyüşlərdə ermənilərin öz orduları barədə yaratdıqları mif darmadağın edildi və sübut olundu ki, Azərbaycan Ordusu düşmən qarşısında əzici üstünlüyə malikdir. Beləliklə, Aprel döyüşləri göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrində həyata keçirilən islahatlar öz bəhrəsini verir.

Aprel döyüşləri Azərbaycan xalqının həmrəyliyinin təsdiqi oldu. Həmin günlərdə xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında səfərbər oldu, hər kəs qələbəyə kökləndi. Bu döyüşlər gənc nəslin vətənpərvərlik hisslərinin daha da güclənməsində böyük rol oynadı. Hər bir gəncimiz Aprel döyüşlərinin qəhrəmanlarından vətəni sevməyin nümunəsini götürdü. Samid Məmmədov, Murad Mirzəyev, Raquf Orucov, Samir Kaçayev, Pəncəli Teymurov, Təbriz Musazadə, Urfan Vəlizadə kimi qəhrəmanlarımızın döyüş yolu gənclərimiz üçün nümunəyə çevrildi, cəmiyyətimizdə vətənpərvərlik hisslərinin daha da yüksəlməsinə səbəb oldu.

Eyni zamanda Aprel döyüşləri göstərdi ki, Azərbaycan xalqı heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacaq, hansı yolla olursa-olsun, nəyin bahasına olursa-olsun ərazi bütövlüyünü bərpa edəcək. Bu baxımdan Aprel qələbəsi həm də Vətən müharibəsində torpaqlarımızın azad edilməsinə gedən yolun başlanğıcı idi. Aprel döyüşlərindən başlanan Zəfər yolu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin nəticəsi olaraq 2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində uğurla başa çatdırıldı. Ordumuzun Lələtəpədən başlatdığı Zəfər yürüşü Şuşanın, Xankəndinin, Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi ilə öz möhtəşəm zirvəsinə ucaldı.

Onu da qeyd edək ki, xalqımızın torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıq mübarizəsinin gənc nəslə aşılanması Cənubi Qafqazın ən böyük tələbə təşkilatı olan Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının əsas fəaliyyət istiqamətlərindən biridir. Bu istiqamətdə Vətən müharibəsi qəhrəmanları ilə təhsil müəssisələrində görüşlərin keçirilməsi, şəhid ailələrinin ziyarət olunması, tarixi Zəfərimiz mövzusunda seminarların, panel diskusiyaların keçirilməsi daim tələbə gənclər təşkilatları tərəfindən diqqət mərkəzində saxlanılır. Əlbəttə ki, bu tədbirlərin hər biri gənclərin vətənpərvərlik hisslərinin daha da yüksəldilməsinə xidmət edir.

*Nicat ƏLİYEV,*
*Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri*

# Aprel döyüşlərindən Vətən müharibəsinə...

**Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən səkkiz il ötür. 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq keçirilmiş uğurlu əks-hücum əməliyyatı hərb tariximizə əbədi yazılıb. Azərbaycan xalqının və ordumuzun qəhrəmanlığının nümayişi olan Aprel döyüşləri Vətən müharibəsinin ilkin məşqi və tarixi Zəfərə aparan yolun başlanğıcı kimi dəyərləndirilir.**











AZƏRTAC Aprel döyüşlərinin gedişinə və tarixi əhəmiyyətinə bir daha nəzər salır.

2016-cı il aprelin 2-də ordumuz düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

## Aprel döyüşlərinin əsas hədəfləri və tarixi əhəmiyyəti

Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza ilk böyük qələbə sevinci bəxş etdi.

Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-hücum əməliyyatının əsas hədəfi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrimizə törətdiyi təhlükəni aradan qaldırmaq idi. Belə ki, 2016-cı il aprelin 2-nə keçən gecə düşmən bütün mövqelərimizi, eyni zamanda mülki əhalini atəşə tutmağa başladı. Azərbaycan komandanlığı dərhal adekvat tədbirlər görülməsi ilə bağlı qərar qəbul etdi. Ordumuzun cavab zərbələri ilə düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən çox sayda canlı qüvvə və hərbi texnika sıradan çıxarıldı.

O vaxt cəbhənin ən gərgin nöqtələrindən biri Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti idi. Uğurlu əməliyyatlar nəticəsində Tərtər rayonunun Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Bununla da Naftalan şəhərinə yarana biləcək təhlükə aradan qaldırılmış oldu. Həmçinin geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ordumuzun nəzarətinə keçdi.

Ağır döyüşlərin gedişində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, erməni tərəfinin ölü və yaralı olaraq 800-dən çox hərbçisi zərərsizləşdirildi. Suqovuşan yaşayış məntəqəsində yerləşən düşmən qərargahı və əsas hərbi hissələri dağıdıldı. Bununla da Ağdərə-Suqovuşan, Cəbrayıl istiqamətindəki yolları nəzarətdə saxlamaq imkanı əldə olundu.

## Unudulmayan və yüksək qiymətləndirilən qəhrəmanlıq

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri igidliyə görə xüsusi fərqlənən bir qrup hərbçi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək fəxri ada, orden və medallara layiq görülüb.

Vətən qarşısındakı xidmətlərinə görə mükafatlandırılanlar arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər var.

"Aprel döyüşləri eyni zamanda ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək", - Prezident, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə dediyi bu sözlər həmin qələbənin strateji əhəmiyyətini tam dəqiqliyi ilə ifadə edir.

Onu da qeyd edək ki, Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində mülki əhalinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdışı mümkün oldu. Bu kəndin sakinlərinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunacağına dərin inam yaratdı.

Azadlığa qovuşmuş ərazilərin əzəli sahibləri Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində öz yurdlarına dönəcəklər. Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün azad olunmuş torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq artıq keçmiş köçkünlər öz dədə-baba torpaqlarına pənah gətirirlər və bu il bu proses davam edəcək. Bu günədək işğaldan azad olunmuş üç kəndə və iki şəhərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə, Laçın şəhərinə, Füzuli şəhərinə çoxlu sayda ailələr qayıdıb.

## Şanlı döyüş yolu

Uğurlu Aprel döyüşlərindən ruhlanan Azərbaycan Ordusu iki il sonra daha bir böyük zəfərə imza atdı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Naxçıvanın Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir.

Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsində böyük Zəfərə gedən yolda mühüm əhəmiyyət kəsb edir. Səkkiz il əvvəl bu döyüşlərdə düşmən üzərində qazanılan hərbi uğurlar Azərbaycan Ordusunun və xalqının böyük Qələbəyə inamını və əzmini daha da artırmaqla yanaşı, Silahlı Qüvvələrimizin şəxsi heyəti üçün böyük təcrübə oldu. Bu döyüşlər həm də düşmən mövqelərini və onların potensialını öyrənmək imkanı yaratdı. Məhz bu təcrübəni Vətən müharibəsində uğurla tətbiq edən rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək torpaqlarımızı 44 gündə işğaldan azad etdi.

Qarabağ Zəfərinin davamı olaraq, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük uğurlu lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi.

Ötən ilin noyabrında Xankəndidə keçirilən Zəfər paradı Azərbaycanın gücünün və ordumuzun qüdrətinin daha bir parlaq nümayişi kimi tarix səhifələrinə yazıldı.

Səkkiz il əvvəl Lələtəpədə ucaldılan üçrəngli bayrağımız bu gün Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə dalğalanır.

Son illər şanlı döyüş yolu keçən Azərbaycan Silahlı Qüvvələri hazırda özünün ən qüdrətli mərhələsini yaşayır. Bu yolda mühüm yer tutan Aprel döyüşləri Vətən müharibəsindəki böyük Qələbənin müjdəçisi olan tarix kimi əbədiləşib.





# Vətən deyəndə...





**Qarabağ Azərbaycandır!**

# Böyük Zəfər yolu...

**Ölkəmizin, xalqımızın qaranlıq günləri idi. Açılan sabahlar, doğan günəş hər bir azərbaycanlının könlünə düşən qapqara məğlubiyyət kölgəsini qovub apara bilmirdi. Qəsbkar Ermənistan 1990-cı ilin əvvəllərində işğal etdiyi Azərbaycanın iyirmi faiz ərazilərini xarabalığa çevirir, evləri dağıdır, yurdlarımızı Yer üzündən silirdi.**



Azğınlaşmış ermənilər azərbaycanlılara məxsus ölkə və dünya əhəmiyyətli tarixi abidələri talayır, uçurur, yandırır, bir çoxunu təhrif etməyə çalışırdı.

1994-cü il mayın 12-də atəşkəs haqqında saziş imzalansa da, Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini intensiv olaraq atəşə tuturdu. Müxtəlif istiqamətlərdə iriçaplı pulemyotlardan da istifadə etməklə hər gün atəşkəs rejimi pozulurdu. İşğalçı ölkənin ordusunun bölmələrinin amansızlıqla yağdırdığı atəş nəticəsində dinc, mülki insanlarımız, əsgər və zabitlərimiz şəhid olurdu. Təcavüzkar, məkrli düşmən Azərbaycan xalqının sinəsinə dağ üstündən dağ çəkirdi.

Düşmən cavab atəşi ilə susdurulurdu. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə zərbələr endirirdi. Ancaq işğalçı ölkənin ordusunun bölmələri təxribatlar törətməkdə, atəşkəsi pozmaqda davam edirdi.

Atəşkəs rejimindən sonra qoşunların təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma, ən şiddətli döyüşlər 2016-cı il aprelin ilk günündən - 1-dən 2-nə keçən gecə başladı. Azərbaycan Respublikası Müdafiə Nazirliyi 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhəboyu Azərbaycan mövqelərinin və yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldığı barədə məlumat yaydı. Nəticədə 2 dinc sakinin şəhid olduğu, 10 nəfərin yaralandığı bildirildi.

Düşmənin hücumlarının qarşısı alınırdı. Hərbçilərimiz münaqişəni alovlandıran Ermənistan silahlı bölmələrinə layiqli cavablar verirdilər. Cəbhənin ən gərgin istiqamətlərində - Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində iğalçılara ağır zərbələr endirildi.

Azərbaycan Ordusu Aprel döyüşlərinin başladığı ilk gündən əsl peşəkarlıq nümunəsi, qəhrəmanlıq göstərdi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi aprelin 3-də işğaldan azad olundu, Füzuli istiqamətində Ermənistanın pilotsuz uçuş aparatı vuruldu. Lakin Ermənistan tərəfi hələ də Seysulan kəndinin onların nəzarətində olduğunu iddia edirdi.

Qəsbkar Ermənistan işğal etdiyi mövqeləri itirdikcə daha da azğınlaşırdı. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun azad etdiyi mövqeləri yenidən ələ keçirməyə cəhd göstərirdi. Aprelin 4-ü cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərinə hücum etdilər. Bu dəfə yalnız Azərbaycan Ordusunun mövqelərini hədəfə almadılar. İşğalçı ölkənin silahlı qüvvələri təmas xəttinə yaxın yaşayış məntəqələrini də intensiv olaraq atəşə tuturdu.

Ağdərə şəhərinə aparan əsas yol üzərindəki strateji əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahına, həmçinin "Yerkrapa" erməni könüllülərini cəbhəyə gətirən avtobusa aprelin 5-də zərbə endirildi. Düşmən tərəfi 7 nəfərin öldüyünü təsdiq etdi.

Xocavənd-Füzuli istiqamətində erməni qüvvələrinin 2 ədəd tankı heyətlə birgə və hərbi əmlakla dolu 5-dək təkərli texnikası da həmin gün sıradan çıxarıldı.

Aprelin 5-də saat 12 radələrindən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə hərbi əməliyyatlar dayandırıldı. Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisləri arasında Rusiyanın paytaxtı Moskva şəhərində razılaşma əldə edildi.

Azərbaycan-Ermənistan dövlət sərhədində aprelin 5-də saat 12.10-dan başlayaraq aprelin 6-sı saat 12.56-dək sutka ərzində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqelərinə Ermənistanın Mehri, Sisian və Cermuk rayonları ərazisindən iriçaplı silahlar və qumbaraatanlardan atəş yağdırıldı. Azərbaycan Ordusu düşmənə layiq olduğu cavabı verdi.

Azərbaycan Müdafiə Nazirliyi aprelin 7-də cəbhə bölgəsində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistana məxsus "X-55" tipli pilotsuz uçuş aparatının xüsusi üsulla endirildiyi barədə məlumat yaydı. Ağdərə-Goranboy istiqamətində həmin gün atəşə tutulan Azərbaycana məxsus sanitar tibb maşınına ciddi ziyan dəysə də, xəsarət alan olmadı.

2016-cı ildə tarixə Aprel döyüşləri kimi yazılan dördgünlük döyüş zamanı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini düşmənin işğalından azad etdilər, Füzuli rayonu istiqamətində "Lələtəpə" yüksəkliyində nəzarəti ələ keçirdilər. Döyüşlər nəticəsində Ağdərə-Madagiz istiqamətində yolların Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində saxlanılması da reallığa çevrildi. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad etdiyi yerlərdə möhkəmləndirmə işlərinə başladı.

Aprel döyüşlərində Azərbaycanın qəhrəman oğulları şəhidlik zirvəsinə yüksəldilər. Amma düşmənin itkiləri müqayisəyəgəlməz qədər böyük idi.

1990-cı illərdə Azərbaycanın iyirmi faiz ərazisini himayədarlarının köməyilə işğal etmiş, Qarabağ və Şərqi Zəngəzur bölgələrimizi viran qoymuş təcavüzkar Ermənistanın öz gücünə inamının hədər, silahlı qüvvələrinin yenilməzliyi barədə xülyalarının boş olduğunu 2016-cı ilin aprelində Azərbaycan Ordusunun bölmələri dörd gün ərzində göstərdi.

Aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin hünəri, cəsurluğu işğalçıların canına qorxu saldı. Ən böyük qələbəyə - 2020-ci ilin payızında baş verən 44 günlük Vətən müharibəsinin şanlı Zəfərinə yol da Aprel döyüşlərindən başladı...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Milli qəhrəmanlarımız**

# İgidliyi gələcək nəsillərə nümunə olacaq

**Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidovla tanışlığımız 2014-cü ildən başlamışdı. O, cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birinin komandiri idi. Şükürün üzgözündən, baxışlarından qəhrəmanlıq yağırdı. Çox sadə, səmimi və məsuliyyətli zabit idi.**



Söhbətindən öyrəndik ki, Şükür xeyli müddət Naxçıvanda xidmət edib. Günlərin birində mövqedən qayıdarkən çovğuna düşüb. Üç gün davam edən çovğun zamanı həyatla mübarizə aparan zabit Şükür Həmidov qalib gəlib. Hərbi hissədə artıq Şükürün çovğunda həlak olduğunu düşünüblər. Amma cəsur zabit üç gündən sonra sağ-salamat geri qayıdıb. Bir müddət müalicə olunandan sonra xidmətinə davam edib. Sanki Tanrı Şükürü torpaqlarımızın azad olunması üçün, Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsində erməni qəsbkarlarına qarşı vuruşmaq üçün saxlayıb.

Təəssüflər olsun ki, belə cəsur, mübariz bir zabiti çox tez itirdik. Polkovnik Şükür Həmidov qısa, lakin şərəfli bir ömür yaşadı. İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda, qoynunda dünyaya göz açdığı Qubadlı rayonunun ərazisində gedən döyüşdə şəhid oldu.

Həmidov Şükür Nəriman oğlu 1975-ci il aprelin 1-də Qubadlı rayonunun Armudlu kəndində anadan olub. Hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 1993-cü ildə liseyi bitirdikdən sonra təhsilini indiki Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirib. Burada motoatıcı ixtisasına yiyələnən Şükür Həmidov leytenant hərbi rütbəsi alaraq Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin birində taqım komandiri kimi xidmətə başlayıb. 2006-cı ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasına qəbul olub. 2008-ci ildə hərbi təhsilini bitirdikdən sonra cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmə komandiri kimi xidmətini davam etdirib. Sonrakı illər ayrı-ayrı hərbi hissə və birləşmələrdə, müxtəlif vəzifələrdə xidmət edib. Bacarığı, peşəkarlığı ilə hərbi hissə komandiri vəzifəsinədək yüksəlib.

O, 2016-cı il Aprel döyüşlərində düşmən mövqelərinin yarılmasında və böyük strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyinin erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 22 aprel 2016-cı il tarixli sərəncamı ilə Şükür Həmidov "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Aprel döyüşlərində göstərdiyi igidliyinə görə 2016-cı il mayın 10-da müdafiə nazirinin əmri ilə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilib.

Milli Qəhrəman Şükür Həmidovun dilindən düşməyən arzularından biri də işğalda qalmış Qarabağı, eləcə də doğma Qubadlı rayonunu, qoynunda dünyaya göz açdığı Armudlu kəndini azad görmək idi.

25 sentyabr 2020-ci ildə cəbhə bölgəsinə ezamiyyətə getmişdik. Polkovnik Şükür Həmidovla son görüşümüz də elə həmin gün oldu. Görüşümüzdən iki gün sonra 27 sentyabrda erməni işğalçılarının təxribatı ilə İkinci Qarabağ müharibəsi başladı. Cəsur zabit Şükür Həmidov da komandiri olduğu şəxsi heyətilə birlikdə döyüşlərə atıldı.

Polkovnik Şükür Həmidov vuruşa-vuruşa Füzulidən, Cəbrayıldan, Zəngilandan keçərək qoynunda dünyaya göz açdığı Qubadlı torpağına gedib çatmışdı. Çox keçməyəcəkdi ki, kəndlərini də erməni işğalından azad edəcəkdi. Amma təəssüflər ki, bu xoşbəxtlik qəhrəmana nəsib olmadı. Şükür Həmidov oktyabrın 22-də Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu oktyabrın 25-də Qubadlı rayonunu da, Ş.Həmidovun doğulduğu Armudlu kəndini də erməni işğalçılarından azad etdi.

Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov İkinci Şəhidlər xiyabanında torpağa tapşırıldı. Qəhrəmanın dəfni izdihamlı keçdi.

Onun İkinci Qarabağ müharibəsində göstərdiyi şücaəti layiqincə qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Şükür Nəriman oğlu Həmidov ölümündən sonra "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olundu.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Milli Kitabxanada Aprel döyüşləri ilə əlaqədar silsilə materiallar hazırlanıb

**Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Aprel döyüşləri - bizim şanlı qələbəmizdir" adlı elektron məlumat bazası, "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunub.**



Həmçinin "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı ənənəvi geniş kitab sərgisi açılıb. Kitabxanadan bildirilib ki, virtual sərgidə Aprel döyüşləri haqqında dövri mətbuat məqalələri, kitablar, fotolar nümayiş olunur.

Elektron məlumat bazasında "Rəsmi sənədlər", "Dördgünlük müharibə", "Aprel şəhidləri", "Aprel döyüşlərinin xatirəsi", Aprel döyüşləri haqqında kitablar, məqalələr, fotoqalereya və s. özündə əks etdirən materiallar nümayiş olunur. Elektron məlumat bazası ilə tanış olmaq istəyənlər https://anl.az/el/emb/aprel_doyusleri/index.html linkindən istifadə edə bilərlər.

Ənənəvi kitab sərgisində isə böyük Zəfərin başlanğıcı - Aprel döyüşlərindən, 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbədən, tarixi Zəfərimizin əldə olunmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasından, Azərbaycan əsgərinin rəşadətindən, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin döyüş yolundan bəhs edən Azərbaycan və müxtəlif dillərdə kitablar nümayiş olunur.

Ənənəvi kitab sərgisi 1 həftə davam edəcək.

## Taktiki-xüsusi təlim keçirilib



**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2024-cü ilin döyüş hazırlığı planına əsasən, "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinəyetirmə bacarıqlarının və həyatdaqalma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən taktiki-xüsusi təlimdə xüsusi təyinatlılar müxtəlif fəaliyyətlər icra ediblər.

Taktiki fəaliyyətlər zamanı xüsusi təyinatlılar xəritə üzərində tapşırıqları dəqiqləşdirdikdən sonra gecənin qaranlığında şərti düşmənin arxasına sızaraq mövqelərə basqın tapşırığını icra ediblər. Təlimdə şəxsi heyətin sıldırım qayalıqlara dırmanaraq dağdan iplərlə enməsi, eyni zamanda ekstremal şəraitdə yaralıların qayalıqlardan təxliyə edilməsi məşq etdirilib. Xüsusi təyinatlı bölmələr düşmən dərinliyində çətin relyefli şəraitdə, qarlı və meşəlik ərazidə düşmənlə qəfil qarşılaşma, düşməndən uzaqlaşma fəaliyyətlərini yerinə yetiriblər. Taktiki-xüsusi təlimdə qar uçqununa məruz qalmış və qarlı ərazilərdə itmiş şəxslərin axtarılıb tapılması, onlara ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi həyata keçirilib. Qarlı-şaxtalı havalarda şəxsi heyətin xizəksürmə vərdişlərinin, hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma bacarıqlarının təkmilləşdirildiyi təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Zəfər marşları**

# "Vətənim və xalqım üçün çalışıram"

**Onun bəstələdiyi hərbi mahnılara hamı sevə-sevə qulaq asır. Onları dinlədikcə dinləmək istəyirsən. Sanki bu mahnıların ritmlərində sirli-sehirli ilahi bir qüvvə var. Bu qüvvə ilk səslənməsindən qəlbimizi sehirləyir, bulaq suyu kimi həzin-həzin ürəyimizə axıb könlümüzə dolur, ruhumuzu oxşayır. Görəsən bəstəkarın mahnılarının qüdrəti nədədir ki, bu qədər sevilir, bu qədər oxunur? Bəlkə bu mahnıların gücü onun vətənpərvərlikdən yoğrulmuş sözlərindədi.**

Bu sözlərin Vətəni, onu qoruyanları tərənnüm etməsindədi. Yurdun, elobanın müdafiəsinə çağırışındadı, əsgərə, zabitə müraciətindədi. Söhbət "İgid əsgər, möhkəm dayan", "Cənab leytenant", "Birinci batalyon" "Vətən əmanəti", "Öncə Vətəndir", "İstiqlal marşı" və neçə-neçə sevilən mahnı və marşların, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş "Mübariz" liberettosunun və "Mübariz" radio tamaşasının müəllifi Şahin Musaoğludan gedir. Bəstələdiyi mahnıların sözlərini də Şahin müəllim özü yazır. İndiyə qədər 40-dan çox hərbi vətənpərvərlik mahnısını dinləyicilərinin ixtiyarına verib. Onun şeirləri müxtəlif toplularda, mətbu orqanlarda, o cümlədən xarici ölkələrin (İran,Türkiyə, Küveyt, Rusiya) nüfuzlu dərgi, qəzet və internet saytlarında yer alıb.

Şahin Musaoğlunun bəstələdiyi hərbi mahnılar demək olar ki, hər gün Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində əsgərlərin dilində səslənir. Dəfələrlə şahidi olmuşuq ki, təlimlər zamanı bu marş və mahnıların səslənməsi hərbçilərin döyüş ruhunu yüksəldir, onları qələbəyə səsləyir.

1963-cü il iyulun 11-də Masallı rayonunun Qızılağac kəndində anadan olan Şahin Musa oğlu Əbilov orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna qəbul olub. 1986-cı ildə təhsilini başa vurduqdan sonra Biləsuvar rayonundakı xəstəxanada həkim işləyib. 1990-cı ildən işini Qədirli adına Xəzər Dəniz Hövzə Xəstəxanasında davam etdirib. Ş.Musaoğlu bu şəfa ocağında o zamanlar çox da geniş yayılmayan USM üzrə həkimlik ixtisasına yiyələnib, bu işin ən yaxşı mütəxəssislərindən biri olub.

Həmin ərəfədə ermənilər Qarabağı işğal etmək üçün azərbayacanlıları yurdlarından qovurdular. Azərbaycan-Ermənistan müharibəsinin odlu-alovlu çağlarında Şahin Musaoğlu orduya yollandı. Müdafiə Nazirliyi Tibb İdarəsində Qarabağ döyüşlərində yaralanan əsgər və zabitlərə məxsus ilk hərbi-tibbi arxiv yaratmaq kimi gərəkli bir işin bünövrəsini qoydu. Sonra nazirliyin Sənədli Filmlər Kino-telestudiyası ilə əməkdaşlığa başladı. Hərbi vətənpərvərlik mahnı və marşları da elə o vaxtdan yarandı.

- Həmin vaxtlarda hərbi-tibbi arxiv yaratmaq vacib iş idi, - deyə həkim-radioloq Şahin Musaoğlu bizimlə söhbətə başladı. - Nə qədər çətin olsa da, biz Qarabağ uğrunda döyüşüb yaralanan zabit və əsgərlərin siyahısını hazırlayıb arxivləşdirirdik. Qısa zaman ərzində xeyli gərəkli tapşırıqları yerinə yetirdik. İşlərim nə qədər çox olsa da, Sənədli Filmlər Kino-telestudiyası ilə də əməkdaşlıq edirdim. Cəbhə bölgələrinə ezamiyyətə gedir, yurdumuzu qoruyan oğullarla görüşür, onların barıt qoxulu nəfəslərini duyurdum. Ezamiyyətlərim zamanı hərbçilərimizin qəhrəmanlığını gördükcə qəlbimi iftixar hissi bürüyürdü. Vaxt keçdikcə bu hisslər misra-misra sözə, şeirə çevrilirdi. Qəlbləri riqqətə gətirən igidlikdən yoğrulmuş bu şeirlərin üstünə yavaş-yavaş musiqi ritmləri də hopurdu. Beləcə, hərbi mahnı və marşlar yaranırdı. Müstəqillik dövründə ilk hərbi marşları görkəmli bəstəkar Cavanşir Quliyev bəstələdi. Mən isə hərbi mahnılar bəstələməyə başladım.

Şahin müəllim ilk hərbi mahnısının yaranması tarixindən də söz açdı. Dedi ki, ezamiyyətlərinin birində Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevlə tanış olub. O, çox igid, qəhrəman bir zabit idi. Onunla tanış olduğu vaxtlarda "İgid əsgər, möhkəm dayan" mahnısı üzərində işləyib. Yusiflə söhbət edərkən öyrənib ki, qəhrəmanımız həm də bacarıqlı musiqiçidi, qarmonda bir-birindən gözəl mahnılar ifa edir: "Mən də orta məktəb illərində musiqi təhsili almışdım. Bir neçə dəfə rəhmətlik Yusiflə "İgid əsgər, möhkəm dayan" mahnısının məşqlərini etmişdik. Xatırlayırsınızsa, ordumuzun yenicə yaranmış hərbi hissəsinin ilk əsgərləri Şəhidlər xiyabanında and içib Qarabağa döyüşə yollandılar. Həmin günlərdə bəstələdiyim "İgid əsgər, möhkəm dayan" mahnısı artıq hazır idi. Elə həmin ərəfədə ilk hərbi mahnım Azərbaycan Televiziyasının efirində səsləndi. Mahnını Milli Qəhrəmanımız Yusif Mirzəyevin əziz xatirəsinə həsr etdim. "İgid əsgər, möhkəm dayan" qısa müddət ərzində dinləyicilərdə böyük maraq doğurdu".

Şahin müəllimdən soruşanda ki, necə fikirləşirsiniz, Azərbaycan əsgəri İkinci Qarabağ müharibəsində mahnınızda istədiyiniz kimi, döyüş mövqeyində möhkəm dayandımı? Bəstəkarımız böyük qürurla dedi ki, bəli, Azərbaycan əsgəri 44 günlük Vətən müharibəsində üzərinə düşən tarixi vəzifəni şərəflə yerinə yetirərək həm mövqeyində möhkəm dayandı, həm də torpağını işğaldan azad etdi. İkinci Qarabağ müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Zəfərlə başa çatdı. Hərbçilərimiz döyüşlərdə qəhrəmanlıq göstərərək 30 illik işğala son qoydular. Cəsarət və qətiyyətləri ilə düşməni diz çökdürüb məğlub etdilər, xalqımıza Zəfər sevinci yaşatdılar. Azərbaycan Ordusu mahnılarda, şeirlərdə arzuladıqlarımızı reallığa çevirdi. Mənə elə gəlir ki, Zəfərdən sonra həmin mahnılar daha da qürurla səslənir.



Söhbətinin sonunda Şahin Musaoğlu gələcək planlarından da söz açdı. Dedi ki, yaradıcılıq bulaq kimidir, heç vaxt tükənmir, qaynadıqca qaynayır: "Fikirdən söz, sözdən misra, misradan da mahnılar yaranır. Hazırda yeni əsərlər üzərində çalışıram. Təbiidir ki, yazılacaq, yaranacaq yeni mahnı və marşlar Zəfərimizi tərənnüm edəcək. Bu gün daha çox yazmış olduğum əsərlərin klassik üslubda işlənməsinə üstünlük verirəm. Yəni bu mahnıların həm nəfəsli alətlər, həm də simfonik orkestr üçün yazilacaq versiyaları üzərində çalışıram. Nə yazıram, nə bəstələyirəmsə, hamısını xalqım və Vətənim üçün edirəm. Həyatda unudulmaz anlar çox olur. Mənim üçün ən unudulmaz, ən xoşbəxt anlar yaradıcılıqla məşğul olduğum anlardır. Çünki bu unudulmaz anlardan elə unudulmaz şeir və hərbi mahnılar yaranır".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 fevral (Cümə axşamı günü) tarixli 118-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 19 cəmadiyələvvəl sənə 1337.
20 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliheydər, Əliağa və Əliabbas Babayevlər öz dayısı oğlu **Ələkbər Lütfəliyevin** mərasimi-dəfni bu gün fevralın 20-sində saat 9-un yarısında özünün Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evindən olacağını öz qövm-əqrəbalarına elam verirlər [bildirirlər].

*2698*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ələsgər, Əliməhəmməd, Vahab, Xaliq Lütfəliyevlər öz qardaşı **Ələkbər Lütfəliyevin** vəfatını kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəbalarına məlum edirlər. Mərasimi-dəfni bu gün fevralın 20-sində saat 9-un yarısında öz evindən Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evdən olacağını öz qövm-əqrəbalarına elan edirlər.

*2677*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Qubernatorun binagüzarlığı**

Bakı qubernatoru Rəşid bəy Axundzadə cənabları Bakı və Balaxanı-Sabunçu qalabəylərinə [polismeysterlərinə] xitabən zeyldəki [aşağıdakı] binagüzarlığı [sərəncamı] vermişdir:

Fevralın 10-da mənim təhti-sədarətimdə [sədrliyim altında] vüqu bulmuş iclasın qərardadına görə, Bakı və Balaxanı-Sabunçu qalabəylərinə əmr edirəm ki, qaradovoylara məxsus forma tərtib etsin. Bu formanın çiynində qırmızı parçanın üzərində rus və türk dillərində Bakı üçün "B. P." və Balaxanı-Sabunçu üçün "S. P." hərfləri yazılmalıdır. Qaradovoyların döşündə nömrəsi və nə yerdə, hangi qalabəyi dairəsinə qulluq etməsi göstərilməlidir. Hər qaradovoyun fiti olmalıdır. Tapanca olmadığından hələlik qaradovoylar tüfənglərlə müsəlləh edilirlər [silahlandırılırlar]. Okolotoçniklər [polis sahə rəisləri] və pristavlar əvvəlki formalarında qalırlar.

* Bakı qubernatoru Rəşid bəy Axundzadə Ədliyyə nazirinə müraciətən rica etmişdir ki, Bakıdakı bütün müstəntiqlərin mənzillərinə telefon qoyulsun.

* Bakı qubernatoru dəftərxanası qulluqçularının nizam üzrə xidmətlərini ifa edib və vaxtında işə başlamalarını tövsiyə ilə qubernator tərəfindən bu barədə binagüzarlıq [sərəncam] və təlimat sadir olub [verilib], bütün qulluqçular tərəfindən oxunmuş və imza edilmişdir.

## MÜRACİƏTNAMƏ

**"Bakı və Ətrafı Müsəlman Zəhmətkeş Ziyalılar Cəmiyyəti" tərəfindən**

Əhaliyə məlumdur ki, Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərində bəzi para müfəttinlər [fitnəkarlar] tərəfindən cürbəcür fitnələr törənir. Bunlardan birisi də axşam olduqda şəhərin bəzi tərəflərində atışmalar olmasıdır.

Hamıya məlumdur ki, böylə fitnəçilərin məqsədi şəhərə şuluqluq salmaqdan savayı bir şey deyil. Hökumətimiz bu barədə çox çalışır və bu işə mübaşir olanlar da [girişənlər də] cəzalarına çatırlar. Ancaq iş burasındadır ki, bir hökumət məmurlarının bu yolda çalışması ilə biz gərək kifayətlənməyək. Biz müsəlman camaatı hamımız gərək bu işdə gözətçi olaq və böylə ağır dəqiqələr keçirdiyimiz halda var qüvvəmizlə çalışaq ki, bu işi kökündən qət edək [kəsək]. Bunu da əlavə edirik ki, qədim qaydalara görə, müsəlman camaatı "üskü"lərdə [Novruz çərşənbələrində] atəşbazlıq edir. Ancaq bu il, bu qayda bilmərrə [tamamən] biz müsəlman camaatının arasından götürülməlidir. Çünki çox ola bilər ki, biz böylə hərəkətimizlə hökumətə xain olan şəxslərə və bəzi fitnəçilərə geniş bir meydan verək və onlar da bu "üskü" atışmalarından istifadə edib bəzi hərəkətlərdə ola bilsinlər və şəhərimizə böyük bir şuluqluq sala bilsinlər.

"Bakı və Ətrafı Müsəlman Zəhmətkeş Ziyalılar Cəmiyyəti" hamı müsəlman qardaşlardan rica edir ki, gələn "üskü" günlərində güllə atmasınlar ki, bu da qeyrilərin əlində dəstaviz [bəhanə] olub yenə bizi cürbəcür məzəmmət etməsinlər.

Hökumətin sərəncamına görə, hər kəs güllə atmış olsa tutulub böyük cəzalar veriləcək. Hər bir işdə biz hökumətimizin sərəncamına əməl etməliyiz.

## NƏ İLƏ SAKİT OLA BİLƏRİK

Şəhərimizdə, bizdən biizin [icazəsiz] və bizim rizamız olmadığı halda təşkil edilməkdə olan rus-erməni könüllü qoşun məsələsi haqqında qəzetəmizin keçən nömrəsində hökumət tərəfindən tədbirlər görüldüyü yazılmışdı. Parlamanımızın səşənbə [çərşənbə axşamı] günü iclasında bu tədbirlər xüsusunda hökumətin ağzından daha geniş məlumat aldıq. Baş vəzir [nazir] Fətəli xan cənabları bu barədə gördüyü tədbirləri və əhvalın çegunələyini [necə olduğunu] Parlamana bildirdi. Əvvələ məlum oldu ki, Azərbaycan paytaxtında yabançı qoşun təşkilatı təşəbbüsləri, general Tomsonca dəxi [Tomsona görə də] qeyri-təbii görünən bir vəqədir və saniyən [ikincisi] bunu bildik ki, İçəri şəhərdə, Təzəpir yanında və Salyan qışlalarındakı [kazarmalarındakı] qoşun mənzillərini tutmaq kimi cəsarətdə bulunmuş könüllülər, hökumətimizin əmrinə görə həman yerləri beş gün ərzində boşaltmağa söz veribdirlər. Bu dəxi bizə məlum oldu ki, Könüllü qoşun mütəşəbbislərinin Bakıda heç olmasa bir yüz, iki yüz qeyri-nizami qoşun saxlamaq ricasına da hökumətimiz razı olmayıbdır.

*"Lakin bununla sakit olub da başımızı yastığa qoyub arxayın olmamalıyıq!"* sözlərini Fətəli xan həzrətləri əlavə etdi.

Bu qəbul! Əlbəttə, əhali də, Parlaman da bu gündən belə əhval və övzanın [vəziyyətin] ciddiliyinə daha artıq əhəmiyyət verib və lazımınca diqqət yetirib hər bir barədə ayıq olmalıdırlar. Lakin bu ayıqlıq vəzifəsi, təbiidir ki, hamıdan artıq hökumət üzərinə tərəttüb edir [düşür]. Hökumət əhalidən daha artıq ayıq və hüşyar [ayıq-sayıq] olmalıdır ki, həngami-zərurətdə [zərurət halında] hayhuy salıb yastığa baş qoymuş olanları oyatsın. Bu axırkıların da vəzifəsi odur ki, oyanan kimi biduni-həyəcanü təşviş [həyəcan və təşvişə yer vermədən], kamali-etidaliddəmlə [soyuqqanlılıqla] amadə [hazır] olub hökumət əmrlərini və binagüzarlıqlarını yerinə yetirmək üçün hazırlaşsınlar.

Lakin Fətəli xan həzrətlərinin srağagünkü sözlərindən sonra bizi heyrət və təəccübə gətirən dünənki "Znamya truda" qəzetəsində Könüllü ordu komandanı Prjevalskinin rəyi haqqındakı sözlərdir. Bu generalın dediyinə görə, Kaspi flotunun üssülhərəkə mövqeyi [bazası] Bakıda olacaqdır. Əlavə, general bəyan etmişdir ki, Qafqaz cümhuriyyətlərindən Dağıstan ilə Azərbaycan hökumətləri, rus qüvveyi-müsəlləhəsinin [silahlı qüvvələrinin] bu cümhuriyyətlər toprağında qalmasına və buralarda Könüllü ordu təşkilinə mane deyilmişlər...

Şübhəsiz, general Prjevalskinin bu sözləri, bizim gözümüz önündə təşkil edilən yabançı qoşunları görə-görə indiyə qədər kiriyib durmağımızdan irəli gələn təbii bir toxdaqlıq və arxayınlıqdır. Prjevalski[nin] buraya qoşun düzəltməkdən ötrü gəldiyini biz bilirdik. Bainhəmə [bununla belə] onun paytaxtımıza ayaq basmasına mane olmadıq: nə xəbər verdik ki, gəlməsin, nə də gələndən sonra həbs etdik. Prjevalski buraya gəlib Könüllü qoşunu təşkil etmək üçün müsaid bir zəmin gördü. Əlaltından işləyənlər – ki biz onları nədənsə görmürük, görsək də nədənsə görməməzliyə vururuq – Prjevalski üçün bir çox ləvazimat hazır etmişdilər. Deməli, Prjevalski binası qoyulmuş işi itmama [tamama] yetirmək təşəbbüsünə girdi və heç bir tərəfdən mümaniət [maneçilik] görməyib getdikcə cəsarətini artırdı və qoşunu üçün evlərimizi də rekvizit etməyə başladı və şəhərin şövqülceyşcə [strateji baxımdan] mühüm olan nöqtələrini bilaməhabə [çətinlik çəkmədən] işğal etdi və əminik ki, əgər Soçi əhvalatı bizi şübhə və əndişələrə salmasa idi, biz axıra qədər kirimiş qalardıq və o "axır" bundan ibarət olacaqdı ki, şəhərimiz prjevalskilər əlinə keçib Azərbaycan Hökuməti yerinə yenə rus hökuməti əyləşəcəkdi və ingilis komandası da "əmri-vaqe" [fakt] qarşısında sükut ixtiyar edib [susub] heç bir söz deməyəcəkdi. Ancaq ola bilər səy edəcəkdi ki, şuluqluq olmasın.

Fəqət genə də şükürlər olsun ki, biz bir az gec də olsa, bir balaca tərpəndik və bu işlərin xoşumuza gəlmədiyini lazım olan yerlərinə bəyan etdik. Bizə söz verdilər ki, bir də bu cürə işlər olmayacaqdır, olan iş dayandırılacaqdır və tutulmuş evlərimiz boşaldılacaqdır. Beş gün möhlət istəyibdirlər. Nə etməli? Möhlət vermişik, ancaq günləri sayacağıq ki, beş gündən artıq çəkməsin.

Lakin "başımızı yastığa qoyub" bir o qədər arxayın olmamalıyıq.

Əvvələ, bunu nəzərdə tutmalıdır ki, istiqlalımızın düşmənləri bizim qəflətimizdən istifadə edərək şəhərimizdə kök salıbdırlar və bu kök o qədər bərkiyibdir ki, onu yerindən qopartmaq üçün mərdanə hümmət lazımdır. Əgər bütün kökü birdən-birə qopartmaq mümkün deyilsə, rişələrini parça-parça çıxartmaq əməliyyatına məşğul olmalıdır.

Ən əvvəl lazım olan budur ki, tez bir zamanda öz qoşunumuzdan heç olmasa bir-iki polk şəhərimizə daxil edilib, lazım olan mövqelərdə yerləşdirilsin. Ancaq qoşun tez gəlsin. Hökumət bu qoşunun tezliklə gələcəyini vəd etdi. Lakin "tez" sözü nisbi bir təbirdir [ifadədir]. Üç günə də "tez" demək olar, bir ilə də! Biz istərdik ki, bu "tez" üç günlük "tez"lərdən olsun. Vəilla [yoxsa] iş o məqama çatar ki, "tez" dönüb, "gec" olar. Zatən Tomson həzrətlərinin "Azərbaycanda Azərbaycan Hökuməti məşru [leqal] bir hökumətdir" sözlərindən sonra bizim qoşunumuz burada olmalı idi. Zira bu sözdən sonra daha daxili işlərimizdə ondan-bundan "izin"lər almağa ehtiyac yox idi. Tomsonun bu sözlərindən kamalınca istifadə etmək lazım idi. Bu sözlərdən istifadə edib də Qarabağa general-qubernator təyin etməyimiz şayani-təqdir və təhsin [təqdirə və alqışlanmağa layiq] bir təşəbbüs isə, həman sözlərdən sonra paytaxtımıza qoşunumuzu gətirməmək və mərkəzimizə yabançı generallar buraxmaq işimiz, dedikcə [olduqca] şayani-təəssüf [təəssüfə layiq] bir hadisədir...

Hər halda qəflətimizin fəna nəticələrini rəf etmək [aradan qaldırmaq] üçün əcələ ilə işə girişməliyik və mümkün olduğu qədər tezliklə qoşunumuzu paytaxtımıza gətirməliyik.

İkinci olaraq, şəhərimizi yabançılardan təmizləməliyik. Daha vaxtdır ki, biz də Gürcüstan kimi məsələni "köndələn" qoyub bizi tanımaq istəməyənlərə iki şey təklif edək: ya bizi tanımaq və ya paytaxtımızı boşaltmaq. Bu iki şeydən birini qəbul etdirməliyik! Vəilla iş o məqama çatar ki, bizim özümüzə iki şeydən birini təklif etməyə başlayarlar. Məsələn, şəhərimizdə asudəliklə əlaltınca işlər görməkdə olan Rus Milli Komitəsinin naşiri-əfkarı [mətbuat orqanı] "Yedinaya Rossiya" qəzetəsi dünənki baş məqaləsində bizə təklif edir ki, ya bolşevikləri qəbul edək, ya denikinləri. Və özü də öz yanından məsləhət görür ki, qəbulluq üçün denikinləri seçək, çünki bunlar bolşeviklərdən daha məsləhətdirlər.

Nə qədər acınacaq əhval! Gürcüstan Hökuməti, Rus Milli Komitəsini ləğv edib sədrini həbsə alır, amma biz bu komitənin "məsləhət"lərini dinləmək kimi şərəfsiz bir hala düşmüşük! Halbuki nə müharibə etmişik ki, basılmış olaq, nə də özümüzü o hala salmışıq ki, "məsləhətçi"lərə möhtac qalaq. Fəqət Rus Milli Komitəsinin bu sözləri bir o qədər "məsləhət" deyil, nə qədər ki, təhdiddir! Bizim "mehmannəvazlığımız" [qonaqpərvərliyimiz] və "nəvazişkarlığımız" yabançılar tərəfindən deyil ki, təqdir edilməyir, bəlkə bu xasiyyətlərimizi şüursuzluq və cəbunluğumuza [qorxaqlığımıza] isnad edib bizi hədələməyə və bizə "məsləhətamiz" təkliflər qəbul etdirmək təşəbbüsünə cəsarət edirlər...

Tələsmək, tələsmək lazımdır! Vəilla özgələrin bizi qabaqlamaq təhlükəsi əlamətləri görünməkdədir:

Səre çeşmə bayəd gereftən bebil,
Ço por şod nəbaşad qozəştən bepil!

Ümumi tədbir olaraq, biz özümüzü hücum qarşısında müdafiədə bulunmaq vəziyyətinə salmalıyıq. Bizə qarşı müxtəlif hücumlar hazırlanır. Bu vəqə – ki vüqu olacağı [gerçəkləşəcəyi] şübhəsizdir – qorxuludur. Lakin biz müdafiə və mühafizəyə hazır olsaq, o halda qorxu yoxdur.

"Əlaci vaqiə piş əz vüqu bayəd kərd" deyibdirlər. Özümüzü hər bir barədə müdafiə halına salıb bizimlə həmməslək olan həmcivar [həmsərhəd] qonşularımızla da möhkəm surətdə əlbir olmalıyıq. Türklüyümüzə məxsus cəsarətimiz və islamlığımıza müxtəss [xas] şücaətimiz düşmənlərimizə qarşı dağıdılmaz bir səngər hökmündə olduğu hər kəsə əyandır. Lakin içimiz və çölümüz dəxi texnik cəhətincə möhkəm olarsa, düşmənlərimiz səngərlərimizin qeyri-qabili-fəth [fəth edilməsi mümkün olmayan] bir halda olduğunu görüb də kor və peşman olub, ola bilsin ki, əbədilik bir surətdə bizdən əl çəkərlər.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Parisdə tətil**

Nəqliyyat işləri fəhlələrinin tətili davam edir. Elektrik istasyonu fəhlələri bir çox tələbat təqdim etmişlərdir. Tramvay saldatların mühafizəsi altında işləyir.

**Romaniyada bolşevizm hərəkatı**

Teleqrafların verdikləri xəbərlərə görə, Romaniyada bolşevizm hərəkatı artmaqdadır. Bir çox iğtişaşlar vaqe olmaqdadır. Hərəkat Bükreşdən başqa yerlərə sirayət etməkdədir. Kral və kraliça Yassıdan qaçmaq istəmişlərdir.

**Fransada fəhlə və saldat şuraları**

Parisdən xəbər verirlər ki, cənubi Fransada fəhlə və saldat şuraları gizlincə işləməyə başlamışlar. Marseldə və Lionda böyük nümayişlər olmuşdur.

**İngiltərədə tətil**

Londonda iki milyona qədər nəqliyyat, çörəkçi, maşinist və qeyri fəhlələrin tətili gözlənir.

**Bolşeviklərin nəfyi [sürgün edilməsi]**

Vyanadan verilən xəbərlərə görə, hərbi əsirlər işlərinə baxan rus heyəti hökumət məmurlarının təzyiqi altında Vyanadan əzimət etmişlər [getmişlər]. Bu axır vaxt məzkur [adı çəkilən] heyətin fəaliyyəti bolşevizm təşviqatından ibarət olmuşdur.

Müttəfiq dövlət komandanlarının tələbatı ilə heyət başçılarından bir neçələri Peştdə və Praqada həbs edilmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsi**

(Əvvəlinci beş maddə alınmamışdır)

6) Milli ordular milləti xətrədən [təhlükədən] saxlaya biləcək ən az miqdaradək endirməlidir.

7) İcra komitəsi kifayət qədəri və lazım olan miqdarda təslihat və ləvazimati-hərbiyyə [silah və hərbi sursat] qət və təyin etməlidir.

8) Hərbi və bəhri [donanmaya məxsus] məramnamə barəsində açıq surətdə məlumat mübadilə edilməlidir.

9) Cəmiyyəti-Əqvama məsləhət vermək üçün daimi bir komissiya təşkil edilməlidir.

10) Etilafa [uzlaşmaya] gəlmiş olan tərəflər məcburdurlar ki, Cəmiyyəti-Əqvam üzvlərini torpaq və siyasət cəhətindən hücumlardan müdafiə etsinlər.

11) Etilafa gəlmiş olan tərəflərdən birisini bilavasitə təhdid edən müharibə yaxud hərb təhlükəsi Cəmiyyəti-Əqvamda müzakirə ediləcək və Cəmiyyəti-Əqvam sülhü saxlamaq üçün lazım gələn tədbirlər ittixaz edəcəkdir [tədbirlər görəcəkdir].

12) Etilafa gəlmiş olan tərəflər şərt edirlər ki, onların arasında ixtilaf əmələ gələrsə və diplomasi təriqiylə [yoluyla] həll edilə bilməzsə, icra komitəsinə lazım gələn məlumatı vermədikdən və bu iş təhqiq edilmədən müharibə başlaya bilməz.

13) Etilafa gəlmiş olan tərəflər şərt edirlər ki, onların arasında ixtilaf əmələ gələrsə və diplomasi təriqiylə bu ixtilaf həll edilməzsə, bu məsələ həkəm [arbitr] məhkəməsinə verilməlidir. Həkəmlər tərəfeyn [tərəflərin] özü tərəfindən yaxud mövcud müahidə [saziş] üzrə seçilirlər.

14) İcra komitəsi Beynəlmiləl Tribunal təşkili barəsində plan hazırlayır və etilaf bağlayan tərəflər lazım gördüyü məsələləri bu tribunalın müzakirə və həllinə verirlər.

15) Həkəm məhkəməsinə verilməyən məsələlər İcra Komitəsinə verilərək orada həll edilirlər. Etilaf edən tərəflər Cəmiyyəti-Əqvam qərardadına əməl edən tərəflə müharibə etməməlidirlər. Hərgah bir tərəf Cəmiyyəti-Əqvam qərardadını icradan imtina edərsə, o zaman İcra Komitəsi bu qərardadın icrasına tədbirlər ittixaz edər.

16) Hərgah etilafa gələn tərəflərdən birisi bu layihənin 12-ci maddəsini xələldar edərsə, o zaman Cəmiyyəti-Əqvamın bütün üzvlərinə müharibə açmış hesab olur. Cəmiyyəti-Əqvam həman tərəflə münasibati-ticariyyə və maliyyəsini [mali və ticarət əlaqələrini] kəsər. Cəmiyyəti-Əqvam üzvlərinin müdafiədən ötrü hanginin nə kimi bəhri [donanma] və hərbi qüvvə qoyacaqlarını İcra Komitəsi təyin edər.

17) Cəmiyyəti-Əqvama daxil olan dövlətlə qeyri-üzv olan dövlət arasında, yaxud Cəmiyyəti-Əqvama daxil olmayan iki dövlət arasında ixtilaf əmələ gələrsə, Cəmiyyəti-Əqvama daxil olmayan dövlətlər bu cür ixtilafların Cəmiyyəti-Əqvamda həllini qəbul etməli və qərarlarına tabe olmalıdır. Cəmiyyəti-Əqvam məramına müxalifət edən tərəflə münasibati-maliyyə və ticariyyə kəsiləcəkdir.

18) Ümumun mənafeyini tələb edən yerlərdə silah və ləvazimati-hərbiyyə satışı işlərini Cəmiyyəti-Əqvam kontrol edəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Dağıstan Cümhuriyyətində**

Teymurxanşura müxbirimiz yazır ki, inquş xalqının nümayəndəsi və Dağıstan Hökuməti tərəfindən inquş və çeçen xalqından ibarət təşkil edilmiş başıpozuq atlı dəstəsi Teymurxanşuraya varid olub, inquş nümayəndəsi İnquşistan barəsində başıpozuq atlı dəstəsi tərəfindən Vladiqafqazın alınması haqqında böylə bəyanat vermişlərdir:

*"Verilən məlumata görə, Vladiqafqaz şəhəri inadlı müharibədən sonra, başıpozuq dəstəsi tərəfindən işğal edilmişdir. Bolşeviklər pərakəndə edilib Qırmızı ordu əsgərlərinin demək olar ki, hamısı əsir olmaqla bərabər, silahları əllərindən alınmışdır. Bolşevik başçıları həbs edilmişlərdir. Başıpozuq dəstəsinin əlinə bir çox mühimmati-hərbiyyə [hərbi ləvazimat] keçmişdir."*

Dağıstan Hökumətinin nizami əsgərləri Qroznıya daxil olmuşlardır. Verilən məlumatda general Denikinin hərəkətləri anlaşılmaz bir surətdədir. Vladiqafqaz şəhəri başıpozuq dəstəsi tərəfindən işğal edildikdən sonra, general Denikin öz elçisi vasitəsilə inquş xalqına ultimatum göndərmişdir. Bu ultimatuma cavab verilmək üçün iki saat vaxt verilmişdir. Denikinə böylə bir cavab göndərilmişdir:

*"Biz Dağıstan Cümhuriyyəti vətəndaşları öz hökumətimizin binagüzarlığına [sərəncamına] görə Müttəfiqlərlə əqd edilən şərait mövcibincə [imzalanan şərtlərə görə] sizinlə münasibat [əlaqələr] bərpa edilməsindən ötrü bolşevikləri çıxarıb qovduq. Hökumətimiz tərəfindən binagüzarlıq almayana qədər sizi öz torpağımıza buraxmayaraq sizdən xahiş edirik ki, işğal etdiyiniz cəbhə xəttində dayanasınız."*

Denikin tərəfindən buna böylə cavab göndərilmişdir:

*"Mən heç bir cümhuriyyət-zad tanımıram. Mən vahid Rusiya tərəfdarıyam. Mənim tələbatımı əmələ gətirmək üçün sizə 10 dəqiqə vaxt verirəm."*

Yenə Denikinə böylə cavab göndərilmişdir:

*"Biz bilaşərtü qeyd [qeydsiz-şərtsiz] öz hökumətimizə tabeyiz. Bizi boğub dağlara qovan və bizi ancaq qul hesab edən köhnə Rusiya fikrində olduğunuza görə, bir inquş diri qalana qədər sizi öz yanımıza buraxmarıq. Qul olmaqdan ölüm yaxşıdır. Qoy, Müttəfiqlər qarşısında müharibə hərəkatının məsuliyyəti sizin öhdənizə düşsün."*

Bu cavabdan sonra Denikin müharibə hərəkatı başlamışdır. Denikin əsgərləri üç dəfə Kantışevo və Dolakov kəndlərinə hücum etmişlərsə də, qüvvətli əks-hücumla pərakəndə edilib geri qaytarılmışlardır. Nümayəndənin dediyinə görə, hal-hazırda cəbhə xətti Vayenni-Qruzinski yol [Hərbi Gürcüstan yolu] ilə Popov kəndindən başlayıb Axuşkov[o], Bazorkino, Kantışevo, Dolakov, Keskemə qədər uzanır.

Nümayəndə deyir ki, qorxuruq Müttəfiqlər bizim öz əlimizlə bizim boynumuza qul zəncirini keçirsinlər. Biz Müttəfiqlərin tələbatını müvəffəqiyyətli bir surətdə əmələ gətirib Denikinlə münasibat bərpa etdik. Denikin ordusunda Dağıstan Cümhuriyyətinin oğulları iştirak etdiyinə görə, Denikin Proxladnı altında qalib gəldi. Hərgah, Denikin özü qüvvətli olsaydı bir ay bundan əvvəl bolşeviklərə qalib gələrdi. Lakin, gücu yox idi. Biz Müttəfiq komandanlığı tələbatının hər bir maddəsinə əməl etmişik. İndi isə növbət Denikinindir.

* 8 nəfərdən ibarət Parlaman heyəti Parlaman sədri ilə bərabər sürət qatarı ilə Vladiqafqaza azim olmuşlardır [yola düşmüşlər]. Ümid var ki, bu ixtilaf Müttəfiqlərin köməyi ilə bərtərəf edilsin [aradan qaldırılsın].

**Dağıstan və Könüllü ordu**

* Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökuməti nümayəndəsinin dəftərxanasından xəbər verirlər ki, Dağıstan Hökumətinin Qafqaziyada olan Müttəfiq dövlət komandanlığı tərəfindən təsdiq edilmiş tələbatına görə, Könüllü ordu dəstələrinin hamısı Dağıstan məmləkəti dairəsindən çıxarılmalıdırlar. Dağıstan Hökuməti inquşların Dağıstan Hökuməti binagüzarlıqlarına [sərəncamlarına] tabe olmaları əmrini vermişdir. Dağıstan Hökuməti nümayəndələri fevralın 9-unda Vladiqafqaza azim olmuşlardır [yola düşmüşlər]. İnquşlar tərəfindən tutulmuş olan Tersk komissarları Dağıstan Hökumətinin tələbatına görə qaytarılmalıdırlar.

* Qafqaziyada olan Müttəfiq dövlət baş komandanlığı tərəfindən ciddi surətdə müdafiə edilən Dağıstan Hökumətinin tələbatına görə, Könüllü ordu dəstələri Dağıstan dairəsini boşaltmaqdadırlar.

* Fevralın 12-sində axşam xətti-müstəqim ilə [birbaşa] Kazbekdən xəbər verirlər ki, Vladiqafqaz şəhəri fevralın 10-unda Könüllü ordu tərəfindən zəbt edilmişdir. Nazran nahiyə inquşları ilə Könüllü ordu arasında saziş hüsula gəlmişdir. Fəqət bu saziş Könüllü ordu tərəfindən inquş xalqına verilən ultimatum tələbatı əsasında olmamışdır. İnquşlar öz yerlərinə çəkilmişlərdir.

**Türkiyədə**

Cenevədən xəbər verirlər ki, bu yaxınlarda Cenevədə Türk hürriyyətpərvərləri [liberalları] iclasında sədarət [sədrlik] edən Şərif paşa Müttəfiq dövlət siyasi dairələrində bu aşağıdakı tələbatı müdafiə etmək üçün Parisə əzimət etmişdir:

1) Türkiyə Hökumətinin paytaxtı İstanbul ilə bərabər özündə saxlanması, etnoqrafi cəhətdən əksəriyyət türklərdə olan hamı mübahisəli əyalətlərin ... məmləkət cümləsinə daxil edilməsi.

2) Türkiyənin salamatlığını və hökmranlığını bərpa etməkdən ötrü Rəisi-cümhur Vilsonun məramnaməsinin 2-nci maddəsinin tətbiq edilməsi.

3) Türkiyədə məskun əqəliyyət [azlıq] təşkil edən yerlərə təminat bəxşişi.

Şərif paşa Parisə varid olan [çatan] kimi bir neçə nüfuzlu şəxslərlə və həmçinin Sülh Konfransında olan müəzzəm [böyük] dövlət nümayəndələri ilə görüşməyə müvəffəq olmuşdur.

**İstanbulda həbslər ətrafında**

"İttihad-Tərəqqi" firqəsinə yaxın olan bir çox zatların [şəxslərin] həbs edilmələri İstanbula artıq sui-təsir bağışlayıb. Bütün qəzetələr tərəfindən bu məsələ müzakirə edilməkdədir. Daxiliyyə naziri İzzət bəy bəyan eyləyir ki, məhbuslar məhkəmədə mühakimə edilənədək həbsdə qalacaqlardır.

* Ermənistan nümayəndələri İstanbulda fransız lisanında bir qəzetə nəşr edirlər. Bu qəzetə Gürcüstan və Azərbaycan əleyhinə ciddi təbliğat icra edir.

**Rusiyada**

* Helsinqforsdan [Helsinkidən] verilən teleqraf xəbərlərinə görə, Petroqradda təzə iğtişaşlar başlanmışdır. Bir çox tətillər elan edilmişdir. Hərbi zavodlar işləməyirlər. Nümayişlər silah gücü ilə pərakəndə edilmişlər. Camaat dəstəsi Smolnını zəbt etmək istəmişsə də, Latış dəstəsinin atəşi ilə qovulmuşdur. Bir çox adamlar həbs edilmişdir.

* Londondan xəbər verirlər ki, Arxangelskdə əməliyyatda bulunan ordu, bolşevikləri Şenkurskdan çıxarıb şəhəri zəbt eyləmişlərdir.

* Etkandan cənub-şərqə tərəf Vilno [Vilnüs] yolunda Litva əsgərləri bolşevikləri geri atmışlardır. Vilno üzərinə edilən hücum müvəffəqiyyətli bir surətdə davam edir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin Salyan qışlaları (kazarma) təmiratı üçün 585690 rubləlik istiqraz açmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan Daxiliyyə Nəzarətinə Salyan qışlaları təmiri üçün peşin olaraq 500 min rublə buraxılsın. Nazirə tapşırılsın ki, böylə qanun layihəsi Məclisi-Məbusana təsdiqdən ötrü idxal edilsin.

- Rəisi-vükəla [Baş nazir] həzrətlərinin piyada qitəatın [hissələrin] türkcə komanda edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Rəisi-vükəla tərəfindən təqdim edilən türkcə komandanı təsdiq etməli.

- Rəisi-vükəlanın hökumətin adi iclasları təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumətin adi iclasları düşənbə [bazar ertəsi], çaharşənbə [çərşənbə] günlərində axşam saat 7-də, cümə günü isə səhər saat 11-də iniqad edəcəkdir [başlayacaqdır].

- Rəisi-vükəlanın Mavərayi-Bəhri-Xəzər Hökuməti tərəfindən müzakirata girişmək haqqında aldığı məlumatı dinlədikdən sonra qət edilmişdir:

Mavərayi-Bəhri-Xəzər Hökuməti tərəfindən qaldırılan məsələlər üçün müzakirata girişilməsi əsas etibarı ilə müxalif bir şey olmadığına görə, onlarla müzakirata girişilsin. Fəqət nazirlərə tapşırılsın, müzakirat barəsində Vükəla Şurasına məlumat versinlər.

- Maarif nazirinin fəqir mütəallimlərə [kasıb tələbələrə] maaş vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif Nəzarətinə tapşırılsın, xəsarətdidə [zərərçəkən] qulluqçulara verilmək üçün və buraxılan istiqrazdan ehtiyac miqdarında fəqir şagirdlərə birdəfəlik olaraq maaş verilsin. Fəqət veriləcək maaş təfrit [minimal] dərəcədə olmalıdır.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 fevral (Cümə axşamı günü) tarixli 118-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Gürcüstanla dəmiryolu etilafı [razılaşması] barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Nazir tərəfindən pişnihad [təqdim] edilən layihəni təsvib etməklə [bəyənməklə] tapşırılsın ki, layihəni Ədliyyə komisyonundan keçirərək təsdiqdən ötrü Vükəla Şurasına idxal etsin.

## İRTİCA HÜCUMLARI

Rusiyada mübariz hökumətlər arasında ən qorxunc və mürtəce bir həyula olan Denikinin ordusudur. Bu ordu ki, noyabr demokrat inqilabı ilə tərd [qovulmuş], dəf edilmiş və inqilabdan da, demokratiyadan da ruyi-əbus [pis üz] görmüş, narazı qalan müstəbid və mürtəcelərdən törəmişdir.

O ordu ki, liberal Kuban hökuməti ilə belə anlaşammamış və hali-hərbə [müharibəyə] girmişdir.

İştə şimdi bu ordu sabiq Rusiyanın bugünkü müstəqil və hürr demokratiyasına qarşı düşmənçilik, fitnə və fəsadçılığa başlayaraq həm demokratiyanı, həm də demokratiyanın qanı, malı bahasına əldə edilmiş istiqlal və hürriyyəti yıxmaq, qoparmaq qövl və feilinə [söz və əməlinə] meydan bulmuşdur.

Denikin Könüllülər ordusu hücuma bir tərəfdən Şimali Qafqaziyadan, digər tərəfdən də Qərbi Qafqaziyanın Gürcüstana tabe Soçi [şəhərin]dən başlamışdır.

Daha bu ordu Soçiyə bəzi qitəatı [birlikləri] ilə daxil olduğu zaman Soçi demokratiyası əndişəyə düşərək Gürcüstan Hökumətindən, ingilis qüvayi-əsgəriyyəsindən [hərbi qüvvələrindən] imdad tələb etmişdi. Gürcüstan Hökuməti nəzdində bulunan ingilis misyonu [missiyası] Könüllülər ordusuna Gürcüstana qarşı hücum və təcavüz etməyə əsla müsaidə edilməyəcəyini bəyan və təmin edərək cavab vermişsə də, iki-üç gündən bəri alınan xəbərlərin bunun əksinə olduğu görülmüşdür. Bu vəqə Qafqaziyanın cümhuri hökumətləri namına [adına] şayani-əhəmiyyət və diqqətdir [əhəmiyyətə və diqqətə layiqdir].

İngilis misyonlarının Qafqaziya cümhuriyyətlərinə verdikləri bəyanat və təminat Denikinlər üçün əhəmiyyətsiz qalmaqdadır. Çünki ingilislərdən bunlar silah, ərzaq, paltar almaqla ingilis planı, ingilis tərzi-hərəkətini də alıb öyrənmədilər.

Denikin ordusunun Qafqaziyada işsiz və boş keçinən agentləri Gürcüstanda, Ermənistan və Azərbaycanda və Qərbi Qafqaziyada nələr etmək istəməyirlər?

İngilis qüvayi-əsgəriyyəsinin daha Qafqaziyaya ilk addımı ilə Gürcüstan və Ermənistan arasında müharibə və müxasimənin [düşmənçiliyin] başlamasına daşnaklarla bu güruhun səbəbiyyət vermədiyini kim iddia edə bilər?

Batum, Qars və Ərdahandakı vəziyyəti də bir dəfə mütaliə edəlim [qiymətləndirəlim]! Qarsda erməni, Batumda rus mürtəcelər hökumətinin təşkilinə vəsilə olan əllər həp bildiyimiz o yadigarlar [ədəbsizlər] deyilmidirlər?

Qars oblastı 330 000 islam əhalidən ibarət olduğu və Batum oblastı 130 000 müsəlman əksəriyyətini təşkil etdiyi halda, hüquqi-ümumiyyəyə süni bir xətti-bütlan çizərək [ümumi hüququn üstündən süni bir xətt çəkərək, ümumi hüququ tanımayaraq] iki müxtəlif hökumətin təşkili də irtica əlamətlərinin bariz birər nümunəsidir. Macəracu [avantürist] professor Qolovinin Batumda girişib də müvəffəqiyyətsizliyə uğradığı plan və nəhayət, ingilis hakimiyyəti tərəfindən də düçari-həbs olması yenə o qaranlıq məqsədlərin birər təzahüratıdır. Denikin macərapərəstləri nə isə, Qolovinlərin də o ki, Qafqaziyada yaşayan millətlər arasına qurnazlıqla bir fitnə və fəsad soxmaq, bulanıq suda balıq ovlamaqdır. Qərbi Zaqafqaziyada digər tərəfdən də bəzi macəracu əllərin gürcülər və islamlar arasında toqquşmağa səbəbiyyət verdiklərini də görürüz. Batumun şimal-şərqi cəhətində bulunan Pontxo və Axalsıxda vuruşmalar başladı. Gürcülər Axalsıx xaini-vətənlərinə [vətən xainlərinə] (?!) qarşı hərb gurultusu ilə ortaya çıxır və könüllü əsgər və zabitlər yığışdırırlar! Türkiyə Hökuməti tərəfindən Batum müahidəsi [sazişi] ilə ilhaq edilən Axalsıx uyezdi yenə Türkiyə Hökuməti tərəfindən altı ay əvvəl gürcülərə tərk edildikdən sonra burada xaini-vətən deyə məhəlli islamlara [yerli müsəlmanlara] qarşı bir siyasət oyunu oynamaq və bunun amil və müsəbbibləri [icraçıları və səbəbkarları] olaraq camaat xadimlərini Metex həbsxanasında çürütmək gürcü demokratiyası, gürcü hürriyyətpərvərləri üçün nə eyib şey və bəlkə də mürtəcelərə bilmədən uymaqdır!

Bütün bu əhval irtica hücumları nəticəsidir. Fəqət digər tərəfdən Qafqaziya millətləri üçün də mövcibi-ibrətdir [ibrət alınmalı şeydir]. İbrətdir, çünki görürüz ki, milli və ərazi ixtilafları çıxarmaqla Qafqaziya millət və ərazisi ilə heç bir əlaqəsi bulunmayan kimsələr istifadə edirlər.

Soçidə milli bir dairədə ixtilaf çıxmışdı: gürcülər və ermənilər arasında bir təhrikat başlamış və bu təhrikat vuruşmağa qədər dayanmışdır [çatmışdır]. Nəticədə isə denikinlər müdaxilə edərək Gürcüstana bir ultimatumla hərb [elan] edilmişdir.

Hökumətimizin Qafqaziyada törəyən bu ümumi vəziyyət haqqında nə yolda tədabirə [tədbirlərə] girişdiyini bilməyiriz. Ancaq bu əhvalın Azərbaycan Cümhuriyyətinə təsiri bulunduğunu və hökumətcə lazım gələn tədbirlərin alınması cümhuriyyətin ciddi mənafeyindən olduğunu görürüz.

*Qaraağazadə Əhməd Həmdi*

## MƏTBUAT

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi mərkəzi komitəsinin mürəvvici-əfkarı [nəşriyyat orqanı] olmaq üzrə "Naş put" adlı rusca yeni bir qəzetə intişara [nəşrə] başlamışdır. Qəzetə birinci nömrəsində firqənin sağdan və soldan hücumlara məruz qaldığını və bunun əksəriyyən firqə məsləkindən bixəbərlikdən nəşət etidiyini [irəli gəldiyini] və istibdad dövründəki "mütəəssib müsəlmanlar" sözünün şimdi də "əksinqilabçı müsavatçılar" sözünə mübəddəl olaraq [çevrilərək] firqənin hər bir təşəbbüsü, amali-milliyyə [milli amal] yolunda hər bir qədəmi hücumlarla qarşılandığını qeydlə yazır ki, xalqın hüququnu tanımaq istəməyənlər, həyati məsləklərə təcavüz edənlər, Azərbaycan həyatında böyük dəhşətlər saçanlar məqsədlərini ancaq dağıtmaqda görürlər. Biz isə tam hazır olaraq, istiqlalımızın, demokratiyamızın mənafeyi keşiyində durmuşuz və dururuz.

Sonra firqənin nə uğurda və nə surətlə çalışacağını göstərərək, ümum demokratiya ilə əlbir gedəcəyini təsvir edir, deyir ki:

*"Bir an geri durmadan firqə proqramımızda elan edilmiş əsasların həyata tətbiqi və həqiqət olaraq çıxmasına çalışar, hürriyyət və azadlığımızı zəncirləyən zəncirlərdən bizi xilas etmiş cahan inqilabı fütuhatının [nailiyyətlərinin] möhkəmləşməsinə səy edərkən, biz hamıdan əvvəl xətti-hüdudumuz [sərhədimiz] xaricindəki dost məmləkətlərdə onların bizimlə bərabər istibdad boyunduruğu altında bulunmuş və bizimlə bərabər istiqlala qoşmuş demokratiyası arasında dostlar, yoldaşlar arayacağız. Amalımızın feilən hüsulunda [əmələ gəlməsində] biz Rusiya inqilabının elan etmiş olduğu şüarların qalib gələcəyinə heç şübhə etməyərək, rus demokratiyasının yaxşı qismi ilə sıxı yoldaşlıqla da kəndimizi təqviyə edəcəyiz [gücləndirəcəyik]."*

Qəzetədə milli həyata aid bir neçə sair məqalələr dəxi vardır. Ümumiyyətlə, məzkur [adı çəkilən] qəzetə çox zəngin və səliqəli çıxmışdır. Yeni rəfiqimizi təbrik və müvəffəq olmasını arzu edəriz.

## BAKI XƏBƏRLƏRİ

**"Müsavat" əzalarının nəzəri-diqqətinə**

Bu gün axşam saat 6-da Məclisi-Məbusan binasında, fraksiyon mənzilində "Müsavat" fraksiyonunun iclası təyin olunmuşdur. Bütün fraksiya əzasının [üzvlərinin] vaxtında hazır olmaları rica olunur.

**İcbari qərardad**

Bakıda müsri [yoluxucu] xəstəliklərlə mübarizə edən şura tərəfindən sadir olub [verilib], Bakı şəhəri və ətrafında əhalini həmin xəstəlikdən qorumaq üçün tərtib və təsdiq edilmişdir:

1) Zibilləri küçəyə tullamaqdan ötrü əvvəlcə verilmiş olan binagüzarlıq [sərəncam] bununla ləğv edilir.

2) Həyətlərdən küçəyə zibil tullamaq qəti surətdə qadağan olunur.

3) Dvorniklər [dalandarlar] hər gün iki dəfə, axşam və səhər küçələri süpürüb təmizləməli və cəm etdikləri zibili bir yerə yığıb toplamalıdırlar.

4) Həyətləri təmiz saxlamalıdır.

5) Həmin qərardadı pozan ev sahibləri, evlər və anbarların icarədarları, fabrika, zavod və mədən müdirləri 5 fevral 1919-cu ildə Bakıda müsri xəstəliklərlə mübarizə edən şura tərəfindən verilmiş qərardad mövcibincə [qərardada əsasən] cərimə ediləcəkdirlər.

Həmin qərardad sadir olan gündən 1919-cu il 18 fevraldan qanun gücü alır.

**Səhiyyə işləri**

Fevralın 18-ində Bakı qubernatorunun təhti-sədarətində vaqe olan [sədrliyi altında baş tutan] şurada şəhərin nəhayət dərəcədə natəmiz olduğunu və bundan sonra havalar istiləşdiyindən müsri xəstəliklərin şiddət edəcək ehtimalı nəzərə alınaraq böylə qərardad edilmişdir:

Bələdiyyə İdarəsi ilə bərabər, şəhərin təmizlənməsinə ciddi surətdə əhəmiyyət verilib küçələrin və həyətlərin təmizlənməsindən ötrü lazımi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

Şurada iştirak etmiş olan şəhər nümayəndəsinin dediyinə nəzərən, şəhər arabaları üçün indi at tapmaq mümkün olmayacaqdır və buna görə də başqa yerlərdən at axtarmaq lazım gələcəkdir. Qubernator təklif etmişdir ki, at almaqdan ötrü qəzalara müraciət etməlidir. Şura həmin təklifi qəbul edərək qərar qoymuşdur ki, Şamaxı qəzasından 10 və Quba qəzasından 20 və Göyçay qəzasından 15, cümlətanı 60 rəs [baş] at alınsın. Qubernator tərəfindən bu barədə qəza qaimməqamlarına [qəza rəislərinə] telefon vasitəsilə binagüzarlıq edilmişdir [sərəncam verilmişdir].

**Odun**

Mərkəzi Ev Komitəsi tərəfindən camaat və dövlət müəssisələrinə və həmçinin xüsusi şəxslərə Çornı qorodda anbarda sajeni 1500 manatdan odun buraxılır. Xüsusi şəxslərə yarım sajendən artıq buraxılmayır. İstəyənlər Çelyayevski küçədə Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsinə müraciət etsinlər.

**Ucuz çörək**

- Mərkəzi Ev Komitəsi ümum əhaliyə elan edir ki, çörəyin qiyməti artmayacaq və biləks [əksinə], sifariş olunmuş taxıl və qeyri ərzaq şeylərini təhvil aldıqda qiymətləri daha da əksiləcəkdir. Şəhərlər İttifaqının çörəkçixanalarını öz ixtiyarına alana qədər hər adama 5 girvənkə miqdarında buraxılacaqdır (ağ çörək 4 manat, qara çörək 2 manat 75 qəpik).

- Mərkəzi Ev Komitəsi camaatdan rica edir ki, çörəyi alıb baha qiymətə satmaq sui-istemalını [sui-istifadəsini] kəşf etdikdə [gördükdə], Komitəyə məlum etsinlər. Böylə hərəkətdə bulunanlar təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqlardır.

**İclas**

Cümə günü 21 fevralda saat 5-də Birinci Realnı məktəbin binasında müsəlman student və kursis[t]kalarının [oğlan və qız tələbələrinin] ümumi iclası təyin edilmişdir. Təvəqqe olunur ki, məsələ son dərəcə mühüm olduğuna görə üzvlər təxir etməsinlər.

**Hadisat**

- Fevralın 15-ində, gündüz saat 12 radələrində Qanlıtəpə və Remeslenni küçələrin küncündə bir nəfər yaralanmış naməlum şəxs tapılmışdır. Yaralı Mixaylov xəstəxanasına göndərilib və canini axtarmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Təhqiqat davam edir.

- Fevralın 14-ündə Üçüncü Çornıqorod və Zavodski küçələrin küncündə naməlum bir şəxsin meyiti tapılmışdır. Güclə öldürmək əlaməti yoxdur. Təhqiqat davam edir.

- Fevralın 15-ində gecə naməlum bədəfkarlar [canilər] Milyutinski küçədə 3 nömrəli evdə Tağızadənin pambıqtəmizləyən zavodunda kantorun qıfılını sındırıb qonşudakı Aleksandr Stepanovun mağazasına keçib 100 000 manatlıq bez malı oğurlamışlardır. Oğurlanan malı və bədəfkarları axtarmaqdan ötrü ciddi tədbirlər ittixaz edilmişdir.

**Şimali Qafqaziya dəmiryolu**

Xəbər verildiyi üzrə, Şimali Qafqaziya dəmiryolu açılıb bir qatar dəxi yola düşmüşdür.

**Bələdiyyə İdarəsində**

* Şəhərlər İttifaqından Ərzaq Nəzarətinə keçmiş şəhər çörəkçi dükanları Bələdiyyə İdarəsinə verilmişdir. Bələdiyyə İdarəsi hal-hazırda Mərkəzi Ev Komitəsi ilə müzakirata girişmişdir ki, çörəkçi dükanlarını ona versin. Bələdiyyə İdarəsi bələdiyyə müəssisələrinə çörək verilmək üçün çalışmaqdadır.

* Bələdiyyə İdarəsində şəhərdə konkalar hərəkatının təcdidi [bərpası] haqqında bir fikir oyanmışdır. Bələdiyyə rəisi Bələdiyyə İdarəsi katibinə tapşırmışdır ki, bu xüsusda lazımi materialları cəm və təqdim etsin.

* Konka parkı texniki, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, orada qoşun nəfərləri [əsgərlər] konka materiallarını oğurlamaqda davam edirlər. Bələdiyyə rəisi general Prjevalskiyə müraciətən böylə hərəkatın önünü[n] alınması barəsində lazımi iqdamatda bulunmasını [addımlar atmasını] rica etmişdir.

## BAKI MÜSƏLMAN AKTYORLARI İTTİFAQINDA

Fevralın 18-ində Hacıağa Abbasov cənablarının təhti-sədarətində [sədrliyi altında] "Bakı Müsəlman Aktyorları İttifaqı"nın ümumi iclası vaqe olmuşdur.

Aktyorlar İttifaqı sədri Abbas Şərifov ittifaqın keçən illərdəki fəaliyyətindən müfəssəl surətdə bəyanat verib, Mart hadiseyi-əliməsindəki [faciəli Mart hadisələrindəki] Aktyorlar İttifaqı idarəsinin hər bir əmvalının [mallarının] Cəmiyyəti-Xeyriyyə mülkündə sair təşkilatlarla bərabər yanıb məhv olmasını və İttifaq kassasında olan paradan müavinət təriqi ilə [müavinət kimi] verilmiş 759 manat 68 qəpiyin İttifaq üzvlərində olduğunu söyləmişdir. Bundan əlavə, Aktyorlar İttifaqının xəzinədarı mərhum Hacınskidə 638 manat nəğd para qaldığını iclasa xəbər vermişdir. Sonra Aktyorlar İttifaqının aktyorlardan ötrü mənfəətli olduğunu bəyanla 1917-ci ildə bir illik müddətinə intixab olunmuş [seçilmiş] şəxslərin müddəti-intixabı 1918-ci il noyabr ayında bitdiyindən, onların əvəzinə təzə adamlar intixabını təklif etmişdir.

Şərifovun bu bəyanatından sonra iclas İttifaq üzvlərinə müavinət təriqi ilə verilən paraların alınmasını və mərhum Hacınskidə qalan paranın mərhumun dəfn-kəfnində xərc edildiyi üçün geri alınmamasını qərara almışdır. Sonra seçki başlanıb zeyldəki [aşağıdakı] şəxslər intixab edilmişdir:

Sədrliyə Abbas Şərifov, müavin Hacıağa Abbasov, xəzinədar Müslüm bəy Maqomayev, katib Məhəmmədəli Sidqi, idarəyə Sarablı, Ərəbli, Darablı, [İbrahim] Atakişizadə və Xanım Tanailidi.

Bunlara namizəd Əhməd Ağdamski, Camal Paşazadə, Məğfurə xanım və Qəmər xanım.

Təftiş komissiyasına Xəlil Hüseynov, Ələkbər Səhəbli, Sadiqbəyov. Onlara namizəd: Kazımovski və Sürəyya xanım.

Sonra ümumi iclas qərar qoymuşdur ki, heyəti-idarə Aktyorlar İttifaqının məramnaməsini bir qədər təshih etdikdən sonra dübarə ümumi iclasa təqdim etsin.

## KOOPERATİV NƏ OLDU?

Hərbin insana bəxş etdiyi yadigarlıqlardan [yaramazlıqlardan] biri də bahalıq idi. İştə bunun qarşısını almaq üçün Yevropada olduğu kimi, bizim də vilayətdə kooperativ sistemi moda düşdü. Deməki, bahalığa qarşı bir növ sədd çəkmək istədilər. Cüzi də olsa müvəffəq oldular. Lakin burada hər kəs öz "ocağı" başına yığıldığı üçün kim ki, təşkil olunan kooperativə yaxın idi, iştə o daha çox fayda apardı və aparır nəinki üzvlər, alıcılar...

İştə, Dağlı məhəlləsinin bir qaç nəfər qeydkeşləri heçdənsə gec də olsa deyərək 17-nci sənəsi oktyabr ayında Dağlı məhəlləsində "Dağlılar" adında bir camaat dükanı açmaq üçün icazə aldılar. Fəqir Dağlı camaatı ucuz mal alacaq deyə ufaq bir Dağlı məhəlləsində səkkiz min manata qədər para topladılar.

Tühəf burası idi ki, bahalıqdan cana gəlmiş Dağlı camaatı ucuz mal almaq həvəsi ilə qonşudan geri qalmayım deyə pulu olmayan da müamilə [faiz] ilə pul borc eyləyib dükana üzv olmağa çalışırdı. Fəqət bu qədər həvəslə açılmış camaat dükanı bir neçə nəfər tamahkarın qurbanı olaraq bir ildən artıq yaşaya bilmədi. Əlbət ki, yaşaya da bilməzdi. Çünki, camaat dükanı namına [adına] alınan ərzaq özlərini heyəti-idarə içinə soxmuş bir qaç kişinin mərifəti ilə [əli ilə] bazardan yuxarı gəlməyib, oralarda yerləşdirilirdi və bir qədərdən sonra bazar məzənnəsi ilə ağır bahaya satılıb öz aralarında təqsim olunurdu [bölünürdü].

Əlavə bunu da ərz edəyim ki, mənim heç bir kəslə qərəzi-şəxsim və ya ədavətim olmayıb və olmamışdır. Fəqət məni işbu həqiqətləri söyləməyə məcbur edən yalnız zavallı Dağlı camaatının ah-naləsi, borc edib həman dükana qoyduğu paranı bu vaxta qədər ala bilməməsi olmuşdur.

Ah, həpsi ala bilməsəydi yenə də dərd yarı idi. Lakin təsir edəcək burasıdır ki, kim ki, zorlu, əqrəbalıdır, o, manata-manat faydası ilə qabaqca almış idi. Amma borc edib üzv olanlar parasını almaq üçün kimə müraciət edəcəyini bilməyir. Nasıl da müraciət etsin ki, zavallı danışarsa, ağzını qanı ilə dolu görəcəyini yəqin etmişdir.

*Dağlı*

## GÜRCÜSTANDA

**Gürcüstan Hökumətinin Baş ərkani-hərbindən [Baş qərargahından]**

Qara dəniz sahilində İngiltərə komandanlığı vəsatəti [vasitəçiliyi] ilə hər iki tərəfdən müharibə hərəkatı dayandırılmışdır. Bizim əsgərlərimiz Bambi çayında dayanmışlar.

Axıska uyezdində [qəzasında] fevralın 11-də bizim əsgərlərimiz üsyan edən əhalinin külli qüvvəsinin təzyiqi ilə və arxadan müsəlman kəndləri tərəfindən mühasirəyə salınmaq təhdidi ilə geri çəkilməyə məcbur olmuşlardır. Axıska şəhəri camaat tərəfindən işğal edilmişdir.

**Gürcüstan Parlamanının iclası**

Fevralın 18-ində Gürcüstan Parlamanının fövqəladə iclası dəvət edilmişdir. İclas fövqəladə siyasi məsələləri müzakirə edəcəkdir.

**Rus Milli Şurasında**

Tiflisdə olan Rus Milli Şurası müvəqqəti qapanmışdır.

**Dağıstan Hökuməti rəisi**

Dağıstan Hökuməti rəisinin bu günlərdə Tiflisə vürudu [gəlməsi] gözlənir.

**Həbslər**

Gürcüstan Hökuməti məmurlarının binagüzarlığı ilə podpolkovnik Şneyderman həbs edilmişdir.

**Potidə ingilis zabiti**

Potidən Suxuma gürcü əsgəri dəstələrinin göndərilməsi haqqında Potidə olan gürcü məmurlarının verdiyi binagüzarlığa [sərəncama] İngiltərə zabitinin müdaxilə etməsi münasibətilə Gürcüstan Xariciyyə naziri xəbər verir ki, bu ixtilaf bilkülliyyə [tamamilə] bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Tiflisdə olan İngiltərə heyəti İngiltərə zabitinin bu hərəkətindən xəbərdar olan kimi, gürcü əsgərlərinə mane olmamaq və bundan belə gürcü məmurlarının binagüzarlığına müdaxilə etməmək əmrini vermişdir.

**Həbslər**

Tiflisdə olan general Maksimov, Kozlovski və praporşik Tunqusov həbs edilib Metex qalasına salınmışlardır.

**Borçalı uyezdinə komissar təyini**

Xüsusi vəkalətlə A. F. Apakidze Borçalı uyezdinə komissar təyin edilmişdir. Bu münasibətlə Tiflis general-qubernatorunun əmrinə görə, Borçalı uyezdi və ətrafı məhəlli [yerli] idarəyə münasibəti olan məsələlər haqqında bilavasitə komissar Apakidzeyə müraciət etməlidir.

**Gürcüstan və Könüllü ordu**
**Gürcüstan Hökumətinin şəraiti [şərtləri]**

Sülh şəraiti hazırlamaqdan ötrü İngiltərə zabiti Qara dəniz sahilində hərəkati-hərbiyyənin dayandırılması təklifini etmişdir. Gürcüstan Hökuməti məhəllində [yerində] olan gürcü məmurlarına xəbər vermişdir ki, Gürcüstan Hökumətindən ötrü ancaq bu tövr şərait əlverişli ola bilər:

Soçi nahiyəsinin Könüllü ordu tərəfindən təmizlənməsi və məzkur [adı çəkilən] nahiyənin müqəddəratı Sülh Konfransında həll edilənə qədər İngiltərə əsgərləri tərəfindən zəbt edilib bitərəf bir məntəqə halına salınması. Gürcü əsgərləri Qaqra şimalında Gürcüstanın təbii sərhədini işğal edəcəklərdir.

**Biçeraxov dəstəsi**

Gürcüstan Xariciyyə nazirinin sualına cavab olaraq Cənubi Qafqaziyada olan İngiltərə əsgərləri komandanı Xariciyyə nazirinə xəbər vermişdir ki, hal-hazırda Bakıdan gələn Biçeraxov dəstəsi Gürcüstanla Könüllü ordu arasında müharibə hərəkatı rəf edilənə [aradan qaldırılana] qədər Batumda saxlanacaqdır. Biçeraxov dəstəsi Gürcüstan əleyhinə müharibə hərəkatında iştirak etməyəcəkdir. Soçidə olan Gürcüstan hökumətinin ərzaq şeyləri və ya mühimmati-hərbiyyəsi [hərbi ləvazimatı] Könüllü ordu tərəfindən zəbt edildiyi təqdirdə, Biçeraxov dəstəsinə məxsus şeylərdən həman miqdarda Gürcüstan Hökumətinə qaytarılacaqdır.

## İDARƏDƏN CAVABLAR

Dərbənddə **Hadi əfəndiyə:** Vüquat və hadisat qəbilindən və ya hökumət işlərindən şayani-diqqət [diqqətəlayiq] əhvallar yazınız. Daha gözəl olar.

Şəkidə **M.Hacızadə əfəndiyə:** Hissiyyatınız şayani-təhsindir [alqışa layiqdir]. Lakin "ayaq bir-bir qoyarlar nərdivana".

"Bir şamaxılı" əfəndiyə: Yazdıqlarınız hələ qalsın. Mövqeyi gələndə çap edərik.

Qubada **Rüstəmzadə Əbülqasım** əfəndiyə: Qubada vaqe olan işlərdən Məclisi-Məbusan əzasının [üzvlərinin] vüqufları [xəbərləri] vardır.


**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*


**"Müsavat"da**

Balaxanı mədənlər mərkəzi Müsavat şöbə idarəsi Sabunçu, Ramana, Balaxanı mədənlərində çalışan bütün müsəlman işçilərinə elan edir:

İşbu fevral ayının 22-də, şənbə günü saat 2-də Balaxanski krujokda [Balaxanı dərnəyində] yoldaşımız doktor Qənizadə cənabları mühazirə (leksiya) oxuyub siyasəti-hazirə [hazırkı siyasət] cərəyanlarına dair məlumat verəcək. Müqtəziyyati-zamana [dövrün tələblərinə] müvafiq xətti-hərəkət təyin etmək xüsusunda tövzihat [izahat] veriləcək. Binaənaleyh [ona görə], yuxarıda yazılan məntəqələrdə çalışan işçi qardaşlarımızın göstərilən vaxtda gəlmələri xahiş olunur.

*Balaxanı mədənlər mərkəzi*
*"Müsavat" idarəsi*
*Sədr: Mirzəağa Kərimzadə*
*Katib: [Əbdürrəhim] Yusifzadə*
*39*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"Starı poçtovı": Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

***Nə ilə sakit ola bilərik?***

"Səre çeşmə bayəd gereftən bebil, / Ço por nəbaşad qozəştən bepil": (farsca) "Çeşmənin gözünü bel ilə tutmaq lazımdır, / Elə ki doldu, fil ilə də keçmək olmaz."

"Əlaci vaqiə piş əz vüqu bayəd kərd": (farsca) "Hadisənin əlacını onun baş verməsindən öncə etmək lazımdır."

***Teleqraf xəbərləri***

"Kral və kraliça Yassıdan qaçmaq istəmişlərdir.": 1914-1927-ci illərdə Rumıniya kralı olan I Ferdinand və arvadı Mariya Aleksandra nəzərdə tutulur.

***Sülh ətrafında:***

Cəmiyyəti-Əqvam layihəsi

"…bəhri və hərbi qüvvə…": "bəhri" yerinə qəzetdə "təhərri" getmişdir.

***Qəzetələrdən***

"mübahisəli əyalətlərin … məmləkət cümləsinə": aradan bir söz silinmişdir, oxunmur.

"Daxiliyyə naziri İzzət bəy": Əhməd İzzət paşa (Furqaç) nəzərdə tutulur.

"Latış dəstəsinin atəşi ilə…": Burada söhbət latış atıcılarından gedir. Latış atıcıları dəstəsi Rusiya imperiyasının Kurlandiya və Liflandiya quberniyalarının müdafiəsi məqsədi ilə yaradılmışdı. Rusiyada 1917-ci il inqilabından sonra latış atıcılarının əksəriyyəti bolşevklərin tərəfinə keçmişdi.

***Vükəla Şurasında***

"Mavərayi-Bəhri-Xəzər Hökuməti": 1918-ci ilin ortalarında Aşqabadda fəhlə üsyanı nəticəsində qurulan esermen-şevik hökuməti olan Zakaspiysk Müvəqqəti Hökuməti nəzərdə tutulur.

***İrtica hücumları***

"ruyi-əbus": qəzetdə səhvən "ruyi-əbəs" getmişdir.

"Metex həbsxanası": qəzetdə səhvən "Mext" kimi getmişdir. Metex, Tiflisdə qədim qala olub, XIX əsrin əvvəllərindən etibarən həbsxana kimi istifadə edilmişdir.

***Mətbuat***

"...bizimlə bərabər istiqlala qoşmuş...": güman ki, "qoşmuş" yerinə "qovuşmuş" olmalıdır; qəzetdə "qoşmuş" getmişdir.

***Bakı xəbərləri***

"…evlər və anbarların icarədarları…": qəzetdə "evli və anbarların icarədarları" getmişdir.

"…və Göyçay qəzasından 15…": belə olmalıdır: "…Cavad və Göyçay qəzalarının hərəsindən 15…"

"Sajen" yaxud "sajın": metrik sistemdən əvvəl işlədilən təxminən 2,13 metrə bərabər uzunluq ölçüsü.

"Çelyayevski küçə": Bakıda, indiki Mirvarid Dilbazi küçəsi.

"Qanlıtəpə və Remeslenni küçələrin küncündə": Qanlıtəpə Bakıda, indiki Dağıstan küçəsi, Remeslenni isə indiki Mirəli Qaşqay küçəsidir.

"Üçüncü Çornı-qorod və Zavodski küçələrin küncündə…": Bakıda bir neçə Zavod (Zavodski) küçəsi olmuşdur. Burada, Üçüncü Qaraşəhər küçəsi ilə kəsişən Birinci Zavod (indiki Afiyəddin Cəlilov), İkinci Zavod (indiki Firuz Qəmbərov) yaxud Üçüncü Zavod (indiki Sabit Orucov) küçələrindən biri nəzərdə tutulmuşdur.

"Milyutinski küçədə": Bakıda, indiki Tərlan Əliyarbəyov küçəsi.

***"Müsavat"da***

"…yoldaşımız doktor Qənizadə…": çox güman ki, Əbdülhəmid bəy Qənizadə nəzərdə tutulmuşdur.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Asiya nəhəngi Cənubi Qafqazın lider ölkəsini seçir

## Azərbaycan-Çin iqtisadi əlaqələri getdikcə daha çox sahəni əhatə edir

**Azərbaycanla Çin arasında iqtisadi əlaqələrin genişləndirilməsi, bu sahədə qarşıda dayanan məsələlərin həlli məqsədilə xeyli müddətdir Hökumətlərarası İqtisadi Komissiya fəaliyyət göstərir. Komissiyanın ilk iclası 2009-cu il mayın 27-də keçirilib. 2012-ci il iyunun 12-də Pekin şəhərində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.**



Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika, tikinti və digər sahələrdə əməkdaşlıq edir. Prezident İlham Əliyevin 2019-cu ilin aprelində Çinə səfəri zamanı iki ölkənin şirkətləri arasında ümumi dəyəri 821 milyon dollar olan 10 sənəd imzalanıb. Azərbaycanla Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Belə ki, ölkəmiz Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Çində Azərbaycanın ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıb. Ölkəmiz Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir.

Azərbaycan Respublikasının "Bir kəmər, bir yol" strategiyası üçün vacib ölkə olduğunu Çin rəsmiləri hər zaman qeyd edirlər. Bu məsələ Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Çinin "Phoenix" telekanalına müsahibəsində də geniş yer alıb: "Biz bu layihəni marşrut boyu ölkələrə firavanlıq gətirə biləcək əməkdaşlıq, tərəfdaşlıq və qarşılıqlı firavanlıq kimi görürük. Xəzər dənizi ilə Qara dəniz arasında yerləşən Azərbaycan Mərkəzi Asiya ilə Avropanı birləşdirən təbii əlaqədir".

H.Hacıyev həmçinin qeyd edib ki, bu yaxınlarda Çinin Sian şəhərindən gələn qatar Qazaxıstandan və Xəzər dənizindən keçərək Azərbaycana cəmi 11 günə çatıb. Nəqliyyat baxımından bu marşrut çox vacib, rəqabətədavamlı və mümkün olduğunu bir daha sübut etdi. Eyni zamanda bu marşrut təhlükəsiz və etibarlıdır. Biz bu ticarət yolunun səmərəliliyini və rəqabət qabiliyyətini daha da artırmaq üçün çinli dostlarımızla çox çalışırıq. Azərbaycan həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətini artırmaq istiqamətində səy göstərir.

Hər iki ölkə arasında münasibətlər bu gün "Bir kəmər, bir yol"la yanaşı, digər iqtisadi sahələrdə də sürətlə inkişaf edir. SOCAR dost ölkəyə Azərbaycan və digər mənşəli xam neft, neft, neft-kimya məhsullarının, eləcə də mayeləşdirilmiş qazın (LNG) təchizatını uğurla həyata keçirir. Ölkəmizin elekroenergetika sektorunda Çin şirkətlərinin fəal iştirakı enerji əməkdaşlığını getdikcə möhkəmləndirir. Bununla bərabər, Çinin enerji müəssisələri ilə çoxillik əlaqələr hazırda "yaşıl enerji" və "yaşıl texnologiya"lar üzrə layihələrlə yeni inkişaf mərhələsinə daxil olur. Bu xüsusda 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının inşasında "Dongfang" şirkətinin iştirakı, "China Gezhouba Group Overseas Investment" müəssisəsinin 2 QVt gücündə bərpaolunan enerji layihəsinin icrasında fəaliyyəti respublikamız tərəfindən yüksək dəyərləndirilir.

Yuxarıda sözügedən müsahibədə bu məsələyə də toxunulub. Çinlə Azərbaycan arasında enerji sahəsində də sıx əməkdaşlığın olduğu bir daha vurğulanıb. Çin şirkətləri neft və təbii qaz layihələrində iştirak edirlər. "Yaşıl keçid" Azərbaycan üçün prioritet sahəyə çevrildiyinə görə Çin şirkətləri ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində yaxşı tərəfdaşdırlar.

Keçən ilin oktyabr ayında elektrik enerjisi, neft-qaz, neft-kimya və bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafı, həmçinin enerji layihələrinə investisiyanın təşviqi məqsədilə "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında Anlaşma Memorandumu"nun imzalanması da bu dost ölkələrin energetika sektorunda gələcək ikitərəfli əlaqələrin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi, enerji infrastrukturunun yenilənməsi üzrə münasibətləri daha da dərinləşdirəcək. Eyni zamanda adıçəkilən anlaşma memorandumu tərəflər arasında əməkdaşlığın güclənməsinə, qarşılıqlı investisiya və biznes fəaliyyətlərinin təşviqinə, bərpaolunan enerji mənbələri sahəsində təcrübə mübadiləsinin keçirilməsinə müsbət təsir göstərəcək.

Onu da xatırladaq ki, Çinin innovasiyayönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Dost ölkə Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiya sahələrinə xüsusi maraq göstərir.

Ölkəmizdə Çin investisiyalı onlarca şirkət qeydiyyatdan keçib. Bundan başqa, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri də müraciət ediblər. "Huawei" şirkəti isə artıq bu regionda "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icraçılarındandır.

Çin şirkətlərinin ölkəmizə olan böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiya, sahibkarlıq və biliyə əsaslanan sənaye üzərində inkişaf edən iqtisadiyyata uğurla keçid edib. Tətbiq edilən vergi güzəştləri, güzəştli kreditlər, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət - özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılır. İşğaldan azad edilmiş ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını artırır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Azərenerji" informasiya sistemlərini qismən "Hökumət buludu"na köçürüb

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi xəbər verir ki, qurum "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi Yerləşdirmə - IaaS (İnfrastructure-as-a-Service) virtual server xidmətini əldə edib.**

"Azərenerji" informasiya sistemlərini qismən Bakı Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib. Qeyd edək ki, dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır. Beləliklə, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksəkkeyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

"AzInTelecom" MMC Azərbaycan və Cənubi Qafqaz regionunda "TIER III" Beynəlxalq uyğunluq sertifikatına malik ilk qurumdur. Bundan əlavə, "ISO 20000", "ISO 22301" və "ISO 27001" sertifikatlarının tələblərini ödəyən Bakı və Yevlaxda yerləşən 2 Data Mərkəzinə malikdir.

## Qobustanda genişzolaqlı internetə çıxış 89 faizdir

**"Aztelekom" MMC Qobustan rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinin 89 faizinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradıb.**



MMC-dən AZƏRTAC-a bildirilib ki, Qobustan şəhər mərkəzi, Qobustan rayonunun Dərəkənd, Cəyirli, Çəlov, Qurbançı, Ərəbşahverdi, Bədəlli, Üzümçü, Sədəfli, Cəmcəmli, Yekəxana, Təsi, Poladlı, Təklə, Təklə-Mirzəbaba, Çuxanlı, Nabur və Bəklə kəndlərində şəbəkənin tikintisi başa çatdırılıb. Ümumilikdə, Qobustan rayonu ərazisində 7355 ev təsərrüfatı və biznes subyektinin yüksəksürətli internetə çıxış imkanı təmin edilib.

Hazırda Qobustan şəhərində 1815 təsərrüfatdan 1783 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır. Yeni qoşulmalar davam etdirilir.

GPON texnologiyasının tətbiqi ilə abunəçilərə daha yüksəksürətli (30 mbit/s-dən 100 mbit/s-dək) internet paketləri (internet, internet + telefoniya, internet + televiziya, internet + telefoniya + televiziya) təklif olunur.

## Şahdağ qışdan çıxdı

**Şahdağ Turizm Mərkəzində qış mövsümünə yekun vurulub.**



Aprelin 1-dən etibarən mərkəzdə qış mövsümünün bağlanışı elan edilib və bütün xizək yamacları fəaliyyətini mövsümi olaraq yekunlaşdırıb.

Bundan əlavə, mərkəzdəki "Gaya Residences" və "Zirvə" hotelləri də yay mövsümünün açılışınadək fəaliyyət göstərməyəcək. "Shahdag Hotel & SPA" isə ilboyu Şahdağda istirahət etmək istəyənlərin xidmətindədir.

Şahdağ Turizm Mərkəzində artıq yay mövsümünün hazırlıqlarına başlanılıb.

## Dünya birjalarında neft bahalaşıb

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,43 dollar artaraq 87,85 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,44 dollar artaraq 84,15 dollar təşkil edib.

## Rusiyanın Nəqliyyat Nazirliyi "Şimal-Cənub" dəhlizindən istifadənin effektivliyini artırmağa çalışır

**Rusiya Nəqliyyat Nazirliyi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizindən istifadənin effektivliyini artırmağa çalışır. Bu barədə "Trend"ə Rusiya Nəqliyyat Nazirliyindən deyiblər.**

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizindən, eləcə də, nəqliyyat infrastrukturunun inkişafı baxımından digər nəqliyyat-logistika dəhlizlərindən istifadənin effektivliyinin artırılması üzrə tədbirlər həyata keçirilir", - deyə nazirlikdən bildiriblər.

Nazirlikdən qeyd olunub ki, dəniz limanlarına yanaşmalarda məhdudlaşdırıcı məqamların aradan qaldırılması, eləcə də nəqliyyat infrastrukturunun inkişafı üzrə tədbirlər vaxtında görülür.

"O cümlədən dəniz limanlarına yanaşmalarda məhdudlaşdırıcı məqamların aradan qaldırılmasından, dəmir yolunun, daxili su yolları infrastrukturunun, avtomobil yollarının, dövlət sərhədi vasitəsilə buraxılış məntəqələrinin inkişafı, yüklərin aşırılmasında artımı təmin etmək üçün dəniz limanlarının ötürücülük imkanlarının artırılması üzrə tədbirlərin vaxtında reallaşdırılması üzrə tədbirlərin, o cümlədən daşınma və logistika servislərinin inkişafı üzrə əlavə tədbirlərin vaxtında icrasından söhbət gedir", - deyə nazirlikdən bildiriblər.

Xatırladaq ki, "Şimal-Cənub" nəqliyyat dəhlizinin hüquqi bazası Rusiya, İran və Hindistan arasında 12 sentyabr 2000-ci il tarixli hökumətlərarası sazişin təməlini təşkil edir.



## ƏMAS-da əmək müqavilələrinin SİMA İmza ilə də həyata keçirilməsi imkanı yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) elektron əmək müqavilələrinin onlayn şəkildə imzalanması prosesi daha da genişlənib.**

İşçi və işəgötürənlər müqaviləni imzalamaq üçün digər gücləndirilmiş imzalarla yanaşı, artıq SİMA rəqəmsal imzadan da istifadə edə bilərlər.

Belə ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) ilə birgə işlər nəticəsində imzalanma prosesinin SİMA İmza ilə də həyata keçirilməsi imkanı yaradılıb və SİMA yeni nəsil rəqəmsal imza ƏMAS-a uğurla inteqrasiya olunub. RİNN sistemində də artıq bütün əmək müqavilələrinin SİMA İmza ilə onlayn imzalanması təmin edilib.




Onlayn imzalanma prosesinin genişlənməsi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti önəmli addım olmaqla, kadr uçotu sistemində kağız istifadəsinin daha da azalmasına imkan yaradır.

Proses zamanı əvvəlcə işəgötürən tərəfindən işçinin məlumatları (FİN və şəxsiyyət vəsiqəsinin seriya nömrəsi) daxil edilərək elektron müqavilə formalaşdırılır və sistem üzərindən işçiyə göndərilir.

Bundan sonra işçi ƏMAS-da şəxsi hesabına SİMA İmza ilə daxil olaraq "Təsdiq gözləyən Onlayn əmək müqaviləsi bildirişləri" bölməsinə klik edir. Bu hissədə işçi müqaviləni nəzərdən keçirib "SİMA İmza" ilə onlayn şəkildə imzalaya bilir. İmzadan sonra müqavilə avtomatik olaraq işəgötürənə göndərilir.

Son mərhələdə işəgötürən tərəfindən müqavilə elektron imza ilə imzalanır və proses bitir.

Qeyd edək ki, 2022-ci ildə istifadəyə verilən ƏMAS əmək münasibətləri üzrə bütün əməliyyatların, habelə kadr kargüzarlığı və inzibatçılığı üzrə əməliyyatların rəqəmsal müstəviyə keçidini təmin edir.

# Yanvarda 222 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin açıqladığı məlumata görə, cari ilin yanvar ayı ərzində Azərbaycanın ümumi ixracının dəyəri 1,8 milyard, qeyri-neft sektoru üzrə isə 222 milyon dollar təşkil edib.**

Yeyinti məhsulları üzrə ixracın dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artaraq 70,4 milyon, qeyri-yeyinti məhsulları üzrə 151,6 milyon dollara bərabər olub. Cari ilin ilk ayı ərzində bitki və heyvan mənşəli piylər və yağların ixracı 31,9, meyvə-tərəvəz ixracı 21,2, alüminium və ondan hazırlanan məmulatların ixracı 17,4 faiz artıb. Yanvarda aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,5 faiz artaraq 74,1 milyon dollar təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 15,4 milyon dollara bərabər olub.

Cari ilin ilk ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan isə üçüncü yerdə qərarlaşıb. Yanvar ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, xurma ikinci, pomidor (tomat) üçüncü olub.

Hesabat dövrü üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda bu şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "My Fruit" MMC, Muradova Sahibə Səlimət qızı, "P-Aqro" MMC, "Soil Boons" MMC, "Ümid 059" MMC, "EA-Fruits" MMC, "Gözəl Təbiət" MMC, "Binə Aqro" QSC, "STP Global Cable" MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "İqlim Elmi-İstehsalat Müəssisəsi" MMC.

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. Cari ilin birinci ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 42 ölkəsinə 1,4 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 75 faizini təşkil edib. İlk ayda peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya və Pakistan qərarlaşıb.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə cari ilin fevral ayı ərzində 158 müraciət daxil olub. Müvafiq dövr ərzində 372 sertifikat təqdim edilib. Ay ərzində mərkəz vasitəsilə 22,8 milyon dollar dəyərində qeyri-neft məhsullarının ixracı həyata keçirilib. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi yağı, pomidor, dondurma, dondurma vaflisi, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, alma, qarışıq şirələr, çaxır, dondurulmuş Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü və dondurulmuş əti, əridilmiş heyvan piyi, tibbi zəli, su nasosu, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib. Yuxarıda adıçəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, pomidor, süd məhsulları, polad armatur yaymasının ixracı üstün olub. İxrac edilən ölkələr arasında isə İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Fransa, Almaniya, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Suriya, Vyetnam, Türkmənistan, ABŞ, Avstraliya, Kanada, İsrail, Malayziya, Polşa, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, BƏƏ kimi ölkələr var.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Azərenerji" yaşıllaşdırma və enerji effektivliyini paralel aparır






**2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Azərenerji" "yaşıl enerji"nin əhatəsini genişləndirməklə paralel olaraq, kompleks yaşıllaşdırma aksiyaları da həyata keçirir.**

COP29-un əməliyyat şirkəti ilə razılaşdırılmış şəkildə ölkənin nəhəng enerji obyektlərində 29 min ədəd ağacın əkilməsi aksiyalarına başlanılıb. Artıq mart ayı ərzində "Mingəçevir" Su-Elektrik Stansiyası, "Cəbrayıl" Enerji Qovşağı, Şirvandakı "Cənub" Elektrik Stansiyası və ən əsası, gücünə görə müstəqillik dövründə tikilən ən böyük və hazırda da Mingəçevirdə inşası davam edən 1880 meqavatlıq yeni elektrik stansiyasının ərazisində minlərlə ağac əkilib və bu proses ilboyu digər enerji obyektlərində də həyata keçiriləcək.



Qeyd edək ki, ağacəkmə aksiyası ilə paralel şəkildə tikintisi aparılan yeni elektrik stansiyası ölkədə yaradılan bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, enerji istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması, ətraf mühitin qorunması baxımından xüsusi önəm daşıyır. Belə ki, yeni stansiyanın şərti yanacaq sərfiyyatı "Azərbaycan" İES-in digər blokları ilə müqayisədə hər kilovat saat üçün 120 qram azalmaqla 225 qram təşkil edəcək ki, bununla da illik 1,2 milyard kubmetr təbii qaza qənaət ediləcək, eyni zamanda ətraf mühitə atılan karbon qazının miqdarı 1,5-2 milyon ton azalacaq. Onu da nəzərə çatdıraq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının əsas müddəalarından biri məhz enerjinin effektivliyidir və yeni tikilən stansiya da bu baxımdan olduqca əhəmiyyətlidir.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir
Prezident İlham Əliyev Rumıniyanın energetika nazirini qəbul edib
Azərbaycan son şans verir
Prezident İlham Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib
Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib
Ermənistan Azərbaycan ilə şərti sərhəddə qoşunlarını cəmləşdirməyə və hücum xarakterli dayaq məntəqələri qurmağa davam edir

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Fransada yenidən tətillər və nümayişlər başlayır

## Fermerlərin ardınca indi də müəllimlər etiraza qalxırlar

**Ölkədə 3 aya yaxın davam etmiş kütləvi fermer etirazlarından sonra Fransa yenidən tətillər və nümayişlər təhlükəsi ilə üzləşib. Fransa həmkarlar ittifaqları Parisdə keçiriləcək Yay Olimpiya Oyunları zamanı hakimiyyəti tətillərlə hədələyirlər. Təşkilatların nümayəndələri qeyd ediblər ki, bütün tədbirlərin rəvan keçməsi üçün hökumət pul ödəməli olacaq.**




Xəstəxanalarda, ictimai nəqliyyatda və muzeylərdə çalışan işçilər tətillərə başlayacaqlarını bildirirlər. Onların narazılığı məzuniyyət zamanı işləmək perspektivindən qaynaqlanır. Əməkdaşlar həmçinin Olimpiya Oyunları zamanı işləmək üçün bonuslar, uşağa qulluq üçün müavinətlər və iş vaxtından artıq çalışmaq üçün ödəniş tələb edirlər. Xatırladaq ki, Olimpiya Oyunları iyulun 26-dan avqustun 11-dək Fransa paytaxtında keçiriləcək. Yarışları 16 milyona yaxın insanın canlı izləyəcəyi gözlənilir. Əgər həmkarlar ittifaqları öz planlarını həyata keçirmək qərarına gəlsələr, bu, Fransa hakimiyyətinin onsuz da aşağı düşmüş reputasiyasına böyük zərbə vuracaq.

Bu arada Fransada kollec və liseylər üzrə ilk həmkarlar ittifaqı (Snes-FSU) müəllimləri yenidən tətilə çağırıb. Bildirilir ki, Snes - FSU orta və ali məktəblərin müəllimlərini səfərbər olmağa səsləyib. Bundan sonra Snep-FSU, SUD Education, CGT Educ'action və FNEC-FP FO kimi bir neçə həmkarlar ittifaqları da tətil və nümayiş çağırışına qoşulublar. Tətilçilər dövlət məktəblərində "səviyyə qruplarının" ləğvini, məktəblərə daha çox resurs ayrılmasını tələb edirlər. Müəllimlər həmçinin lüzumsuz islahatların ləğv olunmasını, maaşlarının artırılmasını istəyirlər.

Paris bölgəsindəki Seine-Saint-Denis departamentində "səviyyə qruplarının" yaradılmasına qarşı çıxan müəllim heyətinin təhsil üçün fövqəladə plan tələbi diqqət mərkəzində olacaq. Ötən həftənin sonunda təhsil naziri Nikol Bellube həmin departamentin 12 deputatından 9-nu qəbul edib. Deputatlar bildiriblər ki, nazir müəllimlərin etiraz hərəkatının miqyasını düzgün qiymətləndirmir.

Son bir həftə ərzində naməlum şəxslər 400-ə yaxın təhsil müəssisəsinə təhdid mesajları göndərib. Bunu Nikol Bellube BFMTV-nin efirində deyib: "20 təhsil bölgəsində 400-ə yaxın təhsil müəssisəsi təhdidlərə məruz qalıb. Bu, çox böyük rəqəmdir və qəbuledilməzdir".

O qeyd edib ki, təkcə ötən həftə Parisdə 150-dən çox məktəb təhdid edilib.

Nazir bundan əvvəl təhlükə altında olan təhsil müəssisələrinin mühafizəsi üçün göndəriləcək mobil təhlükəsizlik qüvvələrinin yaradılmasından danışıb. Eyni zamanda bu bölmənin işçiləri məktəblərdə "uzun müddət" qala biləcəklər.

Fransızların böyük əksəriyyəti ölkədə təhlükəsizliklə bağlı vəziyyətin getdikcə pisləşdiyi fikrindədir. Bu fikir "Le Figaro" qəzetinin sifarişi ilə Fiducial/Odoxa xidmətinin apardığı sosioloji tədqiqatın nəticələrində əksini tapıb. Sosioloji rəy sorğusunda iştirak edən vətəndaşların 92 faizi Fransada təhlükəsizliklə bağlı vəziyyətin getdikcə daha da pisləşdiyini bildirib.

Bundan başqa, fransızların 60 faizi evlərinin təhlükəsizliyini gücləndirmək qərarına gəlib. Onların 33 faizi binalarının giriş qapılarında kod olan mühafizə sistemləri quraşdırıb, 26 faizi evlərini siqnalizasiya ilə, 24 faizi videonəzarət kamerası ilə təchiz edib, 21 faizi isə gözətçi iti alıb. Eyni zamanda hər beşinci fransalıdan biri özü ilə bibər qazı balonu gəzdirir.

Respublikanın daxili işlər naziri Jerald Darmanen ölkənin misli görünməmiş terror təhlükəsi ilə üz-üzə olduğunu bildirib. Fransanın Baş naziri Qabriel Attal isə Milli Müdafiə Şurasının iclasından sonra ölkədə terror təhlükəsi səviyyəsinin ən yüksək dərəcəyə qalxdığını bəyan edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# COVID-19 insanın ömrünün uzanmasına mənfi təsir edib

**Bir göz qırpımında dünyaya dəhşətli bəla kimi yayılan koronavirus pandemiyası ilə bağlı epidemioloji vəziyyət qənaətbəxş olsa da, xəstəliyin fəsadları bitmək bilmir. Görünən odur ki, milyonlarla insanın ölümünə səbəb olan COVID-19-un adını hələ uzun müddət unutmayacağıq.**



COVID-19-la bağlı tədqiqatlar həm aktiv və sağalmış xəstələr üzərində, həm də həyatını itirmiş şəxslərdə patoloji-anatomik müayinələrlə həyata keçirilir. Belə araşdırmalardan biri də ABŞ-nin Vaşinqton Universitetinin Sağlamlıq Ölçmələri və Qiymətləndirilməsi İnstitutu (IHME) tərəfindən koronavirusun orqanizmə fəsadları ilə bağlı aparılıb. Araşdırmanın təfərrüatları "The Lancet" jurnalında dərc olunub.

Tədqiqatçılar COVID-19-un insanın ömür uzunluğunu 1,5 il qısaltdığını müəyyən ediblər. Qeyd etmək lazımdır ki, gözlənilən ömür uzunluğu insanın orta hesabla nə qədər yaşadığını göstərən statistik ölçüdür. Tədqiqat rəhbəri Ostin E.Şumaxer bildirib ki, pandemiya böyüklərə daha çox təsir edib. Bu vəziyyət isə yeni patogenlərin potensial dağıdıcı təsirlərini ortaya qoyub.

2019-2021-ci illəri əhatə edən tədqiqat nəticələrinə görə, 195 ölkənin sakinlərinin 84 faizində həyat qısalması müşahidə edilib. Ən böyük azalma Şərqi Avropa, Mərkəzi Asiya və Latın Amerikasında baş verib. ABŞ-də isə bu göstərici 1,8 il olub. Mütəxəssislər bildirirlər ki, pandemiya nəticəsində səhiyyə xidmətlərinə çıxışın azalması və xroniki xəstəliklərin müalicəsində gecikmələr kimi amillər də insan ömrünün qısalmasına səbəb olub.

İHME-nin direktoru Kristofer Murray qeyd edib ki, pandemiyanın təsirlərini və fəsadlarını tam başa düşmək üçün vaxta ehtiyac var. Bu araşdırma göstərir ki, COVID-19 qlobal sağlamlığa əhəmiyyətli dərəcədə təsir göstərib. Mütəxəssisin sözlərinə görə, araşdırmanın nəticələri göstərir ki, epidemiya təkcə kəskin sağlamlıq böhranı deyil, həm də uzunmüddətli sağlamlıq nəticələrinə malikdir.

Amerikalı tədqiqatçılar insanların hansı səbəbdən uzun müddət COVID-19 virusundan əziyyət çəkdiyini izah edən araşdırma da aparıblar. Məlum olub ki, koronavirusun izləri xəstələrin qanında və toxumalarında bir ildən, bəzi hallarda isə iki ildən çox qala bilir. Koronavirusa yoluxan bəzi insanlar zaman keçdikcə yorğunluq, beyin dumanlanması, qan-damar və həzm problemləri kimi davamlı simptomlardan əziyyət çəkirlər. Alimlər bu vəziyyəti "uzun COVID" adlandırıblar.

San-Fransisko Kaliforniya Universitetinin yoluxucu xəstəliklər üzrə mütəxəssisi Maykl Pelusonun rəhbərlik etdiyi komanda tədqiqatın nəticələrini təqdim edib. Onlar infeksiyaya yoluxduqdan 14 ay sonra qanda, iki il sonra isə toxuma nümunələrində həssaslığı yüksək olan testlər vasitəsilə COVID-19 antigenləri kimi tanınan virus hissələrini aşkarlayıblar.

Universitetin tədqiqatına COVID-19-a yoluxmuş 171 şəxs qatılıb. Alimlər virusun insan hüceyrələrinə daxilolma prosesinə diqqət yetirərək onların bəzi xəstələrin orqanizmində gözlənildiyindən daha uzun müddət qaldığını müəyyənləşdiriblər. Komanda həmçinin toxuma nümunələrini tədqiq edərək, infeksiyadan iki il sonra da virusun izlərini tapıblar. Bu səbəbdən koronavirus xəstələrində uzunmüddətli simptomlar müşahidə olunur.

Tədqiqatçılar bu faktın insan ömrünün qısalmasına təsir edə biləcəyini qeyd edirlər. Maykl Peluso və komandası hazırda antiviral dərmanlarla müalicələrin virus qalıqlarını bədəndən təmizləməyə və uzunmüddətli simptomlarını yüngülləşdirməyə kömək edə biləcəyini yoxlamaq üçün klinik sınaqlar aparır.

Mütəxəssislər bildirirlər ki, bundan sonra COVID-19 virusu artıq hamımızın adi qəbul etdiyi qrip kimi həyatımızda olacaq. Onlar virusdan qorunma yollarının dəyişməz olaraq qaldığını vurğulayıblar. Buna görə də epidemioloji vəziyyətin qəlizləşməməsi üçün ehtiyat tədbirlərini də əldən verməməyi, sanitar-gigiyenik qaydalara riayət etməyi tövsiyə ediblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ağdamda və Tərtərdə mina hadisəsi olub



Aprelin 2-də Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində bir nəfərin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Rayon prokurorluğundan AZƏRTAC-a bildirilib ki, hadisə nəticəsində ərazidə mina təmizləmə işləri aparan Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1987-ci il təvəllüdlü Əliyev Xəyyam Qəmbər oğlu xəsarət alıb və istifadə olunan texnikaya maddi ziyan dəyib. Hazırda Xəyyam Əliyevin vəziyyəti qənaətbəxşdir.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri prosessual hərəkətlər aparılıb. Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

* * *

Aprelin 2-də Tərtər rayonunun Çaylı kəndi ərazisində mina hadisəsi baş verib, 3 nəfər xəsarət alıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DİN), Baş Prokurorluğu və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətlərinin yaydığı birgə məlumatda qeyd olunub. Bildirilib ki, 1969-cu il təvəllüdlü İsmayılov Polad Alış oğlu, 1992-ci il təvəllüdlü Tağızadə Arzuman Əhliman oğlu və 2006-cı il təvəllüdlü Bağırov Elmir Elnur oğlu keçmiş təmas xəttində, minalardan təmizlənməmiş ərazidə heyvan otararkən baş verən mina partlayışı nəticəsində xəsarət alıblar. Faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır. DİN, Baş Prokurorluq və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, bələd olmadıqları ərazilərə daxil olmamağa və təhlükə bildirən bütün əlamətlərə diqqətlə yanaşmağa çağırır!


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


***Beynəlxalq yük daşımalar üçün nəzərdə tutulmuş Həsənoğlu Logistika MMC-yə məxsus N0092253 seriya nömrəli Rusiya üçüncü ölkə/ölkədən icazə blankı itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti rəisinin müşaviri, Əməkdar jurnalist Abbas Əliyevə anası

**RÜXSARƏ SƏFƏRƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4245
Sifariş 703

Qiyməti 60 qəpik